# 28 May Müstəqillik Günüdür!


# Xalq qəzeti

Xalqın qəzeti!

№ 111 (30515) 28 may 2024-cü il, çərşənbə axşamı

Gündəlik ictimai-siyasi qəzeti

1919-cu ildən çıxır | Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti | xalqqazeti.az


## Fransanın Azərbaycan təxribatları cavabsız qalmayacaq



Səhifə ⇨ 5

# Paytaxt əhalisinə dəyərli bayram töhfəsi

## Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Bakıda “Crescent Bay” layihəsinin təqdimatı və “Crescent Mall” ticarət mərkəzinin açılışında



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mayın 27-də Bakıda “Crescent Bay” layihəsinin təqdimatı və “Crescent Mall” ticarət mərkəzinin açılışında iştirak ediblər.**

“Pasha Property Management” şirkətinin baş icraçı direktoru Elçin Qədimov Prezident İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya “Crescent Bay” layihəsi barədə məlumat verdi.

Sonra dövlətimizin başçısı və birinci xanım “Crescent Mall” ticarət mərkəzinin açılışında iştirak etdilər. “Pasha Malls Group” şirkətinin baş icraçı direktoru Yaman Şahin ticarət mərkəzində yaradılan şərait barədə məlumat verdi.

(ardı 2-ci səhifədə)

## Prezident İlham Əliyev Müstəqillik Günü münasibətilə paylaşım edib




**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sosial media hesablarında 28 May – Müstəqillik Günü münasibətilə paylaşım edib.**

Paylaşımdakı fotonun üzərində bu sözlər yer alıb: “28 May - Müstəqillik Günü”.

AZƏRTAC

# Sülhün Bakı formulu

## *Ekspertlər hesab edirlər ki, İrəvan öz orbitinə qayıtmağa başlayıb*

**Şübhə yoxdur ki, rəsmi İrəvan sülh sazişinə imza atandan sonra Cənubi Qafqazda tamamilə fərqli, yeni geosiyasi durumun şahidi olacağıq. Rəsmi Bakı dəfələrlə regionda əbədi sülhün yaranmasının zəruriliyini önə çəkib. “Qafqaz evi” təşəbbüsünü ilk dəfə irəli sürən məhz Azərbaycan Prezidenti İlham Əliyev olub. Cənab Prezident maraqlı aktorlara ünvanladığı mesajlarında bölgənin inkişafının qonşular arasındakı sülh və əmin-amanlıqdan keçdiyinə əminliyini ifadə edib.**



Azərbaycan üç ildir sülh təşəbbüsü ilə çıxış edir və bu zaman Cənubi Qafqaz ölkələri arasında əməkdaşlığın ən doğru yolunun üçtərəfli formatdan keçdiyini sözdə deyil, artıq əməldə sübuta yetirir. Bölgədə bütün istiqamətlər üzrə münasibətlərin normallaşma prosesinin məhz region çərçivəsində həllinə tərəfdar olan Bakı “3+3” platformasının iştirakçılarına strateji müttəfiqliyə söykənən dostluq və əməkdaşlıq təklifini israrla təkrar edir. Dövlətimizin başçısının bəyan etdiyi bu çərçivədə əməkdaşlıq Cənubi Qafqazda yeni etimad mühiti yaradacaq, regiondaxili və qitələrarası layihələrin gerçəkləşməsinə yol açacaq. Bu modelin bir tərkib hissəsi də Ermənistan ola bilər.

*(ardı 6-cı səhifədə)*

## Şərqin azadlıq məşəli – Azərbaycan Xalq Cümhuriyyəti



**Azərbaycan xalqının dövlətçilik anlayışı, dövlətçilik təcrübəsi və ənənələri 100 illərlə təşəkkül və təkmilləşmə dövrünü yaşayıb. Uzun bir tarixi dövr ərzində xalqımız xarici təhlükələrə qarşı öz mövcudluğunu və identikliyini qoruyub saxlamaq, özünəməxsus mədəni keyfiyyətlərini hifz etməklə yanaşı, dünyanın fikir-ideya tarixinə və bəşəri dəyərlərin formalaşmasına da öz töhfələrini vermişdir. Uzun əsrlər boyu xalqımız yaratdığı zəngin mədəniyyəti daim cilalamış, onu ictimai həyata məharətlə tətbiq etməyi bacarmış və tarixin yeni dövründə mütərəqqi cəmiyyətlər sırasında öz layiqli yerini tutmuşdur.**

Xalqımızı səciyyələndirən başlıca tarixi xüsusiyyətlərdən biri də məhz onun dəyəryaratma kimi tarixi rolunu aramsız şəkildə və getdikcə artan vüsətlə yerinə yetirməsi olmuşdur. Azərbaycan xalqı həmişə zamanın çağırışlarını düzgün dəyərləndirmək iqtidarında olmuş və ictimai– siyasi, mədəni, eyni zamanda, geosiyasi proseslərin iştirakçısı kimi özünü ifadə etmək bacarığını tarixin bütün mərhələlərində ortaya qoymuşdur.

XX əsrin əvvəllərində dünyanın qabaqcıl dövlətlərinin və millətlərinin universal hüquq və azadlıqlar ideyasını hələ yenicə mənimsəməyə başladığı bir vaxtda Azərbaycan xalqının öz istiqlaliyyəti, hüquq və azadlıqları uğrunda mübarizəyə başlaması da bu qəbildən olan müstəsna örnəklərdən biridir. Bu mübarizənin başlıca hədəfi Rusiya imperiyasından azad olmaq, Azərbaycan xalqının itirilmiş dövlətçilik ənənələrini bərpa etmək və yeni formalaşdırılacaq dövlət modelində irqindən, dinindən, milliyyətindən asılı olmayaraq bütün insanların azad və xoşbəxt yaşaması üçün demokratik, hüquqi prinsiplərin hökm sürdüyü bir cəmiyyətin yaradılması idi.

(ardı 7-ci səhifədə)

## Rusiya səfirinin geri çağırılması...



Səhifə ⇨ 6

## Qeyri-neft sənayesinin istehsal çəkisi artır



Səhifə ⇨ 12

## NATO-nun Qara dəniz regionuna marağı güclənir

Səhifə ⇨ 15

# Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Bakıda "Crescent Bay" layihəsinin təqdimatı və "Crescent Mall" ticarət mərkəzinin açılışında

(əvvəli 1-ci səhifədə)

"Crescent Mall" ticarət mərkəzi ənənənin innovasiyalarla qovuşduğu bir məkan kimi Bakının müasir və dinamik inkişafını əks etdirir. 115 min kvadratmetr sahədə alış-veriş, əyləncə və istirahətin təklif edildiyi məkanda 5 mərtəbəli müasir texnologiyalarla inşa edilən bina, 3 mərtəbəli 1193 parkinq yeri, açıq havada yerləşən terras və restoran, həmçinin Azərbaycanda ticarət mərkəzində ilk dəfə fəaliyyət göstərəcək musiqili fəvvarə yer alıb.

Ticarət mərkəzində 107 geyim, qastronomiya, sağlamlıq, uşaq əyləncə mərkəzləri və digər mağazalar var. Bura gələn qonaqlar vaxtlarını səmərəli keçirə biləcəklər. "Crescent Mall"da alıcılara böyüklər və uşaqlar üçün geniş çeşiddə geyimlər, ev avadanlıqları və digər məhsullar təklif olunur.






Mərkəzdə 2400-ə yaxın işçi fəaliyyət göstərəcək.

Ticarət mərkəzinin açıq restoranlara qalxan hissəsində çoxmərtəbəli sütunda ölkəmizin mədəni irsinə istinad edən milli elementlərdən ibarət incəsənət nümunəsi həkk edilib. Rəsm əsərində təsvir edilən və sanki orta əsrlərin milli xalçalarından birbaşa sütuna köçmüş nar rəsmləri dünya, həyat və birlik simvoludur. Açan güllər və quşlar ilə zaman dinamikasında birlikdə araya gələn "Həyat Ağacı" isə sürətlə inkişaf edən, ənənələrimizə sadiq qalaraq gələcəyə doğru inamla hərəkət edən, birlik və azadlıq rəmzini özündə təcəssüm etdirən Azərbaycan xalqını ifadə edir.

Bundan başqa "Crescent Mall"da SPA, gözəllik və fitnes mərkəzləri də qonaqların xidmətində olacaq.

Qeyd olundu ki, ən müasir texnologiyalarla inşa edilən ticarət mərkəzində rəqəmsallaşan dünyanın yeni trendlərinə uyğun olaraq süni intellektlə fəaliyyət göstərən məlumat bələdçisi xidməti də var. Burada fəaliyyət göstərən brendlər haqqında ətraflı məlumat verəcək bələdçi, həmçinin istiqamət göstərəcək və xidmətlərlə bağlı sorğuları cavablandıracaq. Bununla da qonaqların ticarət mərkəzi daxilində hərəkəti asanlaşacaq. Məlumat bələdçisi 140 dildə yazılı, Azərbaycan, ingilis və rus dillərində isə şifahi məlumatlar verə bilir.

Süni intellektin tətbiqi ilə ticarət mərkəzində müasir və dünyəvi trendlər tarixi və mədəni dəyərlərimizlə də əlaqələndirilib. Bu məqsədlə girişdə qonaqları qarşılayan süni intellektli robot "Leyli" adlandırılıb. Süni intellekt məlumat bələdçisi Leyli dahi Azərbaycan şairi Nizami Gəncəvinin "Leyli və Məcnun" poemasından müdriklik və gözəllik rəmzi olan Leylini simvolizə edir.

"Crescent Mall" ticarət mərkəzi kimi obyektlərin istifadəyə verilməsi ölkəmizin iqtisadi potensialını və vətəndaşlara xidmətin yüksək səviyyədə təşkilini nümayiş etdirir. Bundan başqa, ticarət mərkəzi dünyanın ən gözəl və müasir şəhərlərindən biri olan Bakının memarlığı, müasirliyi ilə harmoniya təşkil edərək paytaxtımızı daha da gözəlləşdirir.




# "İlham Əliyev. İnkişaf - məqsədimizdir" – 134-cü kitab

**"İlham Əliyev. İnkişaf - məqsədimizdir" çoxcildliyinin 134-cü kitabı çapdan çıxıb.**




Çoxcildliyin yeni kitabında toplanmış materiallar 2024-cü ilin fevral-mart aylarını əhatə edir.

Azərbaycanda fevral ayının ən mühüm hadisəsi müstəqillik dövründə ilk dəfə respublikanın bütün ərazisində prezident seçkilərinin keçirilməsi və xalqın İlham Əliyevi yekdilliklə yenidən prezident seçməsi olub. Kitabda Prezident İlham Əliyevin seçkilərdə qazandığı qələbə münasibətilə bir çox dövlət və hökumət rəhbərlərinin, beynəlxalq təşkilatların və ayrı-ayrı nüfuzlu şəxslərin ona göndərdiyi təbrik məktubları toplanıb. Fevralın 14-də Azərbaycan Respublikası Prezidentinin Milli Məclisdə andiçmə mərasimi keçirilib. Mərasimdə nitq söyləyən Prezident İlham Əliyev Azərbaycanın həyatında yeni dövrün başlandığını bildirərək deyib: "İndi isə yeni dövr başlayır. Biz bu dövrə alnımız açıq, üzümüz ağ, başımız dik daxil oluruq. Bu dövrün böyük nailiyyətləri olacaq, mən buna şübhə etmirəm. Çünki son illərin tarixi onu göstərdi ki, qarşıya qoyduğumuz bütün vəzifələr icra edildi. Əlbəttə, bütöv Azərbaycan bu dövrə qədəm qoymuş, bütövləşmiş birlik nümayiş etdirmiş, o cümlədən, bu seçkilərdə böyük birlik nümayiş etdirmiş xalq böyük uğurlara imza atacaq. Mənim buna şübhəm yoxdur. Azərbaycan cəmiyyətində hökm sürən çox müsbət ab-hava bizi daha da gücləndirir. Güclü Azərbaycan bizim həmişə hədəfimiz olub. Əgər güclü Azərbaycan qurmasaydıq, əgər kimdənsə istər siyasi, istər iqtisadi sahədə asılı olmuş olsaydıq, heç vaxt biz ərazi bütövlüyümüzü bərpa edə bilməzdik".

Oxucular dövlətimizin başçısının nitqinin tam mətni ilə bu kitabda tanış ola bilərlər.

Çoxcildliyin yeni kitabında Azərbaycan Prezidentinin 60-cı Münxen Təhlükəsizlik Konfransında iştirak etmək üçün Almaniya Federativ Respublikasına işgüzar səfəri, prezident seçkilərindən sonra qardaş Türkiyə Respublikasına ilk rəsmi səfəri zamanı keçirdiyi görüşlərə dair materiallar da yer alıb.

Prezident İlham Əliyev fevral ayında Xocalıya səfər edib, Xocalı Soyqırımı Memorialının təməlini qoyub, rayon ictimaiyyətinin nümayəndələri ilə görüşüb. Bütün bunlar haqqında informasiya və dövlətimizin başçısının Xocalı sakinləri qarşısındakı çıxışının mətni yeni kitaba daxil edilib.

Mart ayında isə ölkəmizin iqtisadi həyatında mühüm tədbir - Bakıda Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin 10-cu və Yaşıl Enerji Məşvərət Şurası çərçivəsində nazirlərin 2-ci iclası keçirilib. Tədbirdə çıxış edən Prezident İlham Əliyev şaxələndirmə haqqında Azərbaycanın mövqeyinin dəyişməz olduğunu, eyni zamanda, Avrasiyadakı geosiyasi vəziyyətin dövlətimizin gördüyü işlərin nə dərəcədə düzgün olduğunu sübut etdiyini bildirib.

Sitat: Məşvərət Şurasının ötən illərdəki toplantıları zamanı biz həmişə enerji təhlükəsizliyi məsələlərini müzakirə etmişik. Azərbaycanın burada mövqeyi hər zaman ardıcıl olub – biz bunu hər bir ölkənin milli təhlükəsizlik məsələsi hesab edirik. Biz şaxələndirmə haqqında danışarkən mövqeyimiz hər zaman dəyişməz olub və bu gün də belədir – şaxələndirmə yalnız marşrutlara deyil, həm də mənbələrə şamil edilməlidir.

Bu gün Avrasiyadakı geosiyasi vəziyyət məhz bizim gördüyümüz işlərin nə dərəcədə düzgün olduğunu sübut edir. Azərbaycana gəldikdə, Cənub Qaz Dəhlizi tamamilə yeni marşrutdur. Bu gün ona artıq bir çox marşrutlar – interkonnektorlar əlavə edilib. Azərbaycan qazı yeni mənbədir. Yəni, biz burada, bu formatda, təşəbbüskarı olduğumuz bu layihədə enerjinin şaxələndirilməsi məsələlərini tam şəkildə əhatə edildiyini görürük.

Dövlətimizin başçısının nitqinin tam mətni ilə 134-cü kitabda tanış olmaq mümkündür.

Yeni nəşrdə Azərbaycan Prezidentinin XXVII Avrasiya İqtisadi Zirvə toplantısının iştirakçılarına, XII Azərbaycan-Rusiya Regionlararası Forumunun iştirakçılarına müraciət məktubları, habelə müxtəlif ölkələrin dövlət və hökumət başçılarına məktublarının mətnləri də verilib.

"Azərnəşr" tərəfindən buraxılan 134-cü kitabın hazırlanmasında Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC) materiallarından istifadə olunub.

***AZƏRTAC***

# Gürcüstanın Baş naziri Zati-aliləri cənab İrakli Kobaxidzeyə

**Hörmətli cənab Baş nazir!**

Dost Gürcüstanın milli bayramı – Müstəqillik Günü münasibətilə Sizə və bütün xalqınıza şəxsən öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi çatdırıram.

Azərbaycan-Gürcüstan əlaqələri əsrlər boyu mehriban qonşuluq və qarşılıqlı anlaşma şəraitində yaşamış dost xalqlarımızın sarsılmaz iradəsindən və məramından qaynaqlanır. Dövlətlərarası münasibətlərimizin bu gün yeni vüsət alması, qarşılıqlı inam və dəstəyə əsaslanan tərəfdaşlığımızın müvəffəqiyyətlə inkişaf etməsi və yeni məzmunla zənginləşməsi məmnunluq doğurur.

Strateji əhəmiyyət daşıyan və birgə həyata keçirdiyimiz nəqliyyat, enerji və digər infrastruktur layihələri xalqlarımızın mənafelərinə xidmət etməklə yanaşı, daha geniş regionda – Avrasiya məkanında önəmli amil rolunu oynayır və əvəzolunmaz imkanlar açır.

Əminəm ki, xalqlarımızın rifahı, bölgəmizin sabitliyi və təhlükəsizliyi naminə Azərbaycan-Gürcüstan əlaqələrinin bütün sahələrdə genişləndirilməsi, birgə təşəbbüslərimizin reallaşdırılması, qarşılıqlı faydalı əməkdaşlığımızın və strateji tərəfdaşlığımızın daha da dərinləşdirilməsi istiqamətində birgə səylərimizi bundan sonra da uğurla davam etdirəcəyik.

Bu bayram günündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Gürcüstan xalqına daim əmin-amanlıq və firavanlıq arzulayıram.

Hörmətlə,

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 23 may 2024-cü il**

# 2024-cü il üçün Azərbaycan Respublikasının texnika və mədəniyyət sahələrində Dövlət Mükafatlarının verilməsi haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikasının Elm, texnika, memarlıq, mədəniyyət və ədəbiyyat üzrə Dövlət Mükafatları Komissiyasının təklifinə əsasən **qərara alıram:**

2024-cü il üçün texnika və mədəniyyət sahələrində Azərbaycan Respublikasının Dövlət Mükafatları aşağıdakı şəxslərə verilsin:

**Texnika sahəsi üzrə**

Vaqif Məcid oğlu Fərzəliyev
Həqiqət Əliəşrəf qızı Cavadova
Əfsun Rəzzaq oğlu Sucayev

– "Xüsusi təyinatlı sürtkü yağlarının yaradılması və istehsalının təşkili" kompleks elmi-texniki işinə görə

**Mədəniyyət sahəsi üzrə**

Mehriban Zaur qızı Ələkbərzadə – Teatr rejissorluğu sahəsində fəaliyyətinə görə.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 27 may 2024-cü il**

# İnkişaf etməkdə olan kiçik ada dövlətlərinin "Dayanıqlı firavanlıq üçün istiqamətin müəyyən olunması" mövzusunda 4-cü Beynəlxalq Konfransının iştirakçılarına

**Xanımlar və cənablar!**

Azərbaycan həmişə İnkişaf etməkdə olan kiçik ada dövlətləri ilə həmrəy olub, onların legitim maraqlarını və narahatlıqlarını müdafiə edib.

Azərbaycanın Qoşulmama Hərəkatına 4 illik sədrliyi dövründə biz Hərəkatın gündəliyini irəli aparmaq üçün səylərimizi əsirgəmədik. Qoşulmama Hərəkatının institusional inkişafına, Hərəkatın birliyinin möhkəmləndirilməsinə və nüfuzunun artırılmasına xüsusi diqqət yetirildi.

Qoşulmama Hərəkatına sədrlik Azərbaycana təşkilatın bütün üzv dövlətlərinin, o cümlədən İnkişaf etməkdə olan kiçik ada dövlətlərinin ehtiyaclarını və narahatlıqlarını daha yaxşı anlamaq üçün imkan yaratdı.

Qoşulmama Hərəkatının sədri kimi Azərbaycan COVID-19 pandemiyasına qarşı mübarizə üzrə qlobal səylərin önündə gedib və bu məsələ ilə bağlı BMT-nin xüsusi sessiyasının keçirilməsi təşəbbüsü ilə çıxış edib. Azərbaycan peyvənd milliətçiliyinə qarşı çıxış edərək bütün ölkələr üçün vaksinlərə ədalətli və universal əlçatanlığı təşviq edib.

Pandemiya zamanı Azərbaycan, həmçinin 80-dən çox ölkəyə, o cümlədən 20-yə yaxın İnkişaf etməkdə olan kiçik ada dövlətinə maliyyə və humanitar yardım göstərib.

Keçən ilin mart ayında Qoşulmama Hərəkatının sədri kimi mən İnkişaf etməkdə olan kiçik ada dövlətlərində pandemiyadan sonrakı bərpanı dəstəkləmək üçün fəaliyyətə Qlobal çağırış elan etdim. Bu çağırışla mən beynəlxalq ictimaiyyəti pandemiyanın sosial-iqtisadi nəticələrinin aradan qaldırılması üçün inkişaf etməkdə olan kiçik ada dövlətlərinə maliyyə yardımı və birbaşa iqtisadi dəstək göstərməyə dəvət etdim. Azərbaycan bu çağırışa vəsait ayıran ilk ölkə olub.

Xanımlar və cənablar,

Azərbaycan bu il COP29-a ev sahibliyi etmək şərəfinə nail olub. Azərbaycanın COP29-a ev sahibliyi ilə bağlı namizədliyinin yekdilliklə dəstəklənməsi beynəlxalq ictimaiyyətin Azərbaycana olan hörmət və etimadını əks etdirir.

İqlim dəyişikliyi bütün qitələrdəki hər bir ölkəyə təsir edir. İqlim dəyişikliyinin Azərbaycana da mənfi təsiri vardır. Çaylarımızın suyu azalır, Xəzər dənizinin səviyyəsi aşağı düşür.

Bununla belə, İnkişaf etməkdə olan kiçik ada dövlətləri iqlim dəyişikliyinin təsirlərinə daha həssasdır. İqlim dəyişikliyinə heç bir təsiri olmayan bu ölkələr onun ən pis fəsadlarına məruz qalır, hətta ekzistensial təhlükə ilə üzləşirlər. İqlim dəyişikliyi onların Dayanıqlı İnkişaf Məqsədlərinə nail olmaq istiqamətində irəliləyişinə də mane olur.

COP29-a sədrliyimiz zamanı iqlim dəyişikliyinin İnkişaf etməkdə olan kiçik ada dövlətləri üçün yaratdığı problemlərin həlli prioritetlərimiz arasında olacaq. Biz Bakıda keçiriləcək COP zamanı İnkişaf etməkdə olan kiçik ada dövlətlərinin Zirvə toplantısını keçirməyi planlaşdırırıq.

İnkişaf etməkdə olan kiçik ada dövlətlərinin səslərinin yüksək və aydın eşidilməsini təmin etmək üçün əlimizdən gələni edəcəyik.

Mən COP29 zamanı bütün ölkələri İnkişaf etməkdə olan kiçik ada dövlətlərinin ehtiyaclarına və prioritetlərinə cavab verən razılaşma əldə etmək üçün maksimum səy göstərməyə çağırıram.

Azərbaycan, öz növbəsində, artıq bir sıra İnkişaf etməkdə olan kiçik ada dövlətlərində qasırğaların, zəlzələlərin, daşqınların və digər təbii fəlakətlərin törətdiyi fəsadların aradan qaldırılmasına öz dəstəyini göstərməkdədir. Biz bu ölkələrə yardım etmək üçün əməli addımlar atmağa davam edəcəyik. Azərbaycan 33 İnkişaf etməkdə olan kiçik ada dövlətinin təmsil olunduğu Millətlər Birliyi, o cümlədən digər beynəlxalq qurumlar vasitəsilə texniki yardım proqramları üçün vəsait ayıracaq.

Biz, həmçinin İnkişaf etməkdə olan kiçik ada dövlətlərinin vətəndaşlarına Azərbaycan universitetlərində təhsil almaq üçün təqaüd imkanlarını genişləndirəcəyik. İndiyədək 10-dan çox İnkişaf etməkdə olan kiçik ada dövləti Azərbaycanın İslam Əməkdaşlıq Təşkilatı və Qoşulmama Hərəkatının Üzv Dövlətləri üçün təqdim etdiyi Təhsil Qrant Proqramlarından faydalanıb.

Azərbaycan, həmçinin COP29-da İnkişaf etməkdə olan kiçik ada dövlətlərinin iştirakına dəstək verəcək.

Xanımlar və cənablar,

Bakıdakı COP üçün seçdiyimiz "Yaşıl dünya naminə həmrəy olaq" şüarı bizim COP29 missiyamızın ruhunu əks etdirir. Hamımız birlikdə bu vəziyyətlə üzləşdiyimiz üçün bütün ölkələri planetimizi xilas etmək naminə həmrəylik nümayiş etdirməyə çağırıram. Bu məqsədə çatmaq üçün bizə siyasi iradə və Azərbaycanın daim müdafiə etdiyi çoxtərəflilik lazımdır.

Mən bu ilin noyabrında Bakıda keçiriləcək COP29-da İnkişaf etməkdə olan kiçik ada dövlətlərinin dövlət və hökumət başçılarının dəyərli iştirakını arzulayır və İnkişaf etməkdə olan kiçik ada dövlətləri üzrə 4-cü Beynəlxalq Konfransa uğurlar arzulayıram.

**Sağ olun!**

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı, 21 may 2024-cü il**

# Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

**Cənab Prezident!**

Sizə və Azərbaycan xalqına 28 May Müstəqillik Günü münasibətilə səmimi təbriklərimi göndərirəm.

İndiki dövr həll olunmamış münaqişələr və hamımıza təsir edən iqlim dəyişikliyinin nəticələrinin təhdidi baxımından bizi sınayır. Bizdən indi həmişəkindən daha çox tələb olunur ki, qarşılıqlı etimad və anlayış əsasında sülh içində gələcək üçün zəmin və planetimizdə harmoniya və firavanlıq dolu bir həyat üçün mühit yaradaq.

Sizin ölkənizlə qonşunuz Ermənistan arasında münaqişənin həlli üçün birgə səylər göstərmək istəyi bizim ölkələrimizin hökumət və xalqlarını birləşdirir. Əmin olun ki, bu münaqişənin regionun gələcəyinə artıq kölgə salmaması üçün Almaniya əlindən gələni əsirgəməyəcəkdir.

Builki COP29 iqlim konfransına evsahibliyi edən Azərbaycan öz üzərinə xüsusi məsuliyyət götürmüşdür. Mən buna görə Sizə və Sizin həmvətənlərinizə təşəkkür etmək və Sizi iddialı iqlim siyasətinə mühüm təkan verməyə təşviq etmək istərdim.

Sizə və həmvətənlərinizə qarşımızdakı dövrdə sülh, əmin-amanlıq və hər şeydən əvvəl cansağlığı arzulayıram.

***Frank-Valter ŞTAYNMAYER,***
***Almaniya Federativ Respublikasının Prezidenti***

***

**Hörmətli cənab Prezident!**

Ölkənizin milli bayramı münasibətilə səmimi təbriklərimi, Azərbaycan xalqına sülh və firavanlıq arzularımı qəbul etməyinizi xahiş edirəm.

İcazə verin, ölkələrimiz və xalqlarımız arasında səmərəli qarşılıqlı fəaliyyət və əməkdaşlıqdan məmnun olduğumu bildirim. Bir daha təsdiq etmək istəyirəm ki, Bolqarıstan Respublikası Azərbaycan Respublikası ilə gözəl dostluq və strateji tərəfdaşlıq münasibətlərini yüksək qiymətləndirir.

Əminəm ki, son danışıqlarımızdan və bu il mayın 8-də Bakıda Bolqarıstan Respublikası ilə Azərbaycan Respublikası arasında strateji tərəfdaşlığın gücləndirilməsinə dair Birgə Bəyannamənin imzalanmasından sonra son illərdəki intensiv ikitərəfli siyasi dialoq yeni məzmun kəsb edəcəkdir. İnanıram ki, ikitərəfli münasibətlərimizdə tətbiq etdiyimiz praqmatik yanaşma gələcəkdə də müsbət dinamikasını davam etdirəcək.

Hörmətli cənab Prezident, Sizə möhkəm cansağlığı və ali dövləti fəaliyyətinizdə uğurlar arzulayır, ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

**Hörmətlə,**

***Rumen RADEV,***
***Bolqarıstan Respublikasının Prezidenti***

***

**Cənab Prezident!**

Azərbaycan Respublikasının milli bayramı – Müstəqillik Günü münasibətilə Sizə təbriklərimi çatdırır, xalqınıza firavanlıq və əmin-amanlıq arzulayıram.

Ölkələrimiz arasında sıx əlaqələr möhkəm prinsiplərə və ümumi strateji maraqlara əsaslanır. Rumıniya ilə Azərbaycan Respublikası arasında ikitərəfli və ya regional səviyyədə həyata keçirilən çoxsaylı layihələr münasibətlərimizin mükəmməl səviyyəsini əyani şəkildə nümayiş etdirir.

Azərbaycan Rumıniya üçün Cənubi Qafqaz regionunda yaxın və etibarlı strateji tərəfdaşdır. Sizi əmin edirəm ki, Rumıniya strateji tərəfdaşlığımızı gücləndirmək üçün ciddi səylər göstərir. Mən tam inanıram ki, bizim birgə səylərimizlə ikitərəfli əməkdaşlıq enerji, nəqliyyat, təhsil, ticarət və investisiya kimi böyük əhəmiyyət kəsb edən sahələrdə bundan sonra da inkişaf edəcəkdir.

Eyni zamanda, Rumıniya Azərbaycan Respublikası ilə Avropa İttifaqı arasında dialoqu dəstəkləmək üçün qətiyyətlə fəaliyyət göstərməyə davam edəcəkdir.

Cənab Prezident, xahiş edirəm mənim xüsusi ehtiramımı qəbul edəsiniz.

**Hörmətlə,**

***Klaus Verner İOHANNİS,***
***Rumıniyanın Prezidenti***

***

**Möhtərəm cənab Prezident!**

Sizi Serbiya Respublikası xalqı adından və öz adımdan Azərbaycan Respublikasının Müstəqillik Günü münasibətilə səmimi-qəlbdən təbrik edir, ölkənizə tərəqqi, xalqınıza yüksək rifah arzu edirəm.

Serbiya Respublikası Azərbaycan Respublikası ilə qarşılıqlı etimada, təqdir və hörmətə, eyni zamanda, beynəlxalq hüququn fundamental prinsiplərinə ardıcıl riayət olunmasına sadiqliyə əsaslanan münasibətlərin inkişafına xüsusi önəm verir.

İcazə verin, BMT Baş Assambleyasında yaxın zamanda keçirilmiş səsvermədə Azərbaycan Respublikasının göstərdiyi anlayış və mövqeyə, bununla da Serbiya Respublikasına, regionda sülh və sabitliyə dəstək verdiyinə görə minnətdarlığımı bildirim.

İstər ikitərəfli, istərsə də çoxtərəfli müstəvidə Serbiya Respublikası üçün mühüm əhəmiyyət kəsb edən məsələlərdə ölkənizin göstərdiyi kömək və dəstəyə görə dərin minnətdarlığımı bildirirəm. Böyük fəxr hissi ilə qeyd etmək istərdim ki, Azərbaycan Respublikası həyati mənafelərin müdafiəsində dəfələrlə səmimi tərəfdaşımız olduğunu nümayiş etdirib və biz Serbiya Respublikasında bunu unutmayacağıq.

Ölkələrimiz arasında əməkdaşlığın daha da möhkəmləndirilməsi istiqamətində iştirakınızı yüksək qiymətləndirirəm. Əminəm ki, Serbiya Respublikası ilə Azərbaycan Respublikası arasında strateji tərəfdaşlıq qarşıdakı dövrdə də qarşılıqlı maraq doğuran bütün sahələrdə, xüsusilə də iqtisadi sahədə möhkəmlənməyə və zənginləşməyə davam edəcək və Sizinlə birlikdə bu işə öz şəxsi töhfəmi verməyə hazır olduğumu bildirirəm.

Bizim üçün ən mühüm milli və dövlət əhəmiyyəti daşıyan Kosovo və Metohiya məsələsi ilə bağlı göstərdiyiniz diqqət və dəstəyə görə də təşəkkür edirəm. Serbiya Respublikasının suverenliyi və ərazi bütövlüyünün qorunmasında Azərbaycan Respublikasının göstərdiyi prinsipial və qəti dəstək ölkənizin beynəlxalq hüququn əsas prinsiplərinin qorunmasına sadiqliyinin göstəricisidir. Əmin olun ki, Serbiya Respublikası da Azərbaycan Respublikasının suverenliyini və ərazi bütövlüyünü dəstəkləməyə davam edəcəkdir.

Hörmətli cənab Prezident, Sizə bir daha dərin ehtiramımı ifadə edirəm.

***Aleksandar VUÇİÇ,***
***Serbiya Respublikasının Prezidenti***

***

**Hörmətli cənab Prezident!**

İcazə verin, ölkənizin Müstəqillik Günü münasibətilə Sizə və dost Azərbaycan xalqına ən səmimi təbriklərimi çatdırım.

Mən Albaniya və Azərbaycanın dostluğun, əməkdaşlığın inkişaf etdirilməsi istiqamətində əldə etdiyi böyük nailiyyəti xüsusi olaraq məmnunluqla qeyd edirəm. Biz dostluq münasibətlərinin və ikitərəfli əməkdaşlığın möhkəmləndirilməsində çox maraqlıyıq. Əlaqələrimizin hər iki ölkənin mənafeyinə uyğun olaraq yeni səviyyələrə yüksəldilməsinin əhəmiyyətini vurğulayıram.

Fürsətdən istifadə edərək bu ilin martında Azərbaycana səfərim zamanı mənə göstərilən qonaqpərvərliyə görə Sizə səmimi-qəlbdən təşəkkürümü bildirirəm.

Zati-alinizə və Azərbaycan xalqına davamlı uğurlar, inkişaf, firavanlıq və xoşbəxtlik arzulayıram.

**Hörmətlə,**

***Bayram BEQAY,***
***Albaniya Respublikasının Prezidenti***

***

**Zati-aliləri!**

Azərbaycan Respublikasının Müstəqillik Günü münasibətilə Sizə böyük məmnuniyyətlə ən səmimi təbriklərimi çatdırıram.

Zati-alinizə xoşbəxtlik, xalqınıza firavanlıq arzu edirəm.

***Əlahəzrət NARUHİTO,***
***Yaponiyanın İmperatoru***

***

**Möhtərəm İlham Heydər oğlu!**
**Əziz Qardaşım!**

Ölkənizin milli bayramı – Müstəqillik Günü münasibətilə Sizi və Sizin şəxsinizdə qardaş Azərbaycan xalqını səmimi-qəlbdən təbrik etməkdən məmnunluq duyuram.

Sizin kimi müdrik, vətənpərvər və fədakar liderin, görkəmli siyasətçi və dövlət xadiminin rəhbərliyi ilə Azərbaycanın ərazi bütövlüyü tam bərpa olunmuş, tarixi ədalət bərqərar edilmişdir.

Ölkənizdə həyata keçirilən genişmiqyaslı daxili və xarici siyasət, iqtisadi və sosial islahatlar bu gün öz bəhrəsini verir, Azərbaycanın beynəlxalq aləmdə etibarı və nüfuzu durmadan yüksəlir.

Xüsusilə vurğulamaq istərdim ki, biz Azərbaycan və Özbəkistan arasında yaranmış, qardaş xalqlarımızın ümumi məqsəd və istəklərinə tam uyğun gələn sıx əlaqələri xüsusi qiymətləndiririk.

Sizinlə fəallaşan açıq və səmərəli dialoqlarımız, eləcə də danışıqlarımız zamanı əldə edilmiş mühüm sazişlər və irimiqyaslı layihələr, təsdiq edilmiş "yol xəritələri"nin tam həyata keçirilməsi, şübhəsiz ki, strateji tərəfdaşlığımızı tamamilə yeni səviyyəyə qaldıracaqdır.

Hörmətli İlham Heydər oğlu, əminəm ki, yaxın gələcəkdə çoxtərəfli formatlar çərçivəsində bənzərsiz Azərbaycan torpağına yüksək səviyyəli səfərlərimiz hərtərəfli tərəfdaşlığımızın daha da dərinləşməsinə xidmət edəcəkdir.

Daha əvvəl Sizinlə razılaşdığımız kimi, kimya, neft-qaz, mədənçilik, energetika, elektrotexnika, zərgərlik, maşınqayırma, əczaçılıq, tikinti materialları və bank-maliyyə sahələri daxil olmaqla 10 yeni istiqamətdə tərəfdaşlığın gücləndirilməsinə yönələn böyük planlarımızın tam şəkildə reallaşacağına əminəm.

Bizim möhkəm siyasi iradəmiz və birgə səylərimiz sayəsində qarşılıqlı faydalı və uzunmüddətli tərəfdaşlığımız qardaş xalqlarımızın ümumi inkişafı naminə bundan sonra da davamlı şəkildə inkişaf edəcəkdir.

Fürsətdən istifadə edərək, Zati-alinizə cansağlığı, ailə səadəti, Vətəninizin inkişafı naminə fəaliyyətinizdə böyük müvəffəqiyyətlər, qardaş Azərbaycan xalqına isə sülh, əmin-amanlıq, davamlı tərəqqi və firavanlıq arzulayıram.

**Səmimi ehtiramla,**

***Şavkat MİRZİYOYEV,***
***Özbəkistan Respublikasının Prezidenti***

***

**Hörmətli İlham Heydər oğlu!**

Tacik xalqının adından və şəxsən öz adımdan böyük məmnuniyyətlə Sizə və bütün dost Azərbaycan xalqına ölkənin milli bayramı münasibətilə səmimi təbriklərimizi çatdırıram.

Azərbaycan Respublikasının ölkənin sosial-iqtisadi və mənəvi həyatında böyük nəticələr əldə edərək öz inkişafında durmadan irəlilədiyini qeyd etmək sevindiricidir. Həmçinin Azərbaycanın beynəlxalq arenada nüfuzu artır.

Ölkələrimizin qarşılıqlı münasibətlərinin əsaslarının hərtərəfli möhkəmlənməsi Tacikistanın xarici siyasət prioritetlərində mühüm yer tutur.

Birgə səylər sayəsində dövlətlərarası tərəfdaşlıq və dialoq bütün səviyyələrdə uğurla inkişaf edir ki, bu da dostluq münasibətlərimizin məhsuldar şəkildə genişlənməsinə kömək edir. Bunun əyani nümunəsi əlaqələrimizin strateji tərəfdaşlıq səviyyəsinə yüksəlməsidir.

Mənim bu yaxınlarda Azərbaycana dövlət səfərim zamanı keçirdiyimiz görüşləri səmimiyyətlə xatırlayıram. Əminəm ki, bu səfər çərçivəsində əldə olunmuş razılaşmaların praktik reallaşması uzunmüddətli perspektivə hesablanmış Tacikistan–Azərbaycan məhsuldar əməkdaşlığına yeni təkan verəcəkdir.

İnanıram ki, biz gələcəkdə də strateji tərəfdaşlığımızın möhkəmləndirilməsi üçün zəruri birgə səyləri davam etdirəcəyik, ikitərəfli münasibətlərimizdə mövcud olan böyük potensialdan tam istifadə edəcəyik.

Əziz İlham Heydər oğlu, Sizə səmimi-qəlbdən möhkəm cansağlığı və bütün təşəbbüslərinizdə yeni-yeni uğurlar, qardaş Azərbaycan xalqına isə hər zaman aydın səma, əmin-amanlıq və dinamik tərəqqi arzulayıram.

**Hörmətlə,**

***Emoməli RƏHMON,***
***Tacikistan Respublikasının Prezidenti***

***

**Zati-aliləri!**

Ölkəniz və xalqınız üçün əlamətdar gün olan Müstəqillik Günü münasibətilə İsrail Dövləti və xalqı adından Sizə və Azərbaycan vətəndaşlarına səmimi təbriklərimi qəbul etməyinizi xahiş edirəm.

Xalqlarımız arasında uzun illərdir davam edən dostluq ildən-ilə dərinləşmiş və mühüm əhəmiyyət kəsb edən strateji tərəfdaşlığa çevrilmişdir. Ölkələrimiz arasındakı əlaqələr Azərbaycan xalqı ilə yəhudi xalqı arasında əsrlər boyu davam edən möhkəm təməl üzərində qurulan dostluq münasibətlərinə əsaslanır. Bizim tarixi əlaqələrimiz bu gün qarşılıqlı hörmət, etimad və səmimi münasibətlərə əsaslanan tərəfdaşlığa çevrilib və bu, genişlənməkdə, möhkəmlənməkdə davam edir.

İqtisadi, siyasi, təhlükəsizlik sahələrində ikitərəfli dialoqumuz və əməkdaşlığımız yeni zirvələrə yüksəlib və əminəm ki, bu əlaqələrimiz gələcəkdə də inkişaf edəcəkdir. İsraildə xeyli sayda Azərbaycan yəhudiləri yaşayır və bizim cəmiyyətimizin bu şərəfli üzvləri xalqlarımızı birləşdirən canlı körpü rolunu oynayır.

Keçən il bir sıra səmərəli müzakirələr aparmaq üçün gözəl ölkənizə səfər etmək Mixal və mənim üçün xüsusi şərəf oldu. Mən Sizin və birinci xanımın bizim nümayəndə heyətimizə göstərdiyiniz səmimi qonaqpərvərliyə görə dərin minnətdarlığımı bildirirəm.

Biz xalqlarımız arasında möhkəm dostluq münasibətlərini yüksək qiymətləndiririk. Mən vəzifədə olduğum müddətdə əlaqələrimizi daha da genişləndirməyə sadiqliyimi bildirirəm. İmkanlar genişdir və ikitərəfli əlaqələrimizi möhkəmləndirməyə davam etmək üçün xalqlarımızın xoş niyyəti var.

Fürsətdən istifadə edərək, COP29-da iştirak etmək üçün dəvətə görə Sizə minnətdarlığımı bildirirəm. İqlim dəyişikliyi ilə bağlı məsələlərin həlli yollarının tapılmasına yönəlmiş bu mühüm beynəlxalq toplantıya ev sahibliyi etməyə hazırlaşdığınız vaxtda Sizə uğurlar arzulayıram. Mən şəxsən bu ilin sonunda bu mühüm tədbirdə iştirakı səbirsizliklə gözləyirəm.

Bir daha Sizə, birinci xanıma və bütün Azərbaycan xalqına sülh və rifah arzulamaqdan şərəf duyuram.

**Hörmətlə və ən xoş arzularla,**

***İsxak HERSOQ,***
***İsrail Dövlətinin Prezidenti***

***

**Hörmətli cənab Prezident!**

Azərbaycan Respublikasının Müstəqillik Günü münasibətilə Zati-alinizə ən səmimi təbriklərimi və xoş arzularımı çatdırıram.

Sizə cansağlığı, xoşbəxtlik, Azərbaycan xalqına firavanlıq arzu edirəm.

**Hörmətlə,**

***XVI Karl QUSTAV,***
***İsveçin Kralı***

***

**Zati-aliləri!**

Azərbaycan Respublikasının Müstəqillik Günü münasibətilə Sizə və həmvətənlərinizə İsveçrə Federal Şurası və İsveçrə vətəndaşları adından təbriklərimi çatdırmaqdan məmnunluq duyuram. Bu fürsətdən istifadə edərək ölkənizə və vətəndaşlarınıza xoşbəxt, uğurlu gələcək arzu edirəm.

Beynəlxalq hüquqa və BMT-nin Nizamnaməsində təsbit olunmuş ümumbəşəri prinsiplərə hörmət sülh və firavanlıq dünyasına doğru səylərimizdə bizim ən yaxşı bələdçimiz olaraq qalır. Məmnunam ki, ölkələrimiz arasında belə səmərəli əlaqələr davam edir.

Əminəm ki, biz gələcək illərdə həm ikitərəfli, həm də çoxtərəfli əməkdaşlığımızı inkişaf etdirə və dərinləşdirə biləcəyik.

Zati-aliləri, xahiş edirəm ən yüksək ehtiramımı qəbul edin.

***Viola AMHERD,***
***İsveçrə Konfederasiyasının Prezidenti***

***

**Zati-aliləri, əziz Qardaşım!**

Azərbaycan Respublikasının Müstəqillik Günü münasibətilə Zati-alinizə şəxsən öz adımdan və Mərakeş xalqı adından ən səmimi təbriklərimizi, möhkəm cansağlığı və xoşbəxtlik arzularımızı çatdırmaqdan böyük məmnunluq duyuram. Həmçinin Sizin müdrik rəhbərliyinizlə Azərbaycan xalqına daha böyük inkişaf və tərəqqi arzulayıram.

Bu xoş fürsətdən istifadə edərək bildirirəm ki, ölkələrimiz arasındakı sıx dostluq əlaqələri əsasında mövcud olan xüsusi münasibətlərimizə böyük dəyər verirəm. Əminəm ki, xalqlarımızın qarşılıqlı rifahı naminə ölkələrimiz arasında bütün sahələrdə əlaqələri genişləndirməkdə və şaxələndirməkdə Siz də mənim qədər maraqlısınız.

**Hörmətlə,**

***VI MƏHƏMMƏD,***
***Mərakeşin Kralı***

***

**Zati-aliləri!**

Azərbaycan Respublikasının Müstəqillik Gününün 106-cı ildönümü münasibətilə Zati-alinizə böyük məmnuniyyətlə İndoneziya Respublikasının hökuməti və xalqı adından ən səmimi təbriklərimi çatdırıram.

Bu xüsusda icazə verin İndoneziya ilə Azərbaycan arasındakı dostluq münasibətlərinə görə Sizə səmimi təşəkkürümü bildirim. Əldə edilən nailiyyətlər dövlətinizin uğurlu siyasətinin təsdiqidir. İnanıram ki, xalqlarımızın qarşılıqlı olaraq bir-birinə təklif edəcəyi çox məsələlər var və əməkdaşlığımızın ölkələrimiz üçün əhəmiyyətli faydalar hasil edəcəyinə əminəm.

Bu xoş fürsətdən istifadə edərək, Zati-alinizə bir daha dərin ehtiramımı ifadə edirəm.

***Coko VİDODO,***
***İndoneziya Respublikasının Prezidenti***

***

**Zati-aliləri!**

Ölkənizin milli bayramı – Müstəqillik Günü münasibətilə İordaniya Haşimilər Krallığının xalqı və hökuməti adından Zati-alinizə və böyük Azərbaycan xalqına səmimi təbriklərimizi çatdırıram.

Bu xoş fürsətdən istifadə edərək, Zati-alinizə cansağlığı və xoşbəxtlik, qardaş Azərbaycan xalqına isə davamlı inkişaf və rifah arzulayıram.

**Hörmətlə,**

***II Abdullah ibn Al HÜSEYN,***
***İordaniyanın Kralı***

***

**Zati-aliləri, cənab Prezident!**

Azərbaycan Respublikasının Müstəqillik Günü münasibətilə Sizə və Sizin simanızda dost Azərbaycan xalqına səmimi təbriklərimi çatdırıram.

Monqolustan ilə Azərbaycan arasında ənənəvi dostluq münasibətlərinin və əməkdaşlığın davamlı şəkildə genişlənməsindən məmnunluğumu bildirirəm.

Bu xoş fürsətdən istifadə edərək, bu il Bakının BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) ev sahibliyi etməsi münasibətilə səmimi təbriklərimizi çatdırır və tədbirin uğurlu olmasını arzulayıram.

Zati-aliləri, Monqolustanın COP29-a töhfə verəcəyinə əmin ola bilərsiniz.

Cənab Prezident, Sizə və ailənizə möhkəm cansağlığı, firavanlıq, dost Azərbaycan xalqına isə rifah diləyirəm.

**Hörmətlə,**

***Uxnaaqiyn XURELSUX,***
***Monqolustanın Prezidenti***

***

**Zati-aliləri!**

Müstəqillik Günü münasibətilə Hindistan hökuməti və xalqı adından, şəxsən öz adımdan Zati-alinizə, Azərbaycan Respublikasının hökumətinə və dost xalqına ən səmimi salamlarımı və təbriklərimi çatdırıram.

Hindistan ilə Azərbaycan ortaq tarixi və mədəni əlaqələrə malikdir. Bizim həmrəyliyimiz bütün sahələrdə çoxtərəfli qarşılıqlı əməkdaşlığımıza yol açmışdır. Əminəm ki, həssas məqamlara və ortaq maraqlara qarşılıqlı hörmət nümayiş etdirərək bizim münasibətlərimiz əməkdaşlığın yeni sahələrini əhatə etməklə genişlənəcəkdir.

Bu xoş fürsətdən istifadə edərək Zati-alinizə cansağlığı və xoşbəxtlik, Azərbaycan Respublikasının dost xalqına isə davamlı sülh, tərəqqi və inkişaf arzu edirəm.

Zati-aliləri, xahiş edirəm ən yüksək ehtiramımı qəbul edin.

***Draupadi MURMU,***
***Hindistan Respublikasının Prezidenti***

***

**Zati-aliləri!**

Əlamətdar bayram - Azərbaycan Respublikasının müstəqilliyinin 106-cı ildönümü münasibətilə Kraliça Raca Zarit Sofia ilə birlikdə Zati-alinizə səmimi təbriklərimizi və ən xoş arzularımızı çatdırırıq.

Əminik ki, Malayziya ilə Azərbaycan arasında mövcud olan möhkəm dostluq və əməkdaşlıq münasibətləri xalqlarımızın rifahı naminə daha da inkişaf edəcəkdir.

Uca Allahdan Zati-alinizə cansağlığı, Azərbaycan Respublikasına və onun xalqına davamlı sülh, rifah və tərəqqi arzulayırıq.

**Hörmətlə,**

***Əlahəzrət Sultan İBRAHİM,***
***Malayziyanın Kralı***

***

**Zati-aliləri!**

Əlamətdar tarix, 28 May – Azərbaycan Respublikasının Müstəqillik Günü münasibətilə Cənubi Afrika Respublikasının hökuməti və xalqı adından Sizə, Azərbaycan hökumətinə və xalqına ən səmimi təbriklərimi və xoş arzularımı çatdırıram.

Bu xoş fürsətdən istifadə edərək, Zati-alinizə möhkəm cansağlığı arzulayır, ölkələrimiz arasında mövcud olan gözəl dostluq münasibətlərini daha da möhkəmləndirmək niyyətimizi bir daha bəyan edirəm.

Zati-aliləri, ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

**Dərin hörmətlə,**

***Matamela Siril RAMAFOZA,***
***Cənubi Afrika Respublikasının Prezidenti***

***

**Hörmətli cənab Prezident!**

Azərbaycan Respublikasının Müstəqillik Gününün 106-cı ildönümü münasibətilə Sizə və xalqınıza ən səmimi təbriklərimi çatdırıram.

Bu xoş fürsətdən istifadə edərək, ölkələrimiz arasındakı tarixi dostluq əlaqələrinin və əməkdaşlığın möhkəmləndirilməsi istiqamətində fəaliyyətimizi davam etdirmək istəyimizi bir daha ifadə edirəm.

Zati-aliləri, ən yüksək hörmət və ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

***Migel Dias-Kanel BERMUDES,***
***Kuba Respublikasının Prezidenti***

***

**Zati-aliləri, əziz Qardaşım!**

Ölkənizin Müstəqillik Günü münasibətilə Zati-alinizə ən səmimi təbriklərimi çatdırmaqdan məmnunluq duyur, dost Azərbaycan xalqına daha çox inkişaf və firavanlıq diləyirəm.

Mən, həmçinin ölkələrimiz arasında mövcud olan əməkdaşlıq münasibətlərinin dost xalqlarımızın maraqları naminə möhkəmləndirilməsi və inkişafı istiqamətində səyləri davam etdirmək niyyətimizi bir daha bildirirəm.

Zati-aliləri, əziz Qardaşım, ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

**Qardaşınız,**

***Məhəmməd uld Şeyx əl-QAZUANİ,***
***Mavritaniya İslam Respublikasının Prezidenti***

***

**Zati-aliləri!**

Ölkənizin Müstəqillik Günü münasibətilə Sizə və dost Azərbaycan xalqına San-Marino xalqı adından və öz adımızdan təbriklərimizi, ən xoş arzularımızı çatdırırıq.

Bu əlamətdar gündə Zati-alinizə ən yüksək ehtiramımızı bildirir, uğurlar diləyir, Azərbaycan xalqına firavanlıq və rifah dolu gələcək arzu edirik.

**Hörmətlə,**

***Alessandro Rossi və Milena QASPERONİ,***
***San-Marino Respublikasının Kapitan-Regentləri***

***

**Zati-aliləri!**

28 May – Müstəqillik Günü münasibətilə Sizə ən xoş arzularımı çatdırıram.

Bu tarix 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasında mühüm mərhələni təcəssüm etdirməklə yanaşı, Azərbaycan xalqının müstəqil, demokratik və dünyəvi dövlət qurmaq uğrunda əzmkar mübarizəsinin rəmzidir.

Bu bayram günündə illər boyu Azərbaycanda rəhbər tutulan azadlıq, demokratiya və öz müqəddəratını təyinetmə kimi ali dəyərləri böyük iftixar hissi ilə alqışlayıram. Bu günün qeyd edilməsi milli kimliyin, suverenliyə olan sadiqliyin bir daha təsdiqlənməsi və bütün Azərbaycan vətəndaşları arasında birlik bağlarının möhkəmləndirilməsi üçün bir imkandır.

Azərbaycan Respublikası ilə Timor-Leste Demokratik Respublikası arasında diplomatik əlaqələrin 20-ci ildönümünü qeyd etdiyimiz bu ildə ölkələrimiz arasında mövcud olan qardaşlıq və dostluq münasibətlərini daha da dərinləşdirə və genişləndirə biləcəyimizə ümidvar olduğumu vurğulayıram.

Əminəm ki, xalqlarımızın rifahı və ölkələrimizin davamlı inkişafı naminə Timor-Lestenin Cənub-Şərqi Asiya Dövlətləri Assosiasiyasına (ASEAN) tamhüquqlu üzvlük prosesinə aid imkanları araşdırmağa davam edə, habelə ölkəmizin bu yaxınlarda Ümumdünya Ticarət Təşkilatına 166-cı üzv dövlət kimi qəbul olunmasından birlikdə faydalana bilərik.

Qoy, Azərbaycanın Müstəqillik Günü sevinc və qürur hissi ilə qeyd olunsun! Azərbaycan Sizin uzaqgörən və müdrik rəhbərliyinizlə inkişafını davam etdirsin!

Cənab Prezident, Sizə yüksək hörmət və ehtiramımı bildirərək, Zati-alinizə möhkəm cansağlığı, yeni-yeni uğurlar və rifah arzulayıram.

**Hörmətlə,**

***Jose Ramos HORTA,***
***Timor-Leste Demokratik Respublikasının Prezidenti***

# Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

**Zati-aliləri!**

Azərbaycan Respublikasının Müstəqillik Günü münasibətilə Malta xalqı adından və şəxsən öz adımdan Sizi və xalqınızı səmimi-qəlbdən təbrik edirəm.

Diplomatik əlaqələrin qurulduğu 1995-ci ildən bəri ölkələrimiz arasında qarşılıqlı hörmət və anlaşmaya əsaslanan davamlı dostluq münasibətləri daha da möhkəmlənib. Ölkələrimiz arasında çox böyük coğrafi məsafənin olmasına baxmayaraq, əminəm ki, Malta Respublikası və Azərbaycan Respublikası bundan sonra da ikitərəfli əməkdaşlığın möhkəmlənməsini dəstəkləyəcək. Bu, ölkələrimiz arasında münasibətlərin 30-cu ildönümünə doğru irəlilədiyimiz bir zamanda daha böyük əhəmiyyət kəsb edir.

Malta Şərq Tərəfdaşlığı kimi regional dialoq çərçivələri vasitəsilə Azərbaycanla əməkdaşlığı davam etməyi səbirsizliklə gözləyir. Bu, Avropa İttifaqı və onun Şərq tərəfdaşları, o cümlədən Azərbaycan Respublikası arasında daha sıx konstruktiv əməkdaşlıq istiqamətində nadir struktur olaraq qalır.

Beynəlxalq ictimaiyyətin bütün dünyaya öz təsirini göstərən mühüm çağırışlarla üzləşdiyi bir vaxtda Malta Respublikası çoxtərəfli və qlobal həlləri qəti şəkildə dəstəkləyir. BMT Təhlükəsizlik Şurasının 2023-2024-cü illər üçün seçilmiş üzvü kimi Malta çoxtərəflilik dəyərlərini qoruyub saxlamaq məqsədilə beynəlxalq sülhün və təhlükəsizliyin təmin olunmasına sadiq qalır. Buna görə də ortaq maraq doğuran məsələlərin həlli məqsədilə ölkələr arasında siyasi etimadın və iradənin həyata keçirilməsi üçün fəal şəkildə səylərimizi davam etdirməyimiz vacibdir. Belə bir dönəmdə Malta qlobal çağırışların qlobal həllərə ehtiyacı olduğuna inanır.

Bu xoş fürsətdən istifadə edərək Sizə möhkəm cansağlığı və əmin-amanlıq, ölkənizə isə davamlı sülh, tərəqqi və firavanlıq arzulayıram.

Zati-aliləri, ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

**Hörmətlə,**

***Miriam Spiteri DEBONO,***
***Malta Respublikasının Prezidenti***

***

**Zati-aliləri!**

Ölkənizin Müstəqillik Günü münasibətilə Sizə, Azərbaycan hökumətinə və xalqına Maldiv Respublikasının hökuməti və xalqı adından, şəxsən öz adımdan səmimi təbriklərimi və xoş arzularımı çatdırıram.

Zati-aliləri, icazə verin, Sizə möhkəm cansağlığı və xoşbəxtlik, həmçinin Azərbaycan xalqına davamlı tərəqqi və firavanlıq arzularımı çatdırım.

**Hörmətlə,**

***Məhəmməd MUİZZU,***
***Maldiv Respublikasının Prezidenti***

***

**Zati-aliləri!**

Azərbaycan Respublikasının Müstəqillik Günü münasibətilə Sizə səmimi təbriklərimi, möhkəm cansağlığı, xoşbəxtlik arzularımı çatdırır, ölkənizə, xalqınıza sülh, inkişaf və rifah diləyirəm.

Tailand ilə Azərbaycan arasında müxtəlif sahələrdə birgə fəaliyyətə əsaslanan, sürətlə inkişaf edən münasibətlər mövcuddur. İnanıram ki, ölkələrimizin və xalqlarımızın rifahı naminə ortaq qətiyyətimizlə və qarşılıqlı dəstəyimizlə ticarət, turizm, təhsil və təmiz enerji sahələrində əməkdaşlığımızın möhkəmlənməsi və genişlənməsi üçün sıx surətdə birgə işləməyə davam edəcəyik.

**Hörmətlə,**

***Maha VAÇİRALONQKORN,***
***Tailandın Kralı***

***

**Zati-aliləri!**

Uqanda Respublikasının hökuməti və xalqı adından, şəxsən öz adımdan Sizə, Azərbaycan Respublikasının hökumətinə və xalqına 28 May - Müstəqillik Günü münasibətilə təbriklərimi və ən xoş arzularımı çatdırmaqdan məmnunluq duyuram.

Ölkələrimiz ortaq məqsədlər naminə birgə çalışır və biz əməkdaşlıq üçün yeni imkanların yaranmasına, həmçinin xalqlarımız arasındakı əlaqələrin daha da möhkəmləndirilməsinə ümid edirik. Əminəm ki, xalqlarımızın ənənəvi yaxın münasibətləri qarşıdakı illərdə genişlənməkdə və inkişaf etməkdə davam edəcəkdir.

Ölkənizin tarixindəki bu önəmli günü qeyd edərkən Sizə cansağlığı və xoşbəxtlik, Azərbaycan xalqına isə davamlı inkişaf və rifah arzulayıram.

Zati-aliləri, ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

***Yoveri Kaquta MUSEVENİ,***
***Uqanda Respublikasının Prezidenti***

***

**Hörmətli cənab Prezident!**

28 May – Müstəqillik Günü münasibətilə Zati-alinizə Paraqvay Respublikasının xalqı, hökuməti adından və şəxsən öz adımdan səmimi qardaşlıq salamlarımı çatdırmaqdan məmnunluq duyuram.

Bu xoş fürsətdən istifadə edərək, qardaş Azərbaycan xalqına sülh, xoşbəxtlik və firavanlıq, Paraqvay Respublikası ilə Azərbaycan Respublikasını birləşdirən dostluq və əməkdaşlıq əlaqələrinin daim möhkəmlənməsini arzulayıram.

Zati-alinizə ən yüksək hörmət və ehtiramımı bir daha bəyan edirəm.

***Santyaqo PENYA,***
***Paraqvay Respublikasının Prezidenti***

***

**Zati-aliləri, hörmətli cənab Prezident!**

Azərbaycan Respublikasının Müstəqillik Günü münasibətilə Sizə Serb Respublikasının xalqı və qurumları adından, şəxsən öz adımdan səmimi təbriklərimi və xoş arzularımı çatdırmaqdan şərəf duyuram.

Sizin rəhbərliyiniz sayəsində Azərbaycan Respublikası sürətlə inkişaf edərək regional liderə və iqtisadi gücə çevrilib. Fəxrlə demək istəyirəm ki, Serb Respublikası ilə Azərbaycan Respublikası arasında anlaşma və qarşılıqlı hörmətə əsaslanan sıx dostluq münasibətləri mövcuddur. Böyük tektonik geosiyasi dəyişikliklər, həm siyasi, həm də iqtisadi arenada çağırışlar zamanı hər bir ölkənin daxili işlərinə, eləcə də xarici siyasətinə anlayış və hörmət son dərəcə vacibdir.

Məmnuniyyətlə vurğulayıram ki, bir çox sahələrdə və seqmentlərdə ikitərəfli əməkdaşlığımız inkişaf edəcək və yüksələn xətlə davam edəcək. Mən səmimiyyətlə inanıram ki, əlaqələrimiz gələcək illərdə də hər iki xalqa xeyirli və faydalı olacaq şəkildə inkişaf edəcəkdir. Mənim qəti niyyətim dostluğumuzu və dəstəyimizi hörmət əsasında qoruyub saxlamaq və daha da inkişaf etdirməkdir.

Hörmətli Prezident, Zati-aliləri, icazə verin, Sizə cansağlığı, dost Azərbaycan Respublikasının firavanlığı və inkişafı naminə fəaliyyətinizdə uğurlar arzulayım.

**Hörmətlə,**

***Milorad DODİK,***
***Bosniya və Herseqovinanın***
***Serb Respublikasının Prezidenti***

***

**Hörmətli cənab Prezident!**

Ölkənizin milli bayramı - Müstəqillik Günü münasibətilə Zati-alinizə, Sizin şəxsinizdə hökumətinizə və qardaş Azərbaycan xalqına ən səmimi təbriklərimi çatdırıram. Sizə cansağlığı, xoşbəxtlik və müvəffəqiyyətlər, xalqınıza xeyir-bərəkət və tərəqqi arzu edirəm.

Fürsətdən istifadə edərək, ölkələrimizi və xalqlarımızı birləşdirən həmrəylik əlaqələrini təqdir edir, bundan fəxarət hissi duyduğumuzu bildirirəm. Xalqımızın azadlıq və müstəqillik hüquqlarına dəstək verən mövqeyinizi yüksək qiymətləndirirəm.

Xahiş edirəm, ən xoş arzularımı qəbul edəsiniz.

**Hörmətlə,**

***Mahmud ABBAS,***
***Fələstin Dövlətinin Prezidenti, Fələstin Azadlıq Təşkilatı İcraiyyə Komitəsinin sədri***

***

**Zati-aliləri!**

Gürcüstan hökuməti adından və şəxsən öz adımdan Sizi və xalqınızı Azərbaycan Respublikasının Müstəqillik Günü münasibətilə səmimi-qəlbdən təbrik edirəm. İcazə verin Sizə və Azərbaycan xalqına dərin ehtiramımı ifadə edim, sülh, rifah və uğurlar arzulayım.

Gürcüstan və Azərbaycan Respublikası arasında strateji tərəfdaşlıq dərin, uzun əsrlik dostluq ənənəsinə əsaslanır ki, bu da ölkələrimizin səmərəli əməkdaşlığının inkişafı üçün mühüm amildir.

Xüsusilə vurğulamaq istərdim ki, Azərbaycanla ikitərəfli və mehriban qonşuluq münasibətlərinin dərinləşməsi bizim hökumətimizin ən əsas prioritetidir. Gürcüstan ilə Azərbaycan arasında qarşılıqlı etimad və dəstək prinsiplərinə əsaslanan strateji tərəfdaşlıq ölkələrimizin əlaqələrinin dinamikasının güclənməsinə müsbət təsir göstərmişdir. Əminəm ki, əməkdaşlığımız daha da möhkəmlənəcək və regionda rifahın, sabitliyin təmin olunmasına öz töhfəsini verəcəkdir.

Zati-aliləri, fürsətdən istifadə edərək Sizə bir daha dərin ehtiramımı ifadə edir, qardaş Azərbaycan xalqına firavanlıq, əmin-amanlıq və nailiyyətlər diləyirəm.

**Hörmətlə,**

***İrakli KOBAXİDZE,***
***Gürcüstanın Baş naziri***

***

**Möhtərəm cənab Prezident!**

Azərbaycan Respublikasının Müstəqillik Günü münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

Müstəqillik, suverenlik, bərabərlik, ərazi bütövlüyü və dövlətlərin beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığı qardaşlıq və dostluq zəminində yaradılmış Türk Dövlətləri Təşkilatının sadiq olduğu təməl prinsiplərdəndir. Azərbaycan Respublikasının təşkilat çərçivəsində tərəfdaşlıq və inteqrasiya proseslərinin inkişafına verdiyi töhfə nəinki üzv dövlətlərimizdə, həmçinin bütövlükdə regionumuzda sülh, sabitlik, təhlükəsizlik və rifahın möhkəmləndirilməsinə xidmət edir.

Əminəm ki, Sizin təşəbbüsünüz əsasında bu ilin iyul ayında Şuşa şəhərində Türk Dövlətləri Təşkilatının qeyri-rəsmi Zirvə görüşünün keçirilməsi əməkdaşlığımızı daha da gücləndirəcəkdir.

Zati-aliləri, fürsətdən istifadə edərək Sizə bir daha dərin ehtiramımı bildirir, Azərbaycan xalqının rifahı naminə işlərinizdə yeni uğurlar diləyirəm.

**Hörmətlə,**

***Kubanıçbek ÖMÜRALIYEV,***
***Türk Dövlətləri Təşkilatının Baş katibi***

***

**Möhtərəm İlham Heydər oğlu!**

İcazə verin Sizə öz ehtiramımı bildirim və Zati-alinizi Müstəqillik Günü münasibətilə təbrik edim.

Bu əlamətdar gündə Sizə və Azərbaycan Respublikasının bütün vətəndaşlarına möhkəm cansağlığı, xoşbəxtlik, əmin-amanlıq və doğma ölkənizin inkişafı naminə səmərəli fəaliyyətinizdə yeni-yeni uğurlar arzulayıram.

Həştərxan vilayəti ilə Azərbaycan Respublikası arasında uzun illər ərzində davamlı strateji tərəfdaşlıq xarakteri almış çoxplanlı qarşılıqlı fəaliyyətin inkişafına göstərdiyiniz hərtərəfli dəstəyə və şəxsi töhfənizə görə Sizə təşəkkürümü bildirirəm. Əminəm ki, gələcəkdə də birgə səylərlə qarşılıqlı hörmətə və etibarlı əməkdaşlığa əsaslanan ənənələri fəal şəkildə möhkəmləndirəcəyik.

**Dərin hörmətlə,**

***İqor BABUŞKİN,***
***Rusiya Federasiyasının Həştərxan vilayətinin qubernatoru***

***

**Cənab Prezident!**

Müstəqillik Günü münasibətilə Zati-alinizi, dost və qardaş Azərbaycan xalqını ürəkdən təbrik edirəm.

Sizin rəhbərliyinizlə dost və qardaş Azərbaycan inkişaf edən iqtisadiyyatı, artan nüfuzu və güclü ordusu ilə regionun qüdrətli dövlətinə çevrilmişdir. Azərbaycanın bu uğurlu və şanlı nailiyyətləri təkcə Azərbaycan xalqı üçün deyil, bütün türk xalqı üçün də qürur və xoşbəxtlik mənbəyidir.

Hər çətinlikdə bir-birinə dəstək olan Türkiyə ilə Azərbaycan arasındakı dostluq və qardaşlıq bağlarının qarşıdakı dövrdə "Bir millət, iki dövlət" prinsipi ilə daha da möhkəmlənəcəyinə, qardaş Azərbaycanın Bayrağının qədim torpaqlarında əbədi olaraq dalğalanacağına inamım qətidir.

Müstəqillik uğrunda canlarını fəda etmiş əziz şəhidlərimizin xatirəsini minnətdarlıq hissi ilə yad edirəm.

Fürsətdən istifadə edərək, Zati-alinizə ən xoş arzularımı çatdırır, cansağlığı və firavanlıq diləyirəm.

**Hörmətlə,**

***Fuat OKTAY,***
***Türkiyə Böyük Millət Məclisinin Xarici əlaqələr komitəsinin sədri***

***

**Hörmətli İlham Heydər oğlu!**

Sizi milli bayram – Azərbaycan Respublikasının Müstəqillik Günü münasibətilə təbrik edirəm. Müstəqillik Günü Azərbaycan vətəndaşları üçün mühüm bayramdır və onların Vətənin suverenliyi uğrunda fədakar mübarizəsinin gələcək nəsillər üçün böyük əhəmiyyətini əks etdirir. Bu günü 1918-ci il hadisələrindən ayıran zaman kəsiyinə baxmayaraq, Azərbaycan vətəndaşları bir əsrdən çox əvvəl öz əcdadlarının yeni qurduqları müstəqil dövlət ideallarına və prinsiplərinə eyni hörmətlə yanaşırlar.

Azərbaycan xalqının milli qüruru, vətənpərvərliyi və öz gücünə sonsuz inamı ölkə rəhbərliyinin müdrik siyasəti ilə birlikdə respublikaya iqtisadi və sosial sahələrdə uğurlar qazanmağa, ölkənin beynəlxalq aləmdə nüfuzunu möhkəmləndirməyə imkan yaradır.

Hörmətli İlham Heydər oğlu, Sizə möhkəm cansağlığı, xoşbəxtlik, Azərbaycan vətəndaşlarının rifahı naminə səmimi-qəlbdən bütün səylərinizin həyata keçməsini arzu edirəm.

**Hörmətlə,**

***Mixail QUTSERİYEV,***
***Rusiyanın "SAFMAR Qrupu" Səhmdar Cəmiyyətinin prezidenti***

***

**Möhtərəm cənab Prezident!**

Müstəqillik Günü münasibətilə Zati-alinizə ən səmimi təbriklərimizi çatdırmaqdan, Sizə möhkəm cansağlığı arzulamaqdan böyük məmnunluq duyuruq. Doğma Azərbaycan Respublikasına və onun xalqına Allah-Taaladan daha böyük tərəqqi və rifah diləyirik.

Misir–Azərbaycan Dostluq Cəmiyyəti Misir və Azərbaycan xalqları arasında müxtəlif sahələrdə əlaqələrin möhkəmləndirilməsi və əməkdaşlığın inkişaf etdirilməsi üçün maksimum səy göstərir.

Qoy Azərbaycan Respublikası Sizin müdrik və uzaqgörən rəhbərliyinizlə daim inkişaf etsin və daha da firavanlaşsın!

Xahiş edirik, ən xoş arzularımızı və yüksək ehtiramımızı qəbul edin.

**Dərin hörmətlə,**

**Misir-Azərbaycan Dostluq Cəmiyyəti İdarə Heyətinin üzvləri:**

***Əli CÜMƏ,***
***Misir Ərəb Respublikası parlamentinin Dini işlər və vəqflər komitəsinin sədri, professor***

***Usamə əl-ƏBD,***
***Misir parlamentinin Dini işlər və vəqflər komitəsi sədrinin müavini, professor***

***Əl-Seyyid Mahmud əl-ŞƏRİF,***
***Seyyidlər Həmkarlar İttifaqının sədri, Misir parlamenti sədrinin sabiq birinci müavini***

***Yusif əl-ŞƏRQAVİ,***
***Misir Ərəb Respublikasının Azərbaycan Respublikasındakı sabiq səfiri***

***Adil DƏRVİŞ,***
***Misir Helvan Universitetinin professoru, Misir Mədəniyyət Mərkəzinin Azərbaycan Respublikasındakı keçmiş direktoru***

***Bağdadi İMAM,***
***Misir Ərəb Respublikası Ali Təhsil Nazirliyinin baş direktoru***

***Tövhid MƏHƏMMƏD,***
***müşavir, vəkil, Misir əl-Xeyir Fondunun Hüquqi İşlər üzrə direktoru***

***Midhət CAMAL,***
***general, Misir əl-Xeyir Fondunda "İbn əs-Səbil" layihəsinin rəhbəri***

***Sabir HƏSƏN,***
***Ali Mədəniyyət Şurasının üzvü***

***Mona ZİDAN,***
***Helvan Universitetinin professoru***

***Əhməd Əbdu TARABEK,***
***Orta Asiya və Qafqaz məsələləri üzrə tədqiqatçı və jurnalist***

***Mustafa HİCAZİ,***
***"Orange" şirkətinin baş direktoru***

***Seymur NƏSİROV,***
***Misir–Azərbaycan Dostluq Cəmiyyətinin İdarə Heyətinin və Misirdəki Azərbaycan diasporunun sədri.***

---

## "Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət Sirrinin Mühafizəsi üzrə İdarələrarası Komissiya haqqında Əsasnamənin təsdiq edilməsi və Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət Sirrinin Mühafizəsi üzrə İdarələrarası Komissiyanın tərkibi barədə" Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 9 dekabr tarixli 224 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 27 dekabr tarixli 2435 nömrəli Fərmanının icrası ilə əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi barədə

## *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət Sirrinin Mühafizəsi üzrə İdarələrarası Komissiya haqqında Əsasnamənin təsdiq edilməsi və Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət Sirrinin Mühafizəsi üzrə İdarələrarası Komissiyanın tərkibi barədə" Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 9 dekabr tarixli 224 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 27 dekabr tarixli 2435 nömrəli Fərmanının icrası ilə əlaqədar **qərara alıram:**

**1** "Dövlət sirri haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1997-ci il 17 yanvar tarixli 539 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1997, № 4, maddə 268 (Cild I) 1-ci hissəsinin üçüncü və dördüncü abzaslarından "Azərbaycan Respublikasının Prezidenti yanında" sözləri çıxarılsın.

**2.** "Milli arxiv fondu haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 27 iyul tarixli 168 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 7, maddə 430 (Cild I) 2.4-cü bəndindən "Azərbaycan Respublikasının Prezidenti yanında" sözləri çıxarılsın.

**3** "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 29 dekabr tarixli 435 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 1, maddə 28 (Cild I) 3.6.2-ci yarımbəndindən (ikinci halda) və 3.22-4-cü bəndindən (ikinci halda) "Azərbaycan Respublikasının Prezidenti yanında" sözləri çıxarılsın.

**4** Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 4 avqust tarixli 911 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003, № 8, maddə 440 (Cild I) ilə təsdiq edilmiş "İnzibati və yardımçı vəzifələrin Təsnifat Toplusu"nun 2.3-1-ci bəndindən ikinci halda "Azərbaycan Respublikasının Prezidenti yanında" sözləri çıxarılsın.

**5.** "Dövlət sirrini əks etdirən normativ hüquqi aktların yayılması və qüvvəyə minməsi qaydası haqqında Əsasnamənin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 27 sentyabr tarixli 932 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003, № 9, maddə 483 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

5.1. 3-cü hissədən "Azərbaycan Respublikasının Prezidenti yanında" sözləri çıxarılsın;

5.2. həmin Fərmanla təsdiq edilmiş "Dövlət sirrini əks etdirən normativ hüquqi aktların yayılması və qüvvəyə minməsi qaydası haqqında Əsasnamə" üzrə:

5.2.1. 6-cı hissənin ikinci abzasından "Azərbaycan Respublikası Prezidentinin yanında" sözləri çıxarılsın;

5.2.2. 18-ci hissənin beşinci abzasından "Azərbaycan Respublikasının Prezidenti yanında" sözləri çıxarılsın.

**6** "Dövlət sirri haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 5 noyabr tarixli 139 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 11, maddə 903 (Cild I) 2.2-ci, 2.3-cü və 3.3-cü bəndlərindən "Azərbaycan Respublikasının Prezidenti yanında" sözləri çıxarılsın.

**7** Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 3 iyun tarixli 249 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 6, maddə 486 (Cild I) ilə təsdiq edilmiş "Məlumatların dövlət sirrinə aid edilməsi Qaydaları"nın 4-cü hissəsinin birinci abzasının ikinci cümləsindən "Azərbaycan Respublikasının Prezidenti yanında" sözləri çıxarılsın.

**8** "Dövlət sirri haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarına əlavələr və dəyişikliklər edilməsi və bəzi qanunvericilik aktlarının qüvvədən düşmüş hesab edilməsi barədə" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 13 fevral tarixli 370 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 2, maddə 87 (Cild I) 2-ci hissəsi ləğv edilsin.

**9** "Milli arxiv fondu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2019-cu il 1 fevral tarixli 1480-VQD nömrəli Qanununun tətbiqi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 13 mart tarixli 589 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 3, maddə 429 (Cild I) 3-cü hissəsi ləğv edilsin.

**10** Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 11 aprel tarixli 622 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 4, maddə 622 (Cild I); 2024, №3, maddə 262; Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 30 aprel tarixli 50 nömrəli Fərmanı) ilə təsdiq edilmiş Əlavə 2 – "Xüsusi dövlət rabitəsi ilə təmin olunan vəzifəli şəxslərin siyahısı"nın 48-ci hissəsindən "Azərbaycan Respublikasının Prezidenti yanında" sözləri çıxarılsın.

**11** "Azərbaycan Respublikasının 2024-cü il dövlət büdcəsi haqqında" Azərbaycan Respublikasının 2023-cü il 5 dekabr tarixli 1028-VIQ nömrəli Qanununun tətbiqi ilə bağlı bir sıra məsələlər barədə" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 26 dekabr tarixli 2424 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 12 (I kitab), maddə 1685 (Cild I); Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 1 aprel tarixli 26 nömrəli Fərmanı) 1.3.2.11-ci yarımbəndindən "Azərbaycan Respublikasının Prezidenti yanında" sözləri çıxarılsın.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 27 may 2024-cü il**

# Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 1 fevral tarixli 2461 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Sahibkarlara kredit təşkilatlarından manatla aldıqları kreditlər üzrə Azərbaycan Respublikasının Sahibkarlığın İnkişafı Fondu vasitəsilə faiz subsidiyalarının verilməsi Qaydası"nda dəyişiklik edilməsi haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 1 fevral tarixli 2461 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2024, № 2, maddə 142) ilə təsdiq edilmiş "Sahibkarlara kredit təşkilatlarından manatla aldıqları kreditlər üzrə Azərbaycan Respublikasının Sahibkarlığın İnkişafı Fondu vasitəsilə faiz subsidiyalarının verilməsi Qaydası"nın 5.3.4-cü yarımbəndi ləğv edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 27 may 2024-cü il**

**Əfv sərəncamı icra olundu**

# Bağışlanmaq məhkuma özünüislah qapısı açır



**Prezident İlham Əliyev humanizm prinsiplərinə söykənərək Müstəqillik Günü ərəfəsində – mayın 25-də sayca 70-ci əfv sərəncamını imzaladı. Bununla dövlət başçısı müstəqil dövlətimizdə insan hüquq və azadlıqlarına yüksək dəyər verildiyini bir daha bütün dünyaya nümayiş etdirdi.**

Dövlət başçısının əfv sərəncamına əsasən, mayın 26-da azadlıqdan məhrumetmə cəzasına məhkum olunmuş 63 nəfər cəzasının çəkilməmiş hissəsindən azad edilib, 52 nəfərin cəzasının çəkilməmiş hissəsi yarıyadək azaldılıb. Növbəti humanist aksiya təxirəsalınmadan icra edilib. 28 May Müstəqillik Günü münasibətilə verilmiş əfv sərəncamının icrasına Ədliyyə Nazirliyi Penitensiar Xidmətinin 16 saylı cəzaçəkmə müəssisəsindən başlanılıb. Prosesi izləyən media təmsilçiləri qrupunun tərkibində cəzaçəkmə müəssisələrində olmuş XQ-nin əməkdaşı azadlığa buraxılanlarla görüşüb, onların dinc həyata qayıdış duyğu-düşüncələrini qeydə alıb.



Əfv olunanlar arasında Gülüş Fətəliyeva da var idi. O, Ədliyyə Nazirliyinin Penitensiar Xidmətinin 4 saylı cəzaçəkmə müəssisəsindən azadlığa buraxılırdı. Jurnalistlərlə söhbətində G.Fətəliyeva Cinayət Məcəlləsinin 120.1-ci maddəsi ilə məhkum olunduğunu bildirdi: "9 il cəza almışdım, bunun 6 ili arxada qalıb. Prezident İlham Əliyevin əfv sərəncamı ilə 3 il tez azad olundum. Mənim üçün gözlənilməz oldu. Azadlığa çıxacağımı eşidəndə elə bildim ki, yenidən doğulmuşam. Bu bağışlanma mənə həmişəlik dərs oldu. İnsan azadlığının qədrini bilməli, cinayət törətməməlidir. Bu əfv bağışlanmış məhkumlar üçün həyat şansıdır". Azadlığa buraxılan qadın humanist yanaşmaya görə Prezident İlham Əliyevə və Birinci xanım Mehriban Əliyevaya minnətdarlığını bildirdi: "3 övladıma və ailəmə vaxtından əvvəl qovuşuram. Cəzanın 1 gün dinc həyatı 1 ili qədər uzun olur. Bu baxımdan mənə bütöv bir ömür bağışlanıb. Buradan çıxan kimi ilk gedəcəyim yer övladlarımın yanıdır. Onlara ilk sözüm bu olacaq ki, heç vaxt mənim səhvimi təkrarlamasınlar. Əfv olunmaq bu mənada bütün cəmiyyət üçün humanizm dərsidir".

Əfv sərəncamı 17 saylı cəzaçəkmə müəssisəsində də sürətlə icra olundu. Bu cəzaçəkmə müəssisəsində əfv sərəncamı 9 nəfərə şamil edilib. Onlardan 7-si azadlığa buraxılanlar, 2 nəfəri isə cəza müddəti azaldılanlardır. Azadlığa çıxan 2 nəfər Türkiyə, 2 şəxs isə Əfqanıstan vətəndaşıdır. Azad həyata qayıdanlar arasında Orxan Yolçuyev də var idi. Orxanı qarşılamağa gələn doğmaları bu mərhəmət aksiyasına görə Azərbaycan Prezidentinə təşəkkür etdilər.

Prezident İlham Əliyevin imzaladığı əfv sərəncamı ilə azadlığa buraxılan daha bir məhkum Emin Tağıyev isə jurnalistlərə müsahibəsi zamanı dedi: "Bağışlanmaq insanı düşünməyə vadar edir. Bu özünüislah üçün yaradılan humanist imkandır. Bundan nəticə çıxarıb daha səhv etməyəcəyəm, cinayətdən birdəfəlik uzaq olacağam. Prezident İlham Əliyevə təşəkkür edirəm ki, bizim vaxtından tez azadlığa buraxılmağımız üçün əfv sərəncamı imzaladı. Mən dövlətimizin humanizminə, dövlət başçısının mərhəmətinə inanırdım".

Əfv sərəncamının şamil olunduğu Türkiyə vətəndaşı Mehmed Sağır da Azərbaycan Prezidentinə təşəkkür etdi: "Mənə 3 il cəza vermişdilər. Özüm TIR sürücüsüyəm. Moskvaya gedərkən sərhəddə həbs olunmuşdum. Ölkə başçısına təşəkkür edirəm ki, məni də əfv edərək ailəmə qovuşdurdu".

Sərhədi qanunsuz keçdiyinə görə həbs edilən əfqanıstanlı məhkum Mohammad Ayaz Raja isə dedi ki, cəzasının 1 il 4 ayını cəzaçəkmə müəssisəsində keçirib. Qalan 8 ayı əfv edildi. Buna görə Azərbaycan Prezidentinə minnətdardır.

Əfv sərəncamının icrasında İnsan Hüquqları üzrə Müvəkkil (Ombudsman) Səbinə Əliyeva və Milli Məclisin İnsan hüquqları komitəsinin sədri Zahid Oruc da iştirak edirdilər. Səbinə Əliyeva əfv



sərəncamının icrası prosesi ilə bağlı təşkil olunmuş mərasimdə azad həyata qayıdanları əfv olunmaları münasibətilə təbrik etdi. O, 28 May Müstəqillik Günü ərəfəsində əfv sərəncamının imzalanmasının ölkəmizdə insan hüquq və azadlıqlarına göstərilən diqqətin daha bir təzahürü olduğunu bildirdi. Ombudsman əfv olunanları bundan sonra qanunlara hörmətlə yanaşmağa, ölkəmiz üçün faydalı olmağa, dövlətçiliyimizə sadiq qalmağa çağırdı. Ədliyyə Nazirliyinin Probasiya Xidmətinin rəis müavini Nəvai Əlizadə qeyd etdi ki, indiki sərəncam 150-dən artıq şəxsi əhatə edir. Əfv sərəncamında cəza çəkənlərin şəxsiyyəti, cinayət əməlinin xarakteri və onların davranışları nəzərə alınıb.

Azadlığa çıxan şəxslər və onları qarşılamağa gəlmiş ailə üzvləri uzaq düşdükləri doğmalarına göstərilən humanistliyə görə dövlət başçısı İlham Əliyevə dönə-dönə minnətdarlıqlarını bildirdilər. Çıxış edənlər əfv olunan şəxslərin bu humanist aktdan düzgün nəticə çıxaracaqlarını və Azərbaycan dövlətinin qanunlarına ardıcıl əməl edəcəklərinə əminliklərini bildirdilər.

**Ayşən AZADOVA**
**XQ**

# Mərkəzi icra hakimiyyəti orqanlarının və digər idarəetmə qurumlarının rəhbərləri tərəfindən 2024-cü ilin iyun ayında şəhər və rayonlarda keçiriləcək vətəndaşların qəbulu cədvəli

| S/n | Qəbulu keçirən mərkəzi icra hakimiyyəti orqanı və idarəetmə qurumunun rəhbəri | Qəbulun keçirildiyi şəhər, rayon | Əhatə olunan şəhər və rayonlar | Qəbulun keçirildiyi gün |
|---|---|---|---|---|
| 1. | **Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri** Ramin Məmmədov | **Göyçay** | Göyçay, Ucar, Kürdəmir, Zərdab | **05** |
| 2. | **Baş prokuror** Kamran Əliyev | **Ağsu** | Ağsu, Şamaxı, Qobustan | **07** |
| 3. | **Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri** Bahar Muradova | **Oğuz** | Oğuz, Qəbələ | **07** |
| 4. | **Gənclər və idman naziri** Fərid Qayıbov | **Astara** | Astara, Lənkəran, Lerik | **10** |
| 5. | **Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri** Rövşən Rzayev | **Masallı** | Masallı, Lənkəran, Astara | **10** |
| 6. | **Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri** Anar Quliyev | **Ağsu** | Ağsu, İsmayıllı, Şamaxı, Qobustan | **11** |
| 7. | **"Azəriqaz" İstehsalat Birliyinin baş direktoru** Azər Məmmədov | **Şamaxı** | Şamaxı, Qobustan | **13** |
| 8. | **Mədəniyyət naziri** Adil Kərimli | **Samux** | Samux, Gəncə, Naftalan, Goranboy, Göygöl, Daşkəsən | **14** |
| 9. | **Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəisi** Mürsəl İbrahimov | **İsmayıllı** | İsmayıllı, Ağsu, Şamaxı, Qobustan | **14** |
| 10. | **Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin sədri** Zaur Mikayılov | **Salyan** | Salyan, Neftçala | **14** |
| 11. | **Elm və təhsil naziri** Emin Əmrullayev | **Naxçıvan** | Naxçıvan, Babək, Culfa, Kəngərli, Ordubad, Sədərək, Şahbuz, Şərur | **21** |
| 12. | **Ədliyyə naziri** Fərid Əhmədov | **Zaqatala** | Zaqatala, Şəki, Qax, Balakən | **21** |
| 13. | **Əmək və əhalinin sosial müdafiəsi naziri** Sahil Babayev | **Xızı** | Xızı, Siyəzən | **21** |
| 14. | **İqtisadiyyat naziri** Mikayıl Cabbarov | **Tovuz** | Tovuz, Qazax, Ağstafa | **21** |
| 15. | **Kənd təsərrüfatı naziri** Məcnun Məmmədov | **Astara** | Astara, Lənkəran, Lerik | **21** |
| 16. | **Dövlət Gömrük Komitəsinin sədri** Şahin Bağırov | **Xaçmaz** | Xaçmaz, Quba, Qusar, Şabran | **21** |
| 17. | **Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin sədri** Saleh Məmmədov | **Qax** | Qax, Zaqatala, Balakən | **21** |
| 18. | **İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin sədri** Zaur Əliyev | **Goranboy** | Goranboy, Naftalan | **21** |
| 19. | **Daxili işlər naziri** Vilayət Eyvazov | **Oğuz** | Oğuz, Şəki, Qax, Zaqatala, Balakən, Qəbələ | **25** |
| 20. | **Rəqəmsal inkişaf və nəqliyyat naziri** Rəşad Nəbiyev | **Siyəzən** | Siyəzən, Şabran, Xızı | **25** |
| 21. | **Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri** Ramin Məmmədov | **Sabirabad** | Sabirabad, Saatlı, İmişli, Beyləqan, Xocavənd | **25** |
| 22. | **Qida Təhlükəsizliyi Agentliyinin sədri** Qoşqar Təhməzli | **Göyçay** | Göyçay, Mingəçevir, Yevlax, Ağdaş | **27** |
| 23. | **Baş prokuror** Kamran Əliyev | **Qazax** | Qazax, Ağstafa, Tovuz, Şəmkir, Gədəbəy | **28** |
| 24. | **Energetika naziri** Pərviz Şahbazov | **Qax** | Qax, Şəki, Oğuz, Qəbələ, Zaqatala, Balakən | **28** |
| 25. | **Fövqəladə hallar naziri** Kəmaləddin Heydərov | **Xaçmaz** | Xaçmaz, Şabran | **28** |
| 26. | **"Azərişıq" ASC-nin sədri** Vüqar Əhmədov | **Ağcabədi** | Ağcabədi, Zərdab | **28** |
| 27. | **"Azəristiliktəchizat" ASC-nin sədrinin vəzifəsini müvəqqəti icra edən** İlham Mirzəliyev | **Zaqatala** | Zaqatala, Şəki, Oğuz, Qax, Balakən | **28** |

**Vətəndaşların qəbulu müəyyən edilmiş günlərdə saat 10:00-da başlayır.**

# Fransanın Azərbaycan təxribatları cavabsız qalmayacaq

**Fransa tərəfi bu kimi məsuliyyətsiz və qəbuledilməz açıqlamalara görə nəinki üzrxahlıq diləməyib, hətta Le Point və digər bu kimi yerli Fransa mətbuatında Azərbaycana qarşı qarayaxma kampaniyasını daha da genişləndirib.**



Bunu Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinin rəhbəri Ayxan Hacızadə Fransa tərəfinin Azərbaycanı "diktatura" adlandırması məsələsi ilə bağlı yerli medianın sualına cavabında deyib.

Onun sözlərinə görə, bu ölkənin "demokratiya" pərdəsinə bürünərək Azərbaycana qarşı həyata keçirdiyi kampaniya Fransanın xarici siyasətinin uğursuzluğunun ört-basdır edilməsi cəhdidir.

"Bununla yanaşı, dünyaya "demokratiya dərsi" keçməyə çalışan Fransanın beynəlxalq hüquqi pozuntuları, neokolonial siyasəti, irqçilik, diskriminasiya, islamofobiya, insan hüquqlarının məhdudlaşdırılması kimi fəaliyyəti hər kəsə məlumdur. Buna görə də, Azərbaycanı "diktatura" adlandırmazdan əvvəl, Fransanın bu fəaliyyətindən dərs çıxarması faydalı olardı. Fransa tərəfi əmin olmalıdır ki, ölkəmizə qarşı həyata keçirdiyi kampaniya, səsləndirilən nalayiq ifadələr və təxribatlar cavabsız qalmayacaq", - deyə Ayxan Hacızadə vurğulayıb.

# Media təmsilçilərimiz Daşkənddə

**Özbəkistanın paytaxtı Daşkənd şəhərində Türk Dövlətləri Təşkilatı ölkələrinin nazirlikləri və dövlət qurumlarının mətbuat xidmətləri üçün "İnformasiya xidmətləri–2024: yerli və xarici təcrübə" adlı seminar keçirilir.**



Tədbirdə Azərbaycan Respublikası Audiovizual Şurasının sədri İsmət Səttarov, Azərbaycan Respublikası Medianın İnkişafı Agentliyinin icraçı direktoru Əhməd İsmayılov, Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC) İdarə Heyətinin sədri Vüqar Əliyev, həmçinin bir sıra dövlət qurumlarının mətbuat xidmətlərinin rəhbərləri iştirak edirlər.

Özbəkistanın İnformasiya və Kütləvi Kommunikasiya Agentliyi tərəfindən təşkil olunan tədbirdə türk dövlətlərinin müvafiq qurumları arasında səmərəli kommunikasiyanın qurulması, qarşılıqlı informasiya mübadiləsi və dialoqun aparılmasından danışılıb. Qeyd olunub ki, TDT üzv ölkələrlə yalnız iqtisadi və mədəni əlaqələrin möhkəmləndirilməsi istiqamətində deyil, həmçinin informasiya sahəsində əməkdaşlığın genişləndirilməsinə diqqət yetirir. Buraya, eyni zamanda, feyk xəbərlərlə və dezinformasiya ilə birgə mübarizə, qurumlar arasında operativ dialoq daxildir. Bu məqsədlə üzv ölkələrin media və dövlət qurumlarının nümayəndələri mütəmadi olaraq Azərbaycan, Türkiyə və Qazaxıstanda keçirilən treninqlərdə iştirak edirlər.

# Əməkdaşlıq üzrə ekspertlərin görüşü



**Mayın 27-də Azərbaycan Ordusunun Təlim və Tədris Mərkəzində Azərbaycan və Serbiya Müdafiə nazirliklərinin hərbi-mülki əməkdaşlıq (CIMIC) üzrə ekspertlərinin görüşü keçirilib.**

Qonaqlara Azərbaycan Ordusunda hərbi-mülki əməkdaşlıq istiqamətində həyata keçirilən tədbirlər, həmçinin bu sahədə qazanılan beynəlxalq təcrübə barədə ətraflı məlumat verilib.

Serbiyalı nümayəndələr öz növbələrində CIMIC proqramının əhəmiyyətini qeyd edib və bu istiqamətdə görülən işlərdən danışıblar.

Görüşdə təqdim olunan brifinqlər ətrafında müzakirələr aparılıb və qarşılıqlı maraq doğuran suallar cavablandırılıb.

# Rusiya səfirinin geri çağırılması…

## Ermənistanda nə düşünürlər?

**Rusiya səfiri Sergey Kopırkinin məsləhətləşmələr üçün Moskvaya çağırılması ali diplomatik təmsilçinin fəaliyyət göstərdiyi Ermənistanda böyük reaksiya doğurub. Müxtəlif fikir və düşüncələr var. Onları ümumiləşdirərək belə qənaətə gəlmək mümkündür ki, erməni ictimai rəyindəki reaksiyalar həm də təşviş yönümlüdür. Yazımızda bu və ya digər əlaqəli məqamlar barədə söz açacağıq.**



Başlayaq politoloq Suren Surenyantsın fikirlərindən. O bildirib ki, səfirin çağırılmasının səbəbi baş nazir Nikol Paşinyanın 2020-ci ildə Azərbaycana Qarabağda Ermənistana qarşı müharibəyə hazırlaşmaqda iki Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı ölkəsinin köməyindən bəhs etməsidir. Ekspertin dediyinə görə, bir qayda olaraq, səfirlərin çağırılması kimi diplomatik addım iki ölkə arasında münasibətləri pisləşdirən hansısa vəziyyət formalaşdıqda və ya qarşılıqlı siyasətə yenidən baxılmasına ehtiyac yarandıqda atılır: “Mənim subyektiv fikrimcə, Kopırkin Moskvaya Paşinyanın Milli Assambleyada iki KTMT ölkəsinin 44 günlük müharibənin hazırlanmasında iştirakından bəhs edən son səs-küylü bəyanatları ilə əlaqədar çağırılıb”.

Bəs Paşinyan Milli Assambleyadakı çıxışında konkret olaraq nə demişdi, buna diqqət yetirək: “Mən KTMT-yə üzv olan ən azı iki ölkəni tanıyıram ki, onlar bizə qarşı müharibənin hazırlanmasında iştirak ediblər. Bu ölkələr təbii olaraq bizə, guya, kömək göstərdikləri ilə bağlı imitasiya yolu tutdular. Amma bir daha demək istəyirəm ki, müharibə heç də Qarabağa görə deyildi. Çünki mən İstintaq Komissiyasında göstərmişəm ki, onlar Qarabağ məsələsini özləri üçün çoxdan bağlayıblar. Həmin müharibənin məqsədi Ermənistan Respublikası adlı müstəqil dövlətin olmaması idi”.

N.Paşinyan sözügedən çıxışında daha çox Belaraus Prezidenti Aleksandr Lukaşenkoya əsaslanmışdı. Daha doğrusu, Lukaşenkonun Bakıya səfəri əsnasında verdiyi açıqlamaya. Erməni baş nazir A.Lukaşenkonun ictimai qaydada fikirlərini dilə gətirməsindən sevindiyini də dilə gətirmişdi. Nikolun sözlərindən belə çıxmışdı ki, rəhbəri olduğu hökumətin məqsədi Ermənistanı əzmək istəyənləri üzə çıxarmaqdır və mövcud istiqamətdə iş aparılır. O, bir qədər də atmacalı şəkildə bunları vurğulamışdı: “Bu cəhdlər davam edəcək. Hələ də bu barədə ictimaiyyətə danışmasına ehtiyac duyulan insanlar var”.

Yeri gəlmişkən, Belarus lideri Ermənistanda səs-küy doğurmuş açıqlamasında bunları bildirmişdi: “Mən bir daha düşündüm və müharibədən əvvəl, Sizin azadlıq müharibənizdən öncə söhbətimizi xatırladım. Həmin vaxt biz nahar süfrəsi arxasında ikilikdə fəlsəfi fikir yürüdürdük və belə nəticəyə gəldik ki, müharibədə qələbə çalmaq olar. Bu vacibdir, qələbəni qoruyub saxlamaq daha vacibdir. Üçüncüsü isə Sizin də bu mövzuya toxunduğunuz kimi, biz ümumi fikrə gəldik ki, müharibədən sonra ən ağır dövr başlayacaq, azad etdiyiniz torpaqları dirçəltməyə, bərpa etməyə başlamaq lazım gələcək. Həmin ağır dövr gəlib çatdı, bu torpaqları dirçəltmək, insanları artıq qaytarmaq lazımdır, onların bəziləri şəhərdə anadan olublar, problemlər ola bilər və sair. Qələbə çaldınız və onu qoruyub saxladınız. İndi dirçəliş dövrüdür. Bu, zaman, böyük zəhmət tələb edir, beş və ola bilər ki, on il ərzində həmin işlər yerinə yetirilməlidir”.

Politoloq S.Surenyants isə deyib ki, Moskva Ermənistanda daxili siyasətin daha da kəskinləşməsini gözləyir. Onun sözlərindən belə çıxıb ki, kəskinləşmə erməni iqtidarının hakimiyyətdən getməsi reallığını doğura bilər. “Ona görə də Rusiya tərəfi məlumatın birbaşa alınmasını zəruri hesab edir”, – deyən ekspert səfir Kopırkinin çağrılmasına izahat yönümlü ehtimalını səsləndirib.

S.Surenyantsdan fərqli olaraq, digər erməni analitik Akop Badalyan Rusiya səfirinin Moskvaya çağrılmasının bir qədər geniş anlamlı sayılacaq səbəbi üzərində dayanmayıb. Onu müəyyən mənada haqlı saymaq mümkündür. Çünki N.Paşinyan və komandasına daxil olan şəxslər 2020-ci ildən başlayaraq, istər daxildə, istərsə də xaricdə anti-Rusiya təbliğatı həyata keçiriblər. Rəsmi İrəvan bu xüsusda özünün anti-KTMT xəttini daim yüksək fazada saxlayıb. Amma bu sayaq yanaşma indiyədək Kremldə səfiri geri çağıracaq qədər mənfi reaksiya doğurmayıb. Deməli, hansısa başqa məqamların axtarılmasına ehtiyac var. Elə A.Badalyan da konkret səbəblər barədə danışmır, səfirin geri çağrılmasının bir çox amillərlə bağlı ola biləcəyini diqqətə çatdırır. Ən əsası isə o, Moskvanın hazırkı addımını ümumən son il yarım ərzində Ermənistan–Rusiya münasibətlərində yığılmış ziddiyyətlərin nəticəsi kimi dəyərləndirib.

Badalyan, həmçinin səfir Kopırkinin geri çağrılmasının Prezident Vladimir Putinin Minskə səfəri ilə eyni vaxta düşməsinə diqqət çəkib. Nəzərə alaq ki, A.Lukaşenko Putinlə görüşdə “ciddi təkliflər, o cümlədən Qafqaz regionunda təhlükəsizlik məsələləri” barədə söz açıb. Belarus lideri deyib ki, sözügedən təkliflər onun Azərbaycana bu yaxınlarda reallaşmış səfəri zamanı ətraflı müzakirə olunub. Badalyanın fikrincə, hadisələr – Putinin Minskə səfəri, İrəvandakı Rusiya səfirinin çağırıması və baş nazir Paşinyanın mesajları Ermənistan üçün hazırkı durumun ciddiyyət indiqatorlarıdır. Ancaq ekspert hansısa səbəbdən nikbindir. Onun sözlərinə görə, yaxın zamanlarda Ermənistan–Rusiya münasibətlərində gərginlik azalacaq və çaşqınlığı yaradan səbəblər aradan qaldırılanda, durum tam şəkildə sabitləşəcək.

Ümumən, A.Badalyan Ermənistan–Rusiya münasibətlərinə bir qədər fərqli baxış ortaya qoyulmasının tərəfdarıdır. O vurğulayıb ki, münasibətlərdəki hazırkı qeyri-sabitliyin əsas səbəbini köhnə dünya nizamının dağılması və yenisinin olmaması müəyyənləşdirir. Ekspertin fikrincə, İrəvan–Moskva oxu üzrə qeyri-sabitlik yeni dünya nizamının regional və qlobal səviyyədəki təsir dairələri və təhlükəsizlik sxemləri bəlli olana qədər davamlı xarakter alacaq. Yalnız bununla əlaqədar əminlik formalaşacağı təqdirdə, Ermənistan–Rusiya münasibətlərinin sabitləşməsindən söz açıla bilər.

Qeyd edək ki, Rusiya Xarici İşlər Nazirliyi ölkənin Ermənistandakı səfiri Sergey Kopırkinin məsləhətləşmələr üçün Moskvaya çağrılmasının səbəbi göstərməyib. Yəni, açıqlamada Moskva ilə İrəvan arasındakı gərginlikdən söz açılmayıb. Ermənistan tərəfinə gəldikdə, Paşinyanın 44 günlük müharibədə ölkəsinə qarşı çıxan iki KTMT dövlətinin mövcudluğuna dair açıqlamasından söz açdıq. Heç şübhəsiz, Nikol Belarusla yanaşı, Rusiyanı da nəzərdə tuturdu. Erməni baş nazir, həmçinin mayın 22-də onu da bildirmişdi ki, İrəvanın KTMT ilə münasibətləri gərgindir. O qədər gərgindir ki, Ermənistan quruma üzvlüyünü dondurmaq və üzvlük haqlarını dayandırmaq fikrindədir.

***Ə.RÜSTƏMOV***
***XQ***

Köşə

**Artıq XXI əsrdə bir daha erməni-müsəlman davası olmamalıdır. Azərbaycan bu istəyini təkcə sözdə deyil, əməldə də ortaya qoyur. “Dağlıq Qarabağ” adlı münaqişə yoxdur, dünyanın aparıcı dövlətləri, “böyük güclər” Azərbaycanın memarı olduğu bu reallığı qəbul ediblər. Və bundan məmnundurlar. Postmüharibə dövrünün gündəliyini də Azərbaycan müəyyənləşdirir. Bu gündəliyin mübtədası da, xəbəri də sülhdür.**

# Biz silaha “əlvida!” deyirik!

Bölgəyə əmin-amanlıq, rahatlıq və tərəqqi gətirəcək sülhün carçısı Azərbaycandırsa, onun tezliklə reallaşmasına dəstək verəcək tərəf Ermənistan olmalıdır. Bəli, Cənubi Qafqaz sülhə hamilədir. Azərbaycan bölgənin bu “sancıdan” tezliklə qurtulması üçün əlindən gələn hər şeyi edir. Amma tək əldən səs çıxmadığı kimi, bu müşkülün çarəsi də tələb olunan ikinci əlin – sülh əlinin İrəvandan uzadılmasıdır. Biz əlimizdəki silahın lüləsinə qızılgül taxmışıq və eyni jesti – silaha “əlvida!” deməyi qarşı tərəfdən gözləyirik.

Amerikalı məşhur yazıçı Ernest Heminqueyin 1929-ci ildə çap olunmuş avtobioqrafik “Əlvida, silah!” romanının motivi məhz günahsız canlar alan bütün savaşlara nifrət, qızılgül qoxulu gəncliyin maqla, digər yandan həmin yağının basdırdığı “yeraltı ölümdən” – minalardan təmizləməklə məşğuluq. Erməni vandalizminə məruz qalan torpaqlarımızın üstü abadlaşdırılır, altı minalardan təmizlənir. Təkcə bölgəmizdə deyil, beynəlxalq arenada söz və qüdrət sahibi olan dövlətimizin öz gücü ilə yeni kəndlər salınır, yollar çəkilir, dünənki köçkünlərin normal yaşayışı üçün əlverişli şərait yaradılır. Paradoksa diqqət yetirdinizmi: sümüklər və minalar! Erməni vandalizminin gizli nişanələri. İndi bütün dünya bu nişanələrə şahidlik edir.

Yenə yadımıza qeyri-ixtiyarı Nobel mükafatçısı Ernest Heminqueyin “Əlvida, silah!”dan on bir il sonra qələmə aldığı “Əcəl zəngi” romanı düşdü. İspaniya müharibəsində partizan dəstəsinə qo-



puç olan arzularıdır. Müharibənin bütün dəhşətlərinin, astar üzünün təsviri verilən əsərdə ölüm qorxusuna təslim olan əsgərlər sərsəri güllənin qurbanına çevrilməməkdən ötrü qəsdən özlərinə xəsarət yetirir, arxa cəbhəyə, xəstəxanaya can atırlar. Yox, əsgərlər fərari deyil, ağılsız müharibəyə, gənc yaşlarında onları güllə qabağına itələyənlərə üsyan edənlərdir. Amma onları döyüşmək, deməli, öldürmək əzabından qurtaran, atəşə “Dur!” deyən yoxdur.

Qorxu hissi acı həqiqətləri də gün işığına çıxarır. Bunu bizim kimi, qonşularımız da görməli və razılaşmalıdırlar. Onsuz da bütün müharibələrin sonu sülhlə qurtarır. Özünü uduzmuş tərəf kimi hiss edən də sülhə qovuşur. Məgər sülhdən böyük uduş varmı?

Son otuz ildə Qarabağda çox qanlar töküldü. İndi biz bir yandan doğma torpağımızda yağıların qanını axıtdığı soydaşlarımızın kütləvi məzarlıqlardakı qalıqlarını aşkar etməklə, onları adətimizə uyğun ehtiramla son mənzilə yola salşulmuş gənc amerikalı könüllü, sosialist Robert Cordanın başına gələnlər qəmgin və ibrətamiz, həm də ibrət götürüləsi hekayətdir. Biz Cordanın acı aqibətini yaşamağı heç kəsə, ermənıyə də arzulamırıq. Yetər ki, qonşularımız da əllərinə götürmək istədikləri hər cür silahlara “əlvida!” deməyi bacarsın, bizim kimi, onlar da qızılgül qoxulu sülhə qucaq açsın. Çətini budur, ondan sonrası inama və səmimiyyətə bağlıdır.

Yazımızı nikbin notlarla bitirməyə çalışsaq da, hələ narahat ruhların dolaşdığı bölgəmizə sülh gəlməmiş bunu əminliklə etmək asan deyil. Azad, bütöv və müstəqil Azərbaycanın ədalətli sülhdən savayı istəyi yoxdur. Bu istəyə Ermənistanın da şərik olacağı günün tezliklə yetişəcəyinə inanmaq istərdik. Bax onda silaha “əlvida!” deməyi bacaran ermənilərin əcəl zəngindən qurtulacağına bəlkə də onlardan çox biz sevinəcəyik.

***İmran BƏDİRXANLI***
***XQ***

# Sülhün Bakı formulu

**(əvvəli 1-ci səhifədə)**

İki ölkə arasında sülhün ilkin işartısı sayılan delimitasiya işləri nəticəsində Ermənistanla 12,7 kilometr uzunluğunda sərhəd xətti müəyyən edildi, Qazax rayonunun anklav olmayan 4 kəndi – Bağanıs Ayrım, Aşağı Əskipara, Xeyrımlı və Qızılhacılı Azərbaycana qaytarıldı. Dörd gün bundan əvvəl bir güllə atılmadan, qarşılıqlı anlaşma yolu ilə həmin ərazi Azərbaycan Dövlət Sərhəd Xidmətinin nəzarətinə keçdi. Bu uğur faktını bölgə və bölgəətrafı ölkələr razılıqla, məmnunluq hissi ilə qarşıladılar. Bəs, Cənubi Qafqazda korporativ maraqlarından hələ də əl çəkmək istəməyən kənar güclər bu mini–sülhə necə yanaşdılar?

**İsrailli publisist, İsrail Jurnalistlər İttifaqının beynəlxalq əlaqələr komissiyasının rəhbəri Rostislav Qoltsmanın fikrincə,** Ermənistanın Azərbaycan kəndlərini qaytarması sevindirici hadisədir və belə qənaətə gəlməyə imkan verir ki, İrəvan Fransaya tərəf getmir, öz or-





bitinə qayıdır: “Və bunlar, ümumiyyətlə, fərqli məsələlərdir. Çünki, Avropa İttifaqının qəbul etdiyi əməkdaşlıq prinsiplərindən biri “qonşularla sıfır problemi”dir. Ermənistan isə reallıqda bu qaydaları nəzərə almalıdır. Mən şadam ki, Ermənistan Bakı ilə sülh danışıqlarını ikitərəfli formatda aparmağın daha doğru yol olduğunu anlamağa başlayıb. Bu arada Bakı öz strategiyasını qurarkən artıq çox gözəl başa düşürdü ki, ən etibarlı yol heç bir “həmsədrlər”, “vasitəçilər” olmadan yalnız özünə güvənməkdir. Məhz tərəflər arasında birbaşa dialoq, onların səyləri, əslində, sülh danışıqlarını arzuedilən nəticəyə gətirib çıxara bilər. Bu kontekstdən yanaşanda İsrailin 1949-cu ildə Negevi azad etməsi ilə bağlı oxşar təcrübəsini xatırlatmaq istərdim. O zaman əməliyyatdan dərhal sonra məsələyə beynəlxalq vasitəçilər müdaxilə etdilər. Onlar Negevin əvvəllər Misir tərəfindən işğal olunduğunu tamamilə unudaraq, bu məsələyə müdaxilə etməyə başladılar. Vasitəçilər əllərini yelləyərək qoşunların çıxarılmasını tələb edərək, bu ərazilərin statusunun dinc danışıqlar və beynəlxalq vasitəçilik yolu ilə həll olunacağına söz verdilər. Amma İsrailin o zamankı baş nazir Ben-Qurion açıq şəkildə bəyan etdi ki, biz artıq öz torpaqımızı azad etmişik və bunu beynəlxalq vasitəçilər olmadan davam etdirəcəyik”.

Daha sonra bosniyalıların misalını xatırladan yəhudi ekspert onlar özləri hücuma keçənə, öz torpağında olduqlarını sübut edənə qədər, nədənsə danışıqlar prosesi çərçivəsində heç bir qərar verilmədiyini vurğuladı. Onun fikrincə, bu, ən optimal variant və düzgün qərardır. Beynəlxalq hüququn qayda və prinsiplərinə uyğun üsullarla İrəvana təzyiqlərini davam etdirən, onun inadkarlığını zərgər dəqiqliyi ilə düşünülmüş arqumentlərlə sındıran Azərbaycan bu nəticəni zəhmətin və uğurlu diplomatik fəaliyyətin təntənəsi kimi qeyd etməlidir: “İlham Əliyev bəyanatlarında ardıcıl və məsuliyyətlidir. O, hər zaman bir şeyi nümayiş etdirir – Azərbaycan başladı işi mütləq son qələbəyə qədər başa çatdırır. Azərbaycanın dörd kəndinin qaytarılması sübut edir ki, Bakı məhz xoş məramı, ədalətli mövqeyi nəticəsində, heç bir təcavüz və zorakılıq olmadan regionda sülhün bərpasına addım-addım irəliləyir”.

***

“Bakı Qazax rayonunun kəndlərini geri qaytarmaqla ermənilərdə problemlərin danışıqlar yolu ilə həll edilə biləcəyinə inamını formalaşdırdı. İnanmaq istərdim ki, tezliklə bütün Cənubi Qafqaz xəritədə münaqişə ocağı, qaynar nöqtə kimi deyil, sülhün, anlaşmanın, qarşılıqlı fayda gətirəcək siyasi qərarların qəbul ediləcəyi regiona çevriləcək”.

Bu sözlərin müəlifi, Azərbaycan xalqını və Prezident İlham Əliyevi parlaq qansız diplomatik qələbə münasibətilə təbrik edən **qazaxıstanlı politoloq, siyasi elmlər namizədi Şarip İşmuhamedov** dörd kəndin qaytarılmasını bir ilin deyil, bəlkə də, arxada qalan otuz ilin sınaq və səhv üsullarının, Azərbaycanın hərbi-siyasi strategiyasının təkamülünün nəticəsi hesab edir: “Bakı nümayiş etdirdi ki, bu cür yanaşma nəinki mümkün, həm də son dərəcə effektivdir. O, həm regional, həm də beynəlxalq miqyasda dövlətlər arasında bu qəbildən olan mübahisəli məsələlərin həlli üçün yeni nümunələr ortaya qoyur. Bu mənada sərhəddə əldə edilən uğur hər zaman problemlərin zorakı üsullarla deyil, sülh yolu ilə həlinin tərəfdarı kimi çıxış edən İlham Əliyevin siyasi strategiyasının təntənəsidir”. Sülhün, ən azı, belə bir formulla əldə oluna biləcəyini göstərən qazaxıstanlı politoloq Bakı bununla diqqəti iki ölkə arasında vasitəçisiz, birbaşa danışıqlar prosesini pozmağa, bu sülh formuluna müdaxiləyə, bölgədə yeni gərginliyin yaranmasına çalışanları əməlli–başlı məyus etdiyinə yönəltdi: “Həmin qüvvələr bölgədə yal-



nız öz maraqlarını güdürdülər. Fransa və öz ambisiyalarından çıxış edən Qərbin digər “oyunçu”ları indi tamamilə işsiz qalıblar. Üstəlik, sülh gündəmindən narazı bədxahların Cənubi Qafqaza müdaxiləsi mümkünsüz hala gəlib”.

***

**Mövzu ilə bağlı “XQ”-yə açıqlama verən Qərbi Kaspi Universitetinin professoru, politoloq Fikrət Sadıxov qeyd etdi ki,** Azərbaycanın bölgənin aparıcı dövlətinə, güc mərkəzinə çevrilməsini bir çox böyük dövlətlər də etiraf edirlər: “Öz torpağını işğaldan azad edən ölkə kimi tanınan Azərbaycan həm də bölgədə və dünyada sülhpərvər təşəbbüsləri ilə gündəmdədir. Amma qonşu Ermənistanda baş verən son proseslər onun zəifliyinin göstəricidir. Biz siyasi, iqtisadi, hərbi potensialımızı artırmaqla yanaşı, bölgənin digər ölkələrin əlimizi uzatmağa hazırıq. Azad etdiyimiz torpaqlarımızda aparılan genişmiqyaslı bərpa-quruculuq işləri Azərbaycanın yalnız inkişafa doğru getdiyinin bariz sübutudur. Yalnız sülhə yönəlik inkişafımızın bundan sonra da davam edəcəyinə heç bir şübhə ola bilməz. Aydın məsələdir ki, Bakının bütün sahələrdə qazandığı uğurlar, sülhə doğru atdığı addımlar bir sıra güclərdə qıcıq yaradır, Azərbaycana qarşı təzyiqləri artırır. Əslində, bunun özünü təbii proses kimi qəbul etməliyik. Çünki, bədxahlarımız bizi qüdrətli, bölgənin aparıcı ölkəsi kimi qəbul etməyə çətinlik çəkirlər”.

Tanınmış politoloq, eyni zamanda, Azərbaycanın özünün təhlükəsizliyini tam təmin etməklə bərabər, bölgənin də sülh coğrafiyasına çevirmək üçün əlindən gələni edəcəyinə əminliyini bildirdi. Ümid etmək istərdik ki, son üç ildə başı daşdan-daşa dəymiş rəsmi İrəvan bundan sonra onu təmənnalı və riyakar oyunlara cəlb etməyə çalışan qərbli



“tərəfdaşlarının”, bəzi beynəlxalq güclərin, xüsusən də Fransa kimi dövlətin əlində alət olmağa razılaşmayacaq. Ermənistan isteblişmenti, nəhayət, anlamalıdır ki, xalqı düşdüyü səfalət və fəlakət girdabından çıxarmağın yolu sülhdən, əmin-amanlıqdan və qonşuları ilə əməkdaşlıqdan keçir. Bu, Bakının təklif etdiyi sülhə aparan yeganə yoldur.

***İmran BƏDİRXANLI***
***XQ***

# Şərqin azadlıq məşəli – Azərbaycan Xalq Cümhuriyyəti

***Yüz il bundan əvvəl müsəlman aləmində ilk dəfə olaraq demokratik respublika yaradılmışdır. Biz fəxr edirik ki, bu respublikanı Azərbaycan xalqı yaradıb və bir daha bütün dünyaya nümayiş etdirib ki, Azərbaycan xalqı böyük xalqdır, istedadlı xalqdır, azad xalqdır. Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması və iki il ərzində fəaliyyəti tarixi hadisə idi. Azərbaycan o ölkələrdəndir ki, hələ yüz il bundan əvvəl ən ülvi demokratik dəyərləri nəinki bəyan edib, öz praktiki fəaliyyətində onları təmin edib.***

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**(əvvəli 1-ci səhifədə)**

Xalqın öz milli dövlətini qurmaq uğrunda bu şərəfli mübarizəyə qalxdığı dövr Birinci Dünya müharibəsinin yenicə başa çatdığı, beynəlxalq hüquq normalarının hələ oturuşmadığı, mürəkkəb geosiyasi proseslərin baş verdiyi ağır bir dövr idi. Dövrün mürəkkəbliyinə baxmayaraq, Azərbaycan ziyalılarının apardıqları ardıcıl siyasi mübarizənin uğurla nəticələnməsini şərtləndirən bir sıra ciddi amillər də mövcud idi. Bu böyük mücadilənin milli tariximizin köklərindən qaynaqlanan və özünə yaxın dövrün axtarışlarından qidalanan, hətta müəyyən intellektual-ideoloji bazaya malik olan ənənələri vardı.

Hələ XIX əsrin ortalarından başlayan maarifçilik hərəkatı, daha sonra milli mətbuatın təməlinin qoyulması, tənqidi ruhlu realistik-demokratik ictimai-ədəbi mühitin meydana gəlməsi Azərbaycanda siyasi elitanın formalaşmasında, xalqımızın milli özünüdərk ideyalarının güclənməsində, çar mütləqiyyəti və müstəmləkəçilik rejiminə qarşı ardıcıl mübarizənin təşkilində önəmli rol oynamışdır. Mirzə Fətəli Axundzadə, Həsən bəy Zərdabi, Cəlil Məmmədquluzadə, Mirzə Ələkbər Sabir, Nəcəf bəy Vəzirov, Əbdürrəhim bəy Haqverdiyev və digər görkəmli şəxsiyyətlərin davamlı səyləri nəticəsində Azərbaycanda milli teatrın, milli məktəbin və milli mətbuatın yaranması cəmiyyəti bu proseslərə hazırlayan vacib hadisələr idi.

Mirzə Fətəli Axundzadə ilə başlayan yaradıcı ziyalıların intellektual hərakatı cəmiyyətin həyatında və şüurunda köklü dəyişikliklər yaratmışdı. Getdikcə dərinləşən mədəni maariflənmə isə öz növbəsində siyasi təşkilatlanmaya, xalqımızın hüquq və azadlıqları uğrunda mübarizəyə qoşulmasına təkan vermişdi. Milli azadlıq hərəkatının ilk aparıcı siyasi təşkilatları olan "Müsavat", "Difai" kimi qurumların yaranması da müstəqilliyə gedən yolda mühüm tarixi hadisələr idi.

Bütövlükdə, İslam dünyasında siyasi-mədəni dekadanın yaşandığı bir dövrdə Azərbaycan xalqının demokratik-hüquqi dövlət quruculuğu uğrunda mübarizəyə qoşulması həmin dövr üçün unikal siyasi hadisə idi. Zamanın çağırışlarına adekvat münasibət ortaya qoyan Azərbaycan aydınları hələ Çar Rusiyasının müvafiq tribunalarından gələcək müstəqilliyə yol açan qəti mövqelərini ifadə edirdilər. Rusiyanın Dövlət Dumalarına seçilmiş F.Xoyski, A.Muradxanov, A.M.Topçubaşov, İ.Ziyadxanov kimi görkəmli nümayəndələrimiz xalqımızın haqq və tələblərini açıq şəkildə bildirirdilər. Çar Rusiyasının zəifləməyə başladığı, "xalqlar həbsxanasında" milli-ideoloji cərəyanların gücləndiyi XX əsrin əvvəllərində isə həmin tələblər daha qətiyyətli şəkildə səslənməyə başlamışdı. Cümhuriyyətin yaranmasına aparan yolda şərəfli mübarizə təcrübəsi keçmiş Azərbaycan xalqının əsas hədəfi çağdaş milli ideologiyanı milli ideyalar təməlində möhkəmləndirməkdən və itirilmiş dövlətçilik ənənələrini bərpa etməkdən ibarət idi. Bu məqsədlə Məhəmməd Əmin Rəsulzadə, Nəsib bəy Yusifbəyli, Fətəli xan Xoyski, Əlimərdan bəy Topçubaşov, Əhməd bəy Ağaoğlu kimi şəxsiyyətlərin öncüllüyündə Cümhuriyyət ideyalarının insanlar arasında kütləviləşdirilməsi istiqamətində ardıcıl tədbirlər həyata keçirilirdi. Əli bəy Hüseynzadənin bütünlüklə türk dünyasına tətbiq aktuallığı ilə irəli sürdüyü "türkləşmək, islamlaşmaq və avropalaşmaq" fikri Azərbaycan Xalq Cümhuriyyətinin qurulmasına aparan yolda xalqımızın milli, dini köklərə, mütərəqqi və bəşəri ideyalara sadiqliyinin əyani təzahürü idi.

Bu sırada ən vacib amillərdən biri də istiqlaliyyət uğrunda apardığı mübarizədə öz xalqını azadlığa və səadətə qovuşdurmaq üçün Məmməd Əmin Rəsulzadə, Fətəli Xan Xoyski, Nəsib bəy Yusifbəyli və digərləri kimi görkəmli şəxsiyyətlərin nümayiş etdirdikləri qətiyyət və sarsılmaz iradə idi. İstiqlaliyyət yolunda, dövrün siyasi, intellektual təbəqəsinin əzmkar fəaliyyəti və on minlərlə soydaşımızın həyatını itirdiyi amansız mücadilə Azərbaycan Xalq Cümhuriyyətinin yaranması ilə tariximizin ən parlaq səhifəsini yazdı.

1918-ci ilin 28 mayında müsəlman Şərqində ilk demokratik, dünyəvi respublikanın yaradılması nə qədər əlamətdar idisə, Azərbaycan Xalq Cümhuriyyətinin təşəkkülündən sonra baş verən zəncirvari hadisələr də öz əhatə və təsir dairəsinə, siyasi-mənəvi yükünə görə bir o qədər vacib əhəmiyyət daşıyırdı. Olduqca mürəkkəb siyasi-hərbi şəraitdə istiqlaliyyəti elan edilən Azərbaycan Xalq Cümhuriyyətinin yarandığı ilk gündən demokratik, hüquqi dövlət quruculuğu, universal insan hüquq və azadlıqlarının təmin edilməsi istiqamətində sistemli tədbirlər həyata keçirməsi çar mütləqiyyətindən qurtulmuş digər xalqların da yeni dövlətçilik təcrübəsinin formalaşmasına, modernləşən dünya praktikasına uyğunlaşmasına ciddi təsir göstərdi.

Bəlkə də həmin dövrdə yenicə müstəqilliyini bəyan etmiş Xalq Cümhuriyyəti ərazi bütövlüyünə təhdidləri, gərgin siyasi vəziyyəti əsas gətirərək, milli hökumət insan hüquq və azadlıqlarının təmin edilməsi məsələsini ikinci plana keçirə bilərdi. Lakin Azərbaycanın siyasi fikir xadimləri, milli hökumətdə təmsil olunan görkəmli şəxsiyyətləri üçün hüquq və azadlıqlar heç bir halda prioritetliyini azaltmadı. Təsadüfi deyildir ki, vətəndaşların mülki və siyasi hüquqlarının qorunması, bütün xalqların və hər kəsin milli, dini, irqi və cinsi mənsubiyyətindən asılı olmayaraq, bərabərhüquqlu inkişafı üçün münbit şəraitin yaradılması Azərbaycan Xalq Cümhuriyyətinin İstiqlal Bəyannaməsində birbaşa öz əksini tapmışdı. 18 yaşına çatmış bütün vətəndaşlara, o cümlədən, qadınlara səsvermə hüququnun verilməsi isə həmin dövr üçün bir çox Avropa dövlətlərində belə gündəmə gətirilməsi mümkün olmayan elə bir demokratik dəyər idi ki, bu fakt azadlıq və demokratiya beşiyi sayılan Avropa ölkələrində bu gün də heyranlıq və qibtə doğurmaqdadır. Universal dəyərlərə, insan hüquq və azadlıqlarına təminat yaradan prinsipləri dövlət idarəetməsinin əsas prinsipləri kimi qəbul etməklə Azərbaycan Xalq Cümhuriyyəti mövcudluğunun ilk günlərindən etibarən Şərqin, İslam və Türk dünyasının mütərəqqi dövlət modeli kimi qəbul edilməyə və fəaliyyət göstərməyə başladı.

Beləliklə, bütün regionun siyasi mənzərəsini dəyişən Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasından sonra həm ölkədaxili, həm də regional və beynəlxalq miqyasda dövlətçiliyin əsaslarının möhkəmləndirilməsi, beynəlxalq hüququn müstəqil subyekti statusunun əldə edilməsi məqsədilə ardıcıl tədbirlər həyata keçirilməyə başlandı. Ölkənin dövlət rəmzlərinin təsis edilməsi barədə qərarın qəbul edilməsi, Azərbaycan dilinin dövlət dili elan olunması, hakimiyyətin qanunverici, icraedici və məhkəmə hakimiyyətinə bölünməsi prinsipi əsasında orqanik dövlət idarəetməsinin əsasının qoyulması, milli valyutanın tədavülə buraxılması, kifayət qədər peşəkar kadrlardan ibarət olan 40 min nəfərlik milli ordunun yaradılması qısa müddət ərzində həyata keçirilmiş mühüm tədbirlər idi.

Azərbaycan Xalq Cümhuriyyətinin Parlamenti yenicə müstəqilliyinə qovuşmuş dövlətin qanunvericilik əsaslarını yaratmaq istiqamətində mühüm addımlar ataraq milli parlamentarizmin təşəkkülünə yol açdı. İl yarımlıq fəaliyyəti dövründə parlament tərəfindən qəbul olunan qanunlar Xalq Cümhuriyyətinin müstəqilliyinin möhkəmləndirilməsinə, ölkədə siyasi və iqtisadi tərəqqiyə, mədəniyyət, maarif və təhsil sahələrində ciddi irəliləyişə səbəb oldu. Beləliklə, Azərbaycan Xalq Cümhuriyyəti qarşısında əsas hədəf kimi dayanan siyasi, iqtisadi, mədəni, təhsil, ordu quruculuğu istiqamətində ən qabaqcıl qayda və standartların ölkədə tətbiqini həyata keçirməklə, həm parlament, həm də milli hökumət bütün qüvvələrini səfərbər etmişdi.

Tarix boyu Qafqaz birliyi ideyasına, regionda konstruktiv əməkdaşlıq mühitinin formalaşmasına böyük zərbə vuran ermənilər XX əsrin belə həssas dönəmində də öz məkrli planlarını həyata keçirmək üçün bütün vasitələrdən istifadə edirdilər. 114 min kvadratkilometrlik əraziyə sahib olan Xalq Cümhuriyyətinin bütün bölgələrdə öz suverenliyini təmin etməsinə başlıca maneə törədən erməni-daşnak birliklərinin dağıdıcı fəaliyyəti ölkədə islahatlar prosesini, quruculuq tempini ləngidirdi. Yenicə yaranmış dövlət bütün siyasi səylərini, maliyyə və hərbi resurslarını daşnak-bolşevik birləşmələrinin təcavüzünün qarşısının alınmasına yönəltməyə məcbur edilirdi. Yalnız 3 aydan sonra – 1918-ci ilin sentyabrında Nuru paşanın rəhbərliyi ilə Qafqaz İslam Ordusu tərəfindən Bakının xaricdən dəstəklənən erməni-daşnak birliklərindən tam təmizlənməsindən sonra Xalq Cümhuriyyəti hökuməti ölkə ərazisində əhəmiyyətli dərəcədə sabitliyin bərqərar edilməsinə nail oldu və siyasi-diplomatik fəaliyyətdə, iqtisadi-sosial sahələrdə ciddi uğurlar əldə edilməyə başlandı.

Artıq 1918-ci ilin dekabrında Bakıda yeni hökumətin formalaşdırılmasından dərhal sonra müttəfiq dövlətlərin Bakıdakı nümayəndəsi general Tomson Azərbaycan hökumətini tanıması barədə xüsusi bəyanat verdi. Həmin bəyanatda bütün Azərbaycan ərazisində milli hökumətin qanuniliyi təsdiqlənir və müttəfiq hərbi qüvvələr komandanlığının bu hökumətə dəstək göstərəcəyi bildirilirdi. Həmçinin, milli hökumətin nümayəndələri ilə mütəmadi görüşlərdən sonra general Tomson Paris Sülh Konfransında Xalq Cümhuriyyəti nümayəndələrinin iştirakına dəstəyini də ifadə etdi. Eyni zamanda, Balkan yarımadasında və Qafqazdakı Böyük Britaniya qoşunlarının baş komandanı, general Corc Miln də İngiltərənin Azərbaycan hökumətini ölkə ərazisində yeganə qanuni hakimiyyət kimi tanıdığını bəyan etdi.

Milli hökumətin qarşısında dayanan əsas vəzifələrdən biri dünyanın siyasi nizamının yenidən quruluş aldığı bir zamanda Paris Sülh Konfransında müttəfiq dövlətlər tərəfindən Azərbaycan Xalq Cümhuriyyətinin tanınmasını, dünyanın aparıcı dövlətləri ilə diplomatik əlaqələrin yaradılmasını təmin etmək idi. Həmin dövrdə Birinci Dünya müharibəsindən qalib çıxmış Antanta İttifaqına daxil olan dövlətlərin birlikdə və hər birinin ayrıca olaraq Qafqazda və xüsusilə Azərbaycanda mühüm siyasi-iqtisadi, hərbi məqsəd və maraqları var idi. Xalq Cümhuriyyəti hökumətinin qarşısında isə gərgin siyasi-hərbi şəraitdə, məhdud resurslarla dövləti və milli maraqların müdafiə olunması kimi olduqca çətin vəzifə dayanırdı.

Əlimərdan bəy Topçubaşovun rəhbərliyi altında Paris Sülh Konfransında iştirak edən nümayəndə heyətinin Xalq Cümhuriyyətinin dünya birliyi tərəfindən tanınması üçün ardıcıl səyləri qısa müddət ərzində öz bəhrəsini verdi. 1919-cu ilin mayında Azərbaycanın istiqlaliyyəti məsələsi ABŞ Prezidenti Vudro Vilsonun təşəbbüsü ilə ABŞ, Böyük Britaniya, Fransa və İtaliya hökuməti rəhbərlərinin təmsil olunduğu Dördlər Şurasının iclasında geniş müzakirə edildi. 1920-ci ilin yanvarında isə Böyük Britaniyanın təşəbbüsü ilə çağırılmış Paris Sülh Konfransı Ali Şurasının sessiyasında Xalq Cümhuriyyəti də daxil olmaqla, Cənubi Qafqaz respublikalarının müstəqilliyinin tanınması məsələsi qaldırıldı. Həmin ilin 11 yanvar tarixində Paris Sülh Konfransının Ali Şurası tərəfindən qəbul edilmiş qərarda müttəfiq dövlətlər tərəfindən Azərbaycanın de-fakto tanınması bəyan edildi.



Azərbaycanda Xalq Cümhuriyyətinin yaranması ölkənin ictimai-siyasi həyatında olduğu kimi, mədəni, ədəbi, təhsil sahəsində də ciddi canlanmaya səbəb oldu. 1918-ci ilin avqustunda "Xalq maarifinin, məktəblərin milliləşdirilməsi haqqında" qərarla tədris müəssisələrində təhsilin ana dilində aparılmasına başlandı. 1919-cu ilin sentyabrında Xalq Cümhuriyyəti Parlamenti tərəfindən Bakı şəhərində universitet açmaq haqqında qanun qəbul edildi. Bakı Dövlət Universitetinin nizamnaməsinin qəbul edilməsi və onun fəaliyyətə başlaması milli və peşəkar kadrların hazırlanması istiqamətində atılmış mühüm addım idi.

Xalq Cümhuriyyəti dönəmində Məhəmməd Hadi, Hüseyn Cavid, Cəlil Məmmədquluzadə, Üzeyir bəy Hacıbəyli, Əbdürrəhim bəy Haqverdiyev, Abdulla Şaiq, Cəfər Cabbarlı, Əhməd Cavad, Almaz Yıldırım, Əzim Əzimzadə kimi görkəmli yaradıcı şəxsiyyətlərin nümunəsində müstəqil Azərbaycanda mədəniyyət, ədəbiyyat və incəsənət öz intibah dövrünü yaşadı. Eyni zamanda, ana dilində qəzet və jurnalların nəşri xalqımızın mədəni inkişafında və maariflənməsində mühüm rol oynadı. Bu dövrdə nəşr edilən "Azərbaycan", "İstiqlal", "Açıq söz" kimi qəzet və dərgilər ölkə əhalisinə mühüm informasiyaların çatdırılmasında əsas vasitələr kimi çıxış edirdi. Azərbaycanda milli iqtisadiyyatın, milli sahibkarlığın, milli burjuaziyanın dayaqları yaradılırdı. Birinci Dünya müharibəsindən sonra dövlətlərarası münasibətlərdə gərginliklərin yaşandığı bir zamanda Azərbaycan ən müxtəlif vasitələrlə beynəlxalq miqyasda əməkdaşlığa can atırdı. Siyasət, diplomatiya, hərb, iqtisadiyyat, təsərrüfat, elm, təhsil və mədəniyyət sahələrinin hər biri ölkənin daxili həyatında və digər dövlətlərlə təmaslarında yeni fəaliyyət mexanizmlərini hərəkətə gətirirdi.

Belə bir ağır siyasi durumda erməni birləşmələrinin azərbaycanlılara qarşı törətdiyi kütləvi qırğınlar və ölkədə sabitliyin pozulmasına yönələn cəhdlər Xalq Cümhuriyyətinin bolşevik təcavüzünə qarşı müqavimətini zəiflədirdi. 1920-ci ilin əvvəllərində erməni nümayəndələrinin Moskvaya ərazi güzəştləri müqabilində Xalq Cümhuriyyəti hökumətini devirməyi təklif etməsi əsl erməni xislətini, xəyanətkarlığını göstərən tarixi faktlardan biridir.

Cümhuriyyət qurucularının əksəriyyəti – Məhəmməd Əmin Rəsulzadə, Fətəli xan Xoyski, Nəsib bəy Yusifbəyli, Əlimərdan bəy Topçubaşov, Xosrov bəy Sultanov, Məmmədhəsən Hacınski, Xəlil bəy Xasməmmədov, Məmməd Yusif Cəfərov, Əkbər ağa Şeyxülislamov, Xudadat bəy Məlik-Aslanov, Camo bəy Hacınski, Xudadat bəy Rəfibəyli, Behbud xan Cavanşir, İsmayıl xan Ziyadxanov, Aslan bəy Səfikürdski, Səməd bəy Mehmandarov, Rüstəm xan Xoyski və başqaları yüksək təhsil almış ziyalılar, siyasətçilər idilər. Onlar yaxşı başa düşürdülər ki, yaranmış yeni tarixi-siyasi şəraitdə Azərbaycan öz böyük dövlətçilik ənənələri üzərində müstəqil demokratik respublikanı ərsəyə gətirməsə, bu imkan birdəfəlik əldən çıxacaq. Cümhuriyyətin süqutundan sonra həyatını itirmiş, əksəriyyəti isə 1920-ci ildə bolşeviklər və ermənilər tərəfindən öldürülmüş bu insanlar, əslində, böyük millət qəhrəmanlarıdır. Onlar həm də milli dövlətçilik ənənələrini dünyanın yalnız bir neçə mütərəqqi Avropa dövlətlərində və Amerika Birləşmiş Ştatlarında yenicə təşəkkül tapmağa başlayan demokratizm və respublikaçılıq təcrübəsi ilə birləşdirərək, çoxmillətli və çoxpartiyalı parlament quruculuğunda, ölkə ərazisində yaşayan bütün xalqların və hər iki cinsin bərabər seçki hüququnun qanunla təsbit edilməsi məsələsində daha irəli gedərək, xalqımızın tarixi-mədəni və ictimai-siyasi dünyagörüşünün seçkin dəyərləri üzərində Qafqazın ən böyük dövlətini yaratmışdılar. Məhz cümhuriyyətçilərin fədakarlığı sayəsində Azərbaycan bu gün də Qafqazın ən böyük dövləti olaraq yaşamaqdadır. Əgər cümhuriyyətçilər 1918-1920-ci illərdə müstəqilliyin təməlini qoymasaydılar, Azərbaycan və digər Qafqaz ölkələri XX əsrin sonlarında Sovet İttifaqından suveren respublika kimi ayrıla bilməyəcəkdilər. Azərbaycan Xalq Cümhuriyyəti ilə müasir Azərbaycan Respublikasını cəmi 70 il ayırır. Lakin bu 70 ildə də bizi ayıran yox, birləşdirən dəyərlər xalqımızın ruhunda varislik xətti ilə yaşayıb.

1920-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin süqutu xalqımızın dünyəvi-universal dəyərlərə bağlılığını, istiqlal əzmini sarsıtmadı, əksinə, öz mübarizəsini yeni siyasi şəraitdə daha uyğun platformalarda aparmağa ruhlandırdı. Xüsusilə Azərbaycanının siyasi mühacirət nümayəndələri Cümhuriyyət ideyalarının yaşadılması, Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması işində yorulmaz səylərini davam etdirdilər.

1991-ci ildə milli müstəqilliyimizin bərpa edilməsindən sonra milli dövlətçilik tariximizin qürur mənbəyi olan Azərbaycan Xalq Cümhuriyyəti irsinin dərindən araşdırılması istiqamətində mühüm addımlar atılmış, AXC dövründə hökumətdə təmsil olunmuş nümayəndələrin və digər milli aydınların həyat və fəaliyyətinə dair yüzlərlə araşdırma işləri işıq üzü görmüşdür. Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasını xalqımızın istiqlaliyyət arzusu ilə əlaqələndirən Heydər Əliyev deyirdi: "Müsəlman Şərqində ilk demokratik cümhuriyyətin məhz Azərbaycan torpağında yaranması xalqımızın o dövrdə və o illər ərəfəsində – XIX əsrin sonunda və XX əsrin əvvəllərində milli müstəqillik, azadlıq duyğuları ilə yaşaması ilə bağlıdır. O illərdə xalqımızın qabaqcıl şəxsiyyətləri, mütəfəkkir adamları, ziyalıları xalqımızda milli azadlıq, milli müstəqillik duyğularını gücləndirmiş, milli dirçəliş, milli oyanış əhval-ruhiyyəsi yaymış və bunların hamısı məntiqi olaraq Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasına gətirib çıxarmışdır."

Azərbaycan Xalq Cümhuriyyətinin siyasi varisi kimi Azərbaycan Respublikasında cümhuriyyətçilik dəyərlərinin və ideyalarının yaşadılması istiqamətində dövlət səviyyəsində tədbirlər müntəzəm şəkildə həyata keçirilməkdədir. Hələ 1998-ci ildə ümummilli lider Heydər Əliyev tərəfindən imzalanmış sərəncama uyğun olaraq, Azərbaycan Xalq Cümhuriyyətinin 80 illik yubileyi bütün respublika ərazisində silsilə tədbirlərlə qeyd edilmiş, Cümhuriyyət irsinin təbliğatı istiqamətində maarifləndirici tədbirlər həyata keçirilmişdir. Azərbaycan Respublikası Prezidentinin 1 fevral 2003-cü il tarixli sərəncamına uyğun olaraq, Bakı şəhərində Azərbaycan Xalq Cümhuriyyətinə abidənin ucaldılması Cümhuriyyət dəyərlərinin əbədiləşdirilməsi istiqamətində atılmış vacib addım olmuşdur. 2008-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin 90 illik yubileyinin keçirilməsi haqqında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən sərəncamın imzalanması milli dövlətçilik tariximizin parlaq nümunəsi olan Xalq Cümhuriyyətinin irsinə və dəyərlərinə yüksək ehtiramın daha bir bariz göstəricisi idi.

Prezident İlham Əliyev tərəfindən 2018-ci ilin "Azərbaycan Xalq Cümhuriyyəti İli" elan edilməsi və AXC-nin 100-cü ildönümünün dünyanın demək olar ki, bütün ölkələrində qeyd edilməsi tariximizin qürurverici səhifəsini, həmin dövrün istiqlal və azadlıq mücahidlərinin həyat və fəaliyyətini bir daha xatırlamaq, öyrənmək və təbliğ etmək üçün gözəl imkan yaratmışdır.

Azərbaycan Xalq Cümhuriyyəti zaman baxımından az müddətdə mövcud olsa da, mahiyyət etibarilə Azərbaycan xalqının dövlətçilik təfəkküründə dərin izlər buraxdı. Xalqımız Cümhuriyyət dönəmində daha da zənginləşmiş mili-mənəvi dəyərləri qoruyub saxladı, hətta Sovet hakimiyyəti illərində də özünün dövlətçilik atributlarına dərin ehtiramını ürəyində yaşatdı. Cümhuriyyət dönəmində möhkəmlənib inkişaf etdirilmiş dövlətçilik şüuru, milli-mənəvi dəyərlər, milli özünüdərkin yetişməsi Sovet İttifaqının süqutundan sonra Azərbaycanın müstəqilliyinə yenidən qovuşmasında həlledici amil oldu. Azərbaycan Xalq Cümhuriyyəti qarşısına qoyduğu məqsədlərə tam nail olmadan süquta uğrasa da, onun xalqımızın şüurunda bərqərar etdiyi istiqlaliyyət məfkurəsi demokratik, hüquqi dövlət prinsiplərinə əsaslanan müstəqil Azərbaycanın yenidən qurulmasında əvəzsiz rol oynadı.

Bu gün siyasi sabitliyin, dayanıqlı inkişafın ünvanı olan Azərbaycan Respublikası – varisliyinin şərəfini bayrağından ideallarınadək qürurla daşıdığı Azərbaycan Xalq Cümhuriyyəti dövründə gerçəkləşdirilməsi mümkün olmayan ideya və məqsədləri əzmkarlıqla həyata keçirməkdədir. Azərbaycan Xalq Cümhuriyyətinin yaranması və mövcudluğu uğrunda mübarizə aparmış şəxsiyyətlərin ruhuna ən böyük ehtiram da məhz demokratik, hüquqi dövlət quruluşunun əsaslarını möhkəmləndirməkdən, insan inkişafına əsaslanan rifah dövləti yaratmaq uğrunda ardıcıl fəaliyyəti davam etdirməkdən ibarətdir.

***Cavansir FEYZİYEV,***
***Milli Məclisin deputatı,***
***fəlsəfə doktoru***

# Məqsəd yüksək səriştəli müəllimləri üzə çıxarmaqdır

**Artıq 2 ilə yaxındır ki, ölkəmizin ümumi təhsil müəssisələrində çalışan müəllimlərin sertifikatlaşdırılması həyat keçirilir. Hər bir təhsilverənin, ümumilikdə, 3 dəfə olmaqla 5 ildən bir iştirakı ilə keçirilməsi nəzərdə tutulan bu konsepsiya təhsilin keyfiyyətini yüksəltmək baxımından təsirli mexanizmdir. Sertifikasiya ilk növbədə bilik səviyyəsi yüksək olan müəllimləri aşkarlayır, onların maddi stimullaşdırılmasını təmin edir, eyni zamanda, zəif nəticə göstərənlərin övladlarımızın gələcəyini təhlükə altına atmasına mane olur. Sertifikatlaşdırma müəllimlərin maddi həvəsləndirilməsində əhəmiyyətli rol oynayır. Bu prosesə ilk olaraq ibtidai sinif müəllimləri cəlb olunub. Daha sonra Azərbaycan dili və ədəbiyyat müəllimlərinin biliklərinin yoxlanılmasına başlanılıb. Digər fənn müəllimləri də sertifikasiyadan keçəcək.**



İlk baxışdan proses asan görünsə də, mahiyyət etibarilə çətin və uzunmüddətlidir. Bu baxımdan cəmiyyətdə müəyyən mübahisə və narazılıqlar da var. Məsələni ətraflı araşdırmaq üçün "Xalq qəzeti"ndə dəyirmi masa müzakirəsi təşkil edildi. Müzakirələrdə Elm və Təhsil Nazirliyinin İctimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsinin müdiri Səbuhi Rzayev, ETN-in Məktəbəqədər və ümumtəhsil siyasəti şöbəsinin müdiri Vəfa Yaqublu, Azərbaycan Respublikasının Təhsil İnstitutunun İnsan resursları mərkəzinin şöbə müdiri Muxtar Hacıyev, "Məktəbəqədər və ibtidai təhsil" jurnalının baş redaktoru Böyükağa Mikayıllı, Azərbaycan Mətbuat Şurası İdarə Heyətinin üzvü Müşfiq Ələsgərli və digərləri iştirak etdilər.

**Müzakirəni giriş sözü ilə açan "Xalq qəzeti"nin baş redaktoru Əflatun Amaşov bildirib ki,** ümumi təh-



sil müəssisələrində çalışan müəllimlərin sertifikatlaşdırılması eyni zamanda, ölkə miqyaslı ictimai hadisədir. Buna görə də media təmsilçilərinin, jurnalistlərin prosesə marağı böyükdür. Marağı şərtləndirən başlıca indikator ümumən təhsilin keyfiyyətinin yüksəldilməsinin prioritet götürülməsidir. Bu isə öz növbəsində dövlətimizin mənafelərindən irəli gəlməkdədir: "Təhsil elə bir strateji sahədir ki, orada dövlət siyasəti ilə cəmiyyətin tələblərinin uzlaşdırılması vəhdətdə götürülməlidir. Ümumi təhsil müəssisələrində çalışan müəllimlərin sertifikatlaşdırılmasına maraq bundan qaynaqlanır. Deməli, mövcud sahədə ictimai müzakirələrin təşkilinə ehtiyac var. Bu gün "Xalq qəzeti"ndə mövzuya yer verilməsi də bu ehtiyacın ödənilməsinə töhfə vermək niyyətinin ifadəsidir. Əminəm ki, müzakirələrimiz səmərəli keçəcək və ümumi işə fayda gətirəcək".

**Səbuhi Rzayev,**
**ETN-in İctimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsinin müdiri:**



– Əflatun müəllim, aktual mövzu olan müəllimlərin sertifikasiyası ilə bağlı dəyirmi masa təşkil etdiyinizə görə minnətdarlığımızı bildiririk. Müəllimlərin sertifikasiyasını önəmli və çağdaş təhsil islahatı saymaq olar. Bu il ölkəmizdə 3-cü dəfə sertifikasiya həyata keçiriləcək. Etiraf edim ki, birinci il bütün müəllimlərdə ilk şans olduğu üçün ciddi rezonans doğurmadı. İkinci ildə əvvəlki mərhələdən keçməyənlərə yenidən şans verildi. Keçən il göstəricisi zəif olan 743 müəllimin əmək müqaviləsinə xitam verildi. Bu il 2023-cü ildə uğur qazanmayan, təxminən, 8 mindən çox müəllimə yenidən şans veriləcək. Başa düşülməlidir ki, bu islahat gələcəyimiz üçün atılan addımdır. Burada heç bir mənfi məqam yoxdur.

Hansı valideyn istəyər ki, onun övladına biliyi, təcrübəsi zəif olan müəllimlər dərs desin? Sözsüz ki, uğur qazanmayan müəllimlər arasında müəyyən narazılıqlar olur. Buna görə də ictimaiyyətin, ziyalıların, medianın, təhsil ekspertlərinin dəstəyinə ehtiyacımız var. Bu baxımdan "Xalq qəzeti"ndə təşkil edilən bu dəyirmi masanı əhəmiyyətli hesab edirik.

Qeyd edim ki, Elm və Təhsil Nazirliyi işinə xitam verdiyi 743 müəllimin yerinə, təxminən, 200-ə yaxın kadr götürüb. Digər dərs saatları isə səriştəsi yüksək, lakin dərs saatı az olan müəllimlərə verilib. Nazirlik bu prosesdə sosial cəhətdən həssas ailələri diqqətdə saxlayır, həmin müəllimlərə yetərincə imkanlar yaradır. Belə ki, işinə xitam verilmiş 743 müəllimin təxminən 150-si sosial həssas qrupdan idi. Onlar məktəblərdə digər işlə təmin edililər. Keçən il sertifikasiyada uğur qazanmayan 8 minədək müəllimin də sosial vəziyyəti təhlil edilib. Məqsəd kimlərisə işdən azad etmək deyil. Yeni pedaqoji fəaliyyətinə xitam verilmiş müəllimlər başqa işlərə cəlb edilir.

Sertifikasiyanın növbəti mərhələsində, 5 il tamamlanandan sonra qiymətləndirmə meyarları da dəyişə bilər. Məsələn, müəllimin dərslərini izləmək, şagirdlərlə işləmə bacarığını yoxlamaq kimi yeniliklər edilə bilər.

**Vəfa Yaqublu,**
**Elm və Təhsil Nazirliyinin Məktəbəqədər və ümumi təhsil siyasəti şöbəsinin müdiri:**

– İlk növbədə sertifikasiyanın tarixindən söz açmaq istərdim. Sertifikasiyadan danışanda, daha çox 2022-ci ildən söz düşür, lakin bu proses 2013-cü ildə qəbul edilmiş "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"na əsaslanır. Strategiyanın



bir istiqaməti də təhsilverənlərin keyfiyyət göstəricilərinin artırılmasıdır. Bu da təhsil sisteminin qarşısına ciddi vəzifələr qoyur. Belə ki, 2014-cü ilin əvvəllərindən başlayaraq, təhsil sistemində təhsilverənlərin keyfiyyət göstəricilərinin ölçülməsi istiqamətində müxtəlif tədbirlər görüldü, mərhələli şəkildə müəllimlərin diaqnostik qiymətləndirilməsi aparıldı. Diaqnostik qiymətləndirmələr göstərdi ki, müəllimlərin bəlli bir hissəsi tədris etdiyi fənni bilmir. İlk atılan addım o oldu ki, kütləvi şəkildə bütün ixtisasartırma təlimlərinin məzmunu dəyişdirildi, aşağı nəticə göstərmiş müəllimlərə öz fənni yenidən öyrədildi. Adətən müəllim ixtisasartırma kursuna qatılanda ona şagirdlərlə işləmə metodları, İKT-dən istifadə qaydaları, fəndəki yeniliklər öyrədilir. Reallıq bizi məcbur etdi ki, 2015-ci ildə ixtisasartırma təlimlərinə ayrılmış büdcəni tamamilə fənnin öyrədilməsinə yönəldək. 120 akademik saatlıq proqramlar hazırlandı və ölkənin bütün regionlarında kurslar təşkil edildi. Amma o mərhələdə heç bir müəllim işdən uzaqlaşdırılmadı. Əksinə, Azərbaycan Respublikası Prezidentinin 16 yanvar 2015-ci il tarixli 994 nömrəli Sərəncamına əsasən bilik və bacarıqlarının diaqnostik qiymətləndirilməsi aparılan yaxşı nəticə göstərmiş müəllimlərin həftəlik dərs yükü norması 1,5 dəfə, aylıq vəzifə maaşları isə orta hesabla 2 dəfə artırıldı.

Növbəti addım isə sertifikasiya oldu. 2018-ci ildə müəllimlərin sertifikatlaşdırılması anlayışı təhsil qanunvericiliyinə əlavə edildi. Sertifikatlaşdırmanın keçirilməsi ilə bağlı müvafiq qərarlar qəbul edildi. Deyərdim ki, təhsilverənlərin peşəkarlığının yüksəldilməsi baxımından bu proses zəruri idi. 2022-ci ildə ibtidai sinif müəllimləri Azərbaycanın 4 regionunda sertifikatlaşdırma prosesinə cəlb edildilər. Test imtahanında seçilmiş suallar, verilmiş tapşırıqların mürəkkəblik səviyyəsinin optimal olması həmişə diqqətdə saxlanılıb. 2022-ci ildə başladığımız prosesi 2026-cı ildə tam şəkildə başa çatdırmalıyıq. Elm və təhsil naziri Emin Əmrullayev də dəfələrlə bildirib ki, biz şagirdlərimizin, gələcəyimizin naminə bu işləri yüksək səviyyədə görməliyik. Fənnini bilməyən şəxsin müəllim kimi işləməsinə göz yummaq uşaqlarımızın gələcəyini təhlükəyə atmaq deməkdir. Bizim işimiz şagirdin mənafeyini qorumaqdır. Və biz ilk növbədə şagirdin mənafeyi baxımından çıxış edirik.

Savad səviyyəsi aşağı olan müəllimlərin məktəblərdə dərs deməsinin səbəbi ni 20–30 il bundan əvvəldə axtarmalıyıq. O dövr keçid dövrü idi, ölkədə quruculuq işləri yeni aparılırdı, qismən nəzarətsizlik var idi. Bu, bütün ölkələrdə belədir – keçid dövründə ictimai sahələrdə talatümlər olur. O zaman məktəbə rüşvət, qohumbazlıq və ya sadəcə "əl tutmaq" çətiri altında daxil olan təsadüfi şəxslər müəllim imicini korladı. Bu gün isə artıq 10 ildir ki, müəllim işə imtahan verərək qəbul edilir. Müəllimlərin işə qəbulu imtahanından keçmiş müəllimlərimizin sertifikasiya nəticələri 20–30 il əvvəl işə götürülmüş müəllimlərin nəticələrindən yüksəkdir.

Bir daha qeyd edək ki, savadsız adamların bir hissəsi himayədarlıqla təhsil sahəsinə gəlibsə, digər hissəsi sosial dəstək göstərilməsinin nəticəsidir. Məsələn, o zamanlar öz yurd-yuvasından məcburi köçkün düşmüş müəllimləri işlə təmin etmək lazım idi. Nəticədə, lazım olandan xeyli çox sayda müəllim işə götürülmüşdü. Məsələn, bizdə məktəblər var ki, cəmi 4 ibtidai sinif komplekti var, lakin orada 12 müəllim çalışır. Halbuki, 4 sinfə 4 müəllim dərs keçməlidir. 4 müəllim dərs deyəndə normal maaş ala bilir. Amma misal çəkdiyim halda 4 müəllimin maaşı 12 yerə bölünür ki, bu da cüzi məbləğ edir və müəllimin rifahı təmin olunmur. Bizdə elə məktəblər var ki, 5 şagirdə 8 müəllim dərs deyir. Burada yüksək nəticə də olmur. Sual yaranır, biz hansı müəllimi saxlayaq? – Əlbəttə, bilikli, səriştəli olanı. Bu da sertifikasiyanı zəruri edir. İşlərinə xitam verilən müəllimləri işə müəllimlərin işə qəbulu müsabiqəsində yüksək bal toplayan müəllimlər əvəz edəcək. Yenə də təkrar edirəm, burada qazancımız uşaqların bilikli, bacarıqlı olmasıdır.

**Muxtar Hacıyev,**
**Təhsil İnstitutunun İnsan resursları mərkəzinin şöbə müdiri:**



– 2022-ci ildən etibarən təşkil olunan sertifikatlaşdırma prosesinə pedaqoji stajı 3 il olan müəllimlər cəlb olunurlar. Belə ki, hər il prosesə cəlb olunacaq fənlər elan olunur. Bir sıra təhsilverənlər isə hələlik sertifikatlaşdırmadan keçmirlər. Onlara hamilə qadınlar, uşağının 3 yaşınadək sosial məzuniyyətdə olan və həmin məzuniyyət bitdikdən sonra 1 ildən az müddətdə müvafiq vəzifədə (peşədə) çalışan qadınlar (uşağını təkbaşına böyüdən kişilər), ilk dəfə işə qəbul olub 3 ildən az müddətdə pedaqoji fəaliyyətlə məşğul olanlar və azı 3 dəfə sertifikatlaşdırmadan keçmiş müəllimlər aiddir.

Bundan başqa, "Ümumi təhsil haqqında" Azərbaycan Respublikasının Qanununda edilmiş dəyişikliyə əsasən, pedaqoji staj üzrə tələb 5 ildən 3 ilə endirilmiş, eyni zamanda 60 və daha yuxarı yaşda olan təhsilverənlərin sertifikatlaşdırma prosesində iştirakı könüllüdür. Sertifikasiyaya cəlb edilməyən bu kontingentin maaşlarına artım tətbiq edilmir.

Bu il prosesə ilk dəfə cəlb olunacaq müəllimlər üçün sertifikatlaşdırma prosesinin test imtahanı mərhələsi 21, 22 və 24 iyun tarixlərində elektron qaydada təşkil olunacaq. İmtahan vaxtı və məkanı barədə məlumat 15 mayda müəllimlərin şəxsi kabinetlərinə göndərilib. Sertifikatlaşdırma prosesində ibtidai sinif, Azərbaycan dili və ədəbiyyatı, riyaziyyat və xarici dil (ingilis dili, rus dili, Azərbaycan dili (rus bölməsi), alman dili, rus dili və ədəbiyyatı (rus bölməsi), fransız dili ) fənlərini tədris edən, pedaqoji stajı 3 il olan 24 000-dən çox müəllim iştirak edəcək. Prosesi uğurla tamamlayan təhsilverənlərin sertifikatlarının elektron formada təqdim edilməsi ilə bağlı işlər görülür.

Sertifikatlaşdırma 2 mərhələdən (test və müsahibə mərhələsi) ibarət olmaqla keçirilir. Test mərhələsi kompüterdə elektron qaydada həyata keçirilir. Bu mərhələyə 120 dəqiqə vaxt ayrılır. Test mərhələsində hər bir suala düzgün cavab "1" balla qiymətləndirilir. Səhv cavablar və ya sualın cavabsız qoyulması "0" bala bərabər tutulur və düzgün cavablara təsir göstərmir. Sertifikatlaşdırmanın test mərhələsinin nəticələri üzrə balların hesablanması avtomatlaşdırılmış rejimdə proqram təminatı vasitəsilə həyata keçirilir. Təhsilverənin nəticələri test mərhələsi başa çatdıqdan dərhal sonra elan edilir. Sertifikatlaşdırmanın test mərhələsində azı 30 bal toplamış təhsilverənlər sertifikatlaşdırmanın müsahibə mərhələsinə buraxılırlar.

Müsahibə mərhələsi meyarlar əsasında maksimum 40 balla qiymətləndirilir. Bu meyarlara proqram üzrə mövzunu təqdimetmə, təhsilalanları qiymətləndirmə, özünü təqdimetmə, pedaqoji prosesi təşkiletmə və ünsiyyət bacarıqları daxildir. Hər bir meyar 4 ballıq şkala əsasında ölçülür. Sertifikatlaşdırmanın müsahibə mərhələsində azı 20 bal toplamış təhsilverənlər həmin mərhələdən keçmiş hesab edilirlər.

Bunlarla yanaşı, üzrlü səbəblərdən sertifikatlaşdırmada iştirak etməyən və ya test imtahanı mərhələsindən keçməyən şəxslərin 1 il müddətində iş yeri saxlanılmaqla, prosesdə təkrar sertifikatlaşdırmada iştirak etmək hüququ var. Test mərhələsində uğur qazanmayan müəllimlər test imtahanına, müsahibədən keçməyənlər isə birbaşa müsahibə mərhələsinə dəvət olunurlar. Ötən il prosesdə uğur qazana bilməyən müəllimlər cari ilin 8 iyununda təkrar sertifikatlaşdırmaya cəlb olunacaqlar.

Naxçıvanda bu il ilk dəfə mərkəzləşdirilmiş qaydada sertifikatlaşdırma prosesi təşkil olunacaq və prosesə pedaqoji təcrübələrinin 3 ili bu il tamam olmuş müəllimlər cəlb ediləcəklər. Qanunvericiliyin tələblərinə müvafiq olaraq, 1 ay öncədən təkrar sertifikatlaşdırmanın imtahan tarixi və məkanı barədə məlumat müəllimlərin şəxsi kabinetlərinə göndərilib.

Sevindirici haldır ki, müəllimlərin işə qəbulu üzrə müsabiqə vasitəsilə əmək fəaliyyətinə başlayan müəllimlərin hamısı sertifikatlaşdırmada uğur qazanıb. Bu, bir daha müəllimlərin işə qəbulu prosesinin təhsil sistemimiz üçün uğurlu yanaşma olduğunu göstərir.

Azərbaycan Respublikasının Təhsil İnstitutu təhsilverənlərin sertifikatlaşdırılması prosesinə müəllimlərin hazırlığına dəstək göstərmək və məlumatların əlçatanlığını təmin etmək məqsədilə nümunə suallar, video materiallar və qiymətləndirmə çərçivəsi tərtib edib. Eyni zamanda, Təhsil İnstitutunun sertifikatlaşdırma prosesində uğur qazanmayan müəllimlər üçün təşkil etdiyi təlimlər və dəstəkləyici vebinarlarda mövzular fənn və tədris metodikasını əhatə edir.

Sertifikatlaşdırma differensiallaşmış əməkhaqqı sisteminin tətbiqinə uyğun əməkhaqqı artımına və sosial rifahın yüksəlməsinə imkan yaradır. Sertifikatlaşdırmadan keçmiş 31 min 947 təhsilverənin vəzifə maaşına artım tətbiq olunub. Təkrar sertifikatlaşdırma prosesində, deyildiyi kimi, ümumilikdə, 743 nəfər uğur qazanmayıb və həmin təhsilverənlərlə bağlanmış əmək müqavilələrinə xitam verilib.

**Böyükağa Mikayıllı,**
**təhsil eksperti, "Məktəbəqədər və ibtidai təhsil" jurnalının baş redaktoru:**

– Müəllimlərin sertifikasiyası prosesinin elmi-pedaqoji mətbuatda təhlil olunması, tədqiqatların, bu mövzu ilə bağlı elmi araşdırmaların aparılması vacib məsələlərdən biridir. Strategiya məhz tədqiqatlara əsasən formalaşır. Sertifikatlaşdırma prosesinin əsl mahiyyəti dərk olunmadan sosial şəbəkələrdə, bəzi saytlarda müzakirəyə çıxarılaraq ictimai fikirdə yanlış təsəvvürün formalaşmasına cəhd göstərilir. "Məktəbəqədər və ibtidai təhsil" jurnalının redaksiyası müəllimlərin



sertifikasiyasının elmi-nəzəri, metodoloji əsaslarını araşdırmaq məqsədilə tədqiqat qrupu yaradıb və aparılan araşdırmalardan biri jurnalda dərc olunub. Elmi əsaslı istənilən layihənin uğur qazanacağı şübhə doğurmur.

Sertifikasiya dünyada təhsil sistemlərinin inkişafına, müəllimlərin elmi-pedaqoji, nəzəri biliklərinin müasir dövrün tələbləri səviyyəsində formalaşmasına, onların metodiki ustalıqlarının inkişafına, eləcə də işçilərin sosial vəziyyətlərinin yaxşılaşmasına təkan verən proses kimi qəbul edilir. Məhz sertifikasiya nəticəsində təhsil idarəediciləri sistemin problemlərini müəyyənləşdirə və ondan çıxış yollarını aydınlaşdıra bilirlər. Çox yaxşı haldır ki, Azərbaycanda da bu tendensiya yaranmaqda, milli təhsil sisteminin sertifikasiya təcrübəsi formalaşmaqdadır. Bu proses dünyanın ayrı-ayrı ölkələrinin təhsil sistemlərində tətbiq edilir. Müəllimlərin sertifikasiyasının keçirilməsinə yanaşmalar fərqli olsa da, prosesin fəlsəfəsi, onun mahiyyəti hər yerdə eynidir. Məqsəd müəllimin peşəkar hazırlığını zamanın ruhuna uyğunlaşdırmaqdır.

Dövr sürətlə dəyişir və bu özü ilə bərabər, böyüyən nəslin düşüncəsində, dünyagörüşündə, həyata baxışlarında fərqli yanaşmalar meydana gətirir. Uşaqların informasiya almaq, ünsiyyət qurmaq imkanları getdikcə genişlənir. Bu, istər-istəməz yeni mədəniyyət, fərqli baxışlar sistemi yaradır. Müəllimin bu sistemdə özünü rahat hiss etməsi onun mütəmadi olaraq pedaqoji ustalığın təkmilləşdirməsinə bağlıdır. Sertifikasiya məhz bu prosesin nizamlanmasına dəstək verməklə, müəllimin nəzəri-pedaqoji-metodiki hazırlığını dövrün tələbləri səviyyəsində qurmasına yol açır. Bu proses pedaqoji ictimaiyyətin düşüncəsinə belə bir fikri diktə edir: peşəkar inkişaf davamlı mütaliəyə bağlıdır.

Müəllimlərin sertifikatlaşdırılması prosesi təhsil sistemləri üçün həmişə faydalı olub və müasir dövr bu aktuallığı daha da artırmaqdadır. Pedaqoji sahə insan kapitalını formalaşdırdığı, mənəvi, intellektual inkişafa zəmin yaratdığı üçün burada müsbət tendensiyaların izləmək olduqca vacibdir. Sertifikasiyanın yalnız müəllimlərin bilik və bacarıqlarının, onların pedaqoji hazırlıq səviyyələrinin yoxlanılması kimi dərk olunması doğru deyil. Çünki sertifikasiyanın pedaqoji-fəlsəfi əsasları daha dərin köklərə malikdir. Bu proses pedaqoji kadr hazırlığından başlayır və müəllimlik fəaliyyətinin bütün dövrlərini əhatə edir.

Sertifikasiya konseptual olaraq, müəllimin pedaqoji ustalığını artırmasının vacibliyinin dərkinə yol açır, təhsilverən üçün mütaliə vərdişləri sistemə çevrilir. Dövrü olaraq keçirilməsi nəzərdə tutulan proses müəllimi sistemli özünütəkmilləşməyə hazırlayır. Nəticə etibarilə onun pedaqoji ustalığı və bununla bərabər, işinin səmərəsi yüksəlir. Bu, eyni zamanda, maraq və həvəs yaradır. Müəllimin yüksək marağı və təşəbbüskarlığı tədris prosesinin keyfiyyətinə yol açan ən mühüm amildir.

(ardı 9-cu səhifədə)

# Məqsəd yüksək səriştəli müəllimləri üzə çıxarmaqdır

(əvvəli 8-ci səhifədə)

Sertifikasiya nəticələrinin müəllimlərin əmək haqqına təsiri də bu baxımdan müstəsna əhəmiyyətə malikdir. Müşahidələr onu deməyə əsas verir ki, Azərbaycanda müəllimlərin peşəkarlıq səviyyəsi artan dinamika üzrə inkişaf edir. Şübhə yoxdur ki, bunun təməlində bir tərəfdən müəllimlərin işə qəbulu prosesinin yeni qaydalar üzrə aparılması, digər tərəfdən isə müəllimlərin sertifikatlaşdırmanın yaratdığı pedaqoji-psixoloji atmosfer dayanır. Təhsil sistemində dərk olunur ki, şagirdlərin uğurlarının əsası savadlı müəllim amilinə söykənir. Bilikli müəllim hər kəsin – valideynin, məktəbin, şagirdin, ümumilikdə, cəmiyyətin arzuladığı şəxsdir. Belə bir müəllimin formalaşması isə peşəkar özünütəkmilləşdirmədən, sistemli mütaliədən, işini səmərəsini artırmaq üçün aparılan araşdırmalardan, tədris metodlarını mütəmadi olaraq yeniləmək imkanlarından, ardıcıl olaraq təcrübə mübadilələrində iştirak etməkdən keçir. Sertifikasiya sisteminin tətbiqi müəllimi bu proseslərə fəal qoşulmağa hazırlayır.

**Müşfiq Ələsgərli,**
**Azərbaycan Mətbuat Şurası İdarə Heyyətinin üzvü:**



– Hesab edirəm ki, hazırkı dövrdə sertifikasiya imtahanlarının keçirilməsinə ehtiyac var. Nəzərə alsaq ki, illər öncə təhsilimizdə baş verən səbəblər nəticəsində bəzi məktəblərimizdə müəyyən xoşagəlməz vəziyyətlər yaranıb. Ona görə də hazırda Elm və Təhsil Nazirliyi bu məsələdən çıxış yolunu sertifikasiyada görür və bu proses davam edir. Müəllimlərin sertifikasiyaya cəlb edilməsi onların bilik və bacarıqlarını artırmasını zəruri edir. Hazırda gözləntilərimizin ikinci tərəfi müəllimlərimizin öz üzərlərində işləməsi, özləri ni inkişaf etdirmələridir. Çox təəssüflər olsun ki, hətta nazirlik yeni dərslikləri çap edəndə belə, bəzi müəllimlər həmin vəsaitləri oxumurdu. Dərs prosesində ümumi, köhnə bilikləri əsasında iştirak edirdilər. Sertifikasiya müəllimlərimizin bilik və bacarıqlarını artıracaq. Onların tədris etdiyi dərsdə də keyfiyyət artımı görəcəyik. Müəllimlər öz üzərlərində işləyirlər. Bütün müəllimlər hazırlaşırlar, kitab oxuyurlar. Bu yerdə mənim nazirliyin nümayəndələrini sualım var:

**– Məktəbəqədər təhsil müəssisələrində çalışan müəllim-tərbiyəçilərin də sertifikatlaşdırmaya cəlb edilməsi gözlənilirmi?**

**Səbuhi Rzayev:**

– Növbəti illərdə məktəbəqədər təhsil müəssisələrində çalışan müəllim-tərbiyəçilərin də sertifikatlaşdırmaya cəlb ediləcəklər. Bununla bağlı müvafiq qərarlar da qəbul edilib. Bu il bağçalarda ilkin diaqnostik qiymətləndirmə olacaq. Bu göstəricisi zəif olan müəllimlərin işdən çıxarılmasına əsas verməyəcək.

**Rizvan Fikrətoğlu,**
**"Xalq qəzeti"nin əməkdaşı:**



**– Məktəbəqədər təhsil müəssisələri əvvəllər yerli icra hakimiyyətlərinin tabeliyində olanda buraya müəllim-tərbiyəçi kimi qəbul edilən şəxslərin bir qisminin ya müvafiq təhsili yox idi, ya da başqa bir ixtisası var idi. Belə müəllimlər sertifikasiyaya cəlb ediləcəklərmi? Ümumiyyətlə, elə müəllimlərin tədrisdə qalması düzgündürmü?**

**Muxtar Hacıyev:**

– Qeyd edildiyi kimi, ilk növbədə, diaqnostik qiymətləndirmə olacaq, daha sonra sertifikasiya keçiriləcək. Diaqnostik qiymətləndirmə məktəbəqədər təhsil müəssisələrində çalışan müəllimlərin hansı səviyyədə olmasını göstərəcək. İxtisası başqa olan müəllimləri də sertifikasiyaya buraxıb onlara şans yaradacağıq. Onlar o müəllimlər olacaq ki, uzun müddətdir çalışırlar. Bizim şərtləri ödəyəcəklərsə, uğur qazanacaqlarsa, işləyəcəklər. Həm də müəllim qəbulunda o dövrün tələbləri də başqa idi. Bir daha nəzərə alaq ki, sertifikasiyanın məqsədi müəllimləri tədrisdən kənarlaşdırmaq deyil, daha savadlı kadrları işə cəlb etməkdir.

**Rizvan Fikrətoğlu:**

**– Dəyirmi masada müəllimlərin sertifikasiya prosesindən danışıldı, təhlillər aparıldı. Amma nəticələrə, keyfiyyət göstəricilərinə toxunulmadı. Maraqlıdır, sertifikasiyada uğur qazanmış müəllimlərin şagirdlərinin nəticələri hansı səviyyədədir? Sinifdən-sinifə keçid və tələbə qəbulu imtahanlarının nəticələrini nəzərdə tuturuq.**

**Vəfa Yaqublu:**

– Şagirdlərin 4-cü sinif nəticələrinə görə ölkə üzrə rayonların, məktəblərin reytinqini çıxarırıq. Cari ildə 6-cı sinif şagirdlərinin nailiyyətlərini ölçmək üçün monitorinqlər aparılıb. Eyni zamanda, buraxılış siniflərinin nəticələrini Dövlət İmtahan Mərkəzinin təşkil etdiyi imtahanlardan sonra görə bilirik. Təəssüf ki, biz burada yalnız Azərbaycan dili, riyaziyyat və xarici dil olmaqla 3 fənnin nəticəsini görə bilirik. Söhbət konkret olaraq, sertifikasiyadan keçmiş müəllimlərin şagirdlərinin nəticələrindən gedirsə, biz onu tam təhlil edə bilmirik. Çünki sertifikasiya cəmi 2 ildir keçirilir.

**Rizvan Fikrətoğlu:**

**– Növbəti sual müəllimlərin maaş məsələsi ilə bağlıdır. Mövcud qaydalara görə, 30-50 arası bal toplayan müəllimlərin maaşı 10, 51-60 bal üzrə toplayan isə 35 faiz artırılır. 30-50 aralığında 20 bal fərqi var. 30 suala cavab vermiş müəllimlə, sualların 83,3 faizini düz cavab yazmış müəllim arasında maaş hesablanarkən niyə fərq qoyulmur? Məsələn, 31-35 bal toplayan müəllimlərin maaşı 10 faiz, 36-40 bal toplayanların 15 faiz, 41-48 bal toplayanların 25 faiz, 49-54 bal toplayanların 30 faiz, 55-60 bal toplayanların maaşı isə 35 faiz artırıla bilməzmi?**

**Muxtar Hacıyev:**

– Biz, hansısa yarışma keçirmirik, müəllimin səriştəsini, biliyini qiymətləndiririk. Müəllimlərin maaşının artırılması isə stimullaşdırıcı tədbir sayılır. Yəni 30 balı keçirsə, maaşına 10 faiz əlavə gəlir. Başqa bir təbəqə var ki, yüksək nəticə göstərir. Biz bu yüksək nəticəni 51-60 bal aralığında müəyyən edirik ki, həmin müəllimlərin də maaşına 35 faiz əlavə pul hesablanır. Bu məsələ isə müvafiq qanunlarla, qərarlarla təsdiqlənib, öz əksini tapıb.

**Səbuhi Rzayev:**

– Bilirik ki, Dövlət İmtahan Mərkəzinin keçirdiyi ali məktəblərə qəbul imtahanında müəyyən say var ki, o şəxslərə Prezident təqaüdü verilir. 51-60 bal arası nəticə göstərən müəllimlərin maaşına əlavə edilən 35 faiz artım da belə qiymətləndirmədir. Yarışma dili ilə desək, buna top 5-lik, top 10-luq deyilir.

**Rizvan Fikrətoğlu:**

**– Məktəb direktorları və onların müavinlərinin sertifikasiyası ilə bağlı hansı yeniliklər var?**

**Muxtar Hacıyev:**

– Son əlavədə göstərilir ki, sertifikasiyaya rəhbər heyət yox, pedaqoji heyət cəlb olunacaq. Əgər rəhbər heyət həm də dərs keçirsə, o fəndən sertifikasiyaya cəlb ediləcək.

**Hazırladı: Rizvan FİKRƏTOĞLU,**
**Elşən AĞALAR (foto)**
**XQ**

# Erməni xalqı revanşistlərə "qırmızı kart" göstərdi

**Ermənistanın radikal müxalifətinin uzun müddətdir böyük hay-küylə anons etməsinə, vətəndaşları aktiv iştiraka çağırmasına baxmayaraq, mayın 26-da keçirilən mitinq gözlənildiyi kimi, çox sönük keçdi. Əlbəttə, bunun da obyektiv səbəbləri var. Məsələ ondadır ki, 2020-ci ildə baş tutan İkinci Qarabağ müharibəsində ağır məğlubiyyətə düçar olan, böyük itki verən erməni xalqı o günləri bir daha yaşamaq istəmir.**

Onlar başa düşürlər ki, erməni apostol kilsəsinin Tavuş yeparxiyasının rəhbəri, arxiyepiskop Baqrat Qalstanyan, onun "Vətən naminə Tavuş" hərəkatı aysberqin görünən tərəfidir. Görünməyən tərəfdə isə hayların bəlalarının baiskarları – Robert Koçaryan, Serj Sarkisyan, Seyran Ohanyan, Qarabağdan getmiş Vitali Balasanyan, "Daşnaksütyun" partiyasının ali şurasının sədri İşxan Saqatelyan, "Şərəfim var" blokunun lideri Artur Vanetsyan və digər revanşistlər gizləniblər. Xalq onu da başa düşür ki, Baqrat bu böyük oyunda ortalığa atılmış "peşka"dır.

Aydın bilinir ki, əgər revanşistlər Nikol Paşinyanı devirməyə müvəffəq olsaydılar, Baqrat keçid dövrü üçün, uzağı bir il müddətinə baş nazir olacaqdı. Bundan sonra yeni parlament seçki keçiriləcək və sabiqlərin bir nümayəndəsi yeni baş nazir olacaq. Ondan sonra baş verənlər isə erməni xalqının qorxulu yuxusudur.



Haylar onu da başa düşürlər ki, revanşistlər hakimiyyətə gələsi olsalar, Azərbaycana yeni müharibə açqılmaz olacaq. Bu zaman isə müharibəyə rəvac verən revanşistlər yox, sadə xalq qurbanlar verəcək. Eyni zamanda, erməni xalqı getdikcə Qarabağda vaxtilə baş verənlərin etnik separatizm, Azərbaycana qarşı apardıqları müharibənin isə işğalçılıq müharibəsi olduğunu, bundan əlavə, daha 8 kəndimizi zəbt etdiklərini anlayırlar. Başa düşürlər ki, bunlar Azərbaycanın bərpa əraziləridir. Anlayırlar ki, Azərbaycanın heç bir qonşusuna, o cümlədən Ermənistana ərazi iddiası olmayıb və yoxdur.

Ölkəmizin Zəngəzur dəhlizini açmaq üçün, guya, Ermənistanın cənubuna hücum edəcəyi barədə yayılan məlumatların da zaman keçdikcə feyk olduğu öz təsdiqini tapdı. Ermənilər onu da anlayırlar ki, delimitasiya və demarkasiyanın aparılması ilk növbədə iki ölkə arasında qarşılıqlı etimadın yaranmasına, həmçinin, sülh müqaviləsinin imzalanmasına da töhfə verər, hayların təhlükəsizlik şəraitdə yaşamalarına səbəb olar. Onu da başa düşürlər ki, nə azərbaycanlılar, nə də ermənilər bu bölgədən heç hara köçüb gedəsi deyil. Gec-tez dil tapıb birgəyaşayış qaydalarını öyrənmək lazımdır. Yalnız sülh müqaviləsinin imzalanması, qarşılıqlı əməkdaşlıq, gediş-gəlişin, beləliklə ticarətin bərpa olunması bölgənin sabitlik və əmin-amanlıq adasına çevrilməsinə, eyni zamanda erməni xalqının iqtisadi qazanc əldə etməsinə, sosial rifah halının yüksəlməsinə gətirib çıxara bilər. Bütün bunlara görə erməni xalqı radikal müxalifətə, revanşistlərə, daşnaklara və keçmişin qalığı olan digər ünsürlərə "yox!" deyir. Mayın 26-da keçirilən mitinq bunun daha bir göstəricisi oldu.

Mitinqin özünə gəldikdə isə qeyd etmək lazımdır ki, əvvəlcə gənclərin İrəvan küçələrində yürüşü olub, daha sonra onlar Respublika meydanına gəliblər. Aksiyaya rəhbərliyi yenə B.Qalstanyan edib. Əsas şüar isə dəyişməz qalıb: Baş nazir Paşinyan istefa verməlidir!

Çıxış edən arxiyepiskop hərəkatın sonuncu – üçüncü mərhələyə çatdığını bildirib. Onun sözlərinə görə, onların müvəqqəti baş nazirliyə namizədi üç əsas məqama əməl etməlidir:

– Partiya və ya qrup maraqlarından üstün olmaq, ədalətə əsaslanan ictimai birliyi təşviq etmək;

– mövcud vəziyyətin "dondurulması" ilə xarici siyasət. O, Azərbaycanla real danışıqlara başlamalıdır. Bu danışıqlar güc tətbiqi olmadığı və ya "məhbuslarin" (Azərbaycanda saxlanılan separatçıların "qlavarları" nəzərdə tutulur–S.H.) Bakıdan qaytarılması şəraitində (?) baş tutmalıdır. Baş nazirliyə namizəd Azərbaycan silahlı qüvvələrinin Ermənistan ərazisindən çıxarılmasını (?) təmin etməli, delimitasiya prosesinə zəminlər cəlb olunmaqla aydın xəritələr əsasında sülh müqaviləsi bağlandıqdan sonra başlanmalı;

– gələcək seçkilərdə şəxsi iştirak iddiası olmadan növbədənkənar seçkilər keçirməlidir.

Bundan sonra şounun ən "yaddaqalan" məqamı yaşanıb. B.Qalstanyanın baş nazir postuna namizədliyi irəli sürülüb. Bunu "Vətən naminə Tavuş" hərəkatının rəhbərlərindən olan şərqşünas Qurgen Melikyan bəyan edib.

Namizədliyi irəli sürdükdən sonra Qalstanyan iştirakçılara minnət qoyaraq, bu vəzifəni tutmağa can atmadığını, lakin mübarizənin buna apardığını bildirib. "Mən heç vaxt məsuliyyətdən yayınmağa çalışmamışam. Namizədliyimlə bağlı geniş dairələrin gözləntilərini nəzərə alaraq, mən bütün ermənilərin katolikosu ilə bunu müzakirə etdim və qərara gəldik ki, xidmətimi və baş nazirliyimi birləşdirə bilmərəm" – deyə Qalstanyan bildirib. Bu səbəbdən o, katolikosdan onun 30 illik dini xidmətini dondurmağı xahiş edib.

Arxiyepiskop əlavə edib ki, onun ikili vətəndaşlığı var və bu, məhdudiyyətləri nəzərdə tutur: "Buna uyğun olaraq, biz qanunların tələblərinə uyğun və hüquqi sahənin bütün imkanları çərçivəsində fəaliyyət göstərəcəyik". Baqrat mitinqdən sonra ölkənin baş naziri ilə görüşməyi planlaşdırdığını da söyləyib.

Erməni apostol kilsəsinin dünən yaydığı məlumatda isə bildirilib ki, B.Qalstanyan bütün ermənilərin katolikosuna müraciət edərək onun mənəvi xidmətini dayandırmağı xahiş edib. Qeyd edilib ki, "srbazan"ın müraciəti ana taxtda müzakirə edilib. Onun yepiskop ordeninin qorunub saxlanılması, kilsə və inzibati xidmətinin isə dayandırılması qərara alınıb.

Dünən isə etirazçılar yenə İrəvan küçələrində itaətsizlik aksiyası keçirməyə, yolları bağlamağa cəhd göstəriblər. Polis isə aksiya iştirakçılarını saxlayıb və bu zaman gücdən istifadə edib. Ümumilikdə, aksiyada saxlanılanların sayı 284 nəfərə çatıb. Bildirilib ki, onlarin 273 nəfəri cərimə olunaraq azadlığa buraxılıb. 11 nəfərin işinə isə məhkəmədə inzibati qaydada baxılır. Ermənistanın Daxili İşlər Nazirliyi paytaxt küçələrində nəqliyyatın hərəkətinin bərpa edildiyini də açıqlayıb.

Mayın 27-də "Armenian Report" saytında yerləşdirilmiş "Həyasız manipulyasiya: İnsanlar hər şeyi xatırlayır, görür və bilir" sərlövhəli analitik məqalədə deyilir ki, dünyanın istənilən demokratik ölkəsində istənilən prezidentə, baş nazirə qarşı tənqidlər ola bilər və hətta olmalıdır: "Onları tənqid etmək olar və edilməlidir ki, bu tənqid əsasında düzgün nəticələr çıxarılsın. Bu da son nəticədə konkret problem sahəsində vəziyyətin yaxşılaşmasına gətirib çıxarmalıdır. Amma tənqid təhqirə, daha çox primitiv manipulyasiyaya çevrilməməlidir. Təəssüf ki, biz bu gün özlərini Ermənistanın bəlkə də ən mühüm vətənpərvərləri elan etmiş siyasi qüvvələrdən məhz bunu görürük. Bəli, söhbət indiki hakimiyyətə qarşı mübarizənin üçüncü, sonuncu mərhələsinə qədəm qoyduğunu Respublika meydanında yüksək səslə elan edən "Vətən naminə Tavuş" hərəkatından gedir. Bu, yəqin ki, hərəkatın sonu olacaq".

Qeyd edilir ki, qarşı tərəf başqa cür düşünür: "Onlara elə gəlir ki, bizim insanların yaddaşı dayazdır, realliğı dərk etmək səviyyəsi aşağıdır. Bəli, dəqiq belədir. Əks-təqdirdə Robert Koçaryan və Serj Sarkisyan heç vaxt açıq şəkildə və ya mümkün qədər gizli şəkildə böyük siyasətə qayıtmağa cəhd etməzdilər. Amma onlar Baqrat Qalstanyanı qoç kimi qabağa itələyərək başqa cür davranmağa qərar verdilər".

Müəllif Qalust Qriqoryan yazır ki, Baqrat bazar günü ruhani statusunun onun üçün nə qədər vacib olub-olmadığını göstərdi. Bildirilir ki, həmin gün qarşımızda adi bir karyeraçı peyda oldu, məqsədinə çatmaq naminə hansı paltar geyinməsinin onun üçün heç bir əhəmiyyəti yoxdur. O, hər kəsin gördüyü kimi, baş nazir postunu tutmaq ümidilə dini inancından əl çəkməyə hazırdır. Ancaq onun rəhbərlik etdiyi hərəkat respublikanın keçmiş başçıları kimi uğursuzluğa məhkumdur.

Yazıda o da bildirilib ki, Ermənistanın xaricində və daxilində respublikanın qanuni seçilmiş baş nazirini öldürmək istəyən qüvvələr də var. Qeyd edilib ki, bu, onların son cəhdi ola bilər. Sabiq rəhbərlərin keçmişindən xəbərdar olan və bəzi xarici qüvvələrin hadisələrin bu cür inkişafında maraqlı olduğunu başa düşən ölkə vətəndaşlarının böyük qismi bunu aydın dərk edir.

***Səxavət HƏMİD***
***XQ***

## Dünyadan gələn sorağımız

# Mərkəzi Asiyanın məşhur azərbaycanlıları

**Daşkəndin "Renessans press" nəşriyyatı tədqiqatçı jurnalist, "Xalq qəzeti"nin Orta Asiya üzrə müxbiri Qulu Kəngərlinin 2 il əvvəl nəşr etdiyi "Keçmiş unudulmayanda tarixə dönür" adlı elmi-publisistik kitabını böyük maraq və tələbatı nəzərə alıb nəfis tərtibatla yenidən Azərbaycan və özbək dillərində təkrar çap edib.**




Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti, akademik İsa Həbibbəylinin "Ön söz" yazdığı oçerk və məqalələr toplusunu özbək dilinə xalqımızın dostu, tanınmış jurnalist və tərcüməçi Rüstəm Cabbarov çevirib. 700 səhifəlik kitabın Azərbaycan variantının redaktoru Təranə Kazımovadır, özbək versiyasının isə dosent Gülnaz Səttarova və Şəhla Qasımova redaktə ediblər.

Kitabın birinci hissəsi "Taleyi Mərkəzi Asiya ilə bağlı olan tanınmış Azərbaycan türkləri" adlanır. Burada qardaş türk ölkələrində yaşamış və indi həmin ölkələrdə sakin olan tanınmış azərbaycanlılar haqqında söhbət açılır, onların həyatı və fəaliyyəti işıqlandırılır. Bu silsilədə bizə bəlli olan soydaşlarımızla yanaşı, tanımadığımız, haqqında eşitmədiyimiz adlar da var.

Səmərqənd şəhərində yaşayan, sonra İndoneziyaya gedərək orada İslamı yaymış Mövlana Malik İbrahim, Azərbaycandan gəlib ömrünü Buxara fəlsəfi mühitinə bağlamış Mövlana Yusif Qarabağı, böyük filosof Mirzəcan Şirazi, tacik mətbuatının Zərdabisi, Buxarada çap edilən ilk tacikdilli "Buxarai Şərif" qəzetinin naşiri və redaktoru Mirzə Cəlal Yusifzadə, Səmərqənddə doğulmuş, Fransada məşhurlaşmış bəstəkar Əminulla Hüseynov (Andre Osseyn), onun oğlu, məşhur fransız aktyoru və rejissoru Rüstəm Hüseynov (Rober Osseyn), Pakistanın azərbaycanlı prezidenti, Qızılbaş nəslindən olan Ağa Məhəmməd Yəhya Xan Qızılbaş və digərləri haqqında oçerk və araşdırmalar bu ünlü soydaşlarımızı çağdaş oxuculara tanıdır.

İkinci hissə isə "Günahsız günahkarlar" adlanır. Bu bölmədə Orta Asiyaya sürgün olunmuş azərbaycanlılar haqqında söhbət açılır. Yazılarda həyatın amansızlığına sinə gərərək yüksəlmiş, Özbəkistan, Qazaxıstan, Qırğızıstan və Tacikistanda yüksək vəzifələr tutmuş soydaşlarımızın acılı-şirinli taleyindən bəhs edilir. Vətən xainləri damğası vurulmuş insanların arvadlarının Akmola və Kapaqanda düşərgələrinə sürgün edilmiş günahsız qadın soydaşlarımızın məhrumiyyətləri, bu sıradan məşhur Rəfibəylilər nəslinin Qazaxıstana sürgün edilmiş nümayəndələrinin çəkdikləri müsibətlər barədə yazılar kitabın tarixi mənbə kimi dəyərini artırır.

Tanınmış yazıçı, özbək ədəbiyyatının klassikinə çevrilmiş Maqsud Şeyxzadə, ictimai-siyasi xadim Əli Yusif Yusifzadə, Azərbaycanın və Qazaxıstanın böyük ictimai-siyasi xadimi Əhməd bəy Pepinov, Səmərqənddə ömrünün sonunadək sürgün həyatı yaşamış Qara bəy Qarabəyli, "Qürbətdə günəşi neylərəm" deyə fəryad edən Almas İldırım, Tacikistan KP MK-nın birinci katibi olmuş Mirzə Davud Hüseynov, bu ölkələrdə yüksək vəzifələrdə çalışmış Əliheydər Şirvani-Mustafabəyov və Daşkəndə sürgün edilmiş məşhur xanəndə Cahan Talışinskayanın bəlalı ömür yolu da bu bölmədə ətraflı işıqlandırılır.

Kitabın "Orta Asiyada teatrın yaranması" fəslində isə Özbəkistanda, Türkmənistanda və Tacikistanda milli səhnə sənətinin yaranmasında və inkişafında Azərbaycan rejissorlarının və aktyorlarının fəaliyyətindən danışılır.

***T.RÜSTƏMLİ***
***XQ***

# Heydər Əliyev və Azərbaycan Xalq Cümhuriyyəti irsinə ehtiram



**Müasir Azərbaycanın müstəqillik tarixi ümummilli lider Heydər Əliyev şəxsiyyəti ilə o qədər çulğaşmışdır ki, bu iki dəyəri bir-birindən ayrı təsəvvür etmək mümkün deyil. Parlaq şəxsiyyətin tükənməz siyasi irsini öyrəndikcə onun yeni-yeni məna çalarları üzə çıxır. Tarixə nəzər salaq. Sovetlər dönəmində heç kəsin cürət edib deyə bilmədiyi bir çox fikirləri məhz Heydər Əliyev söyləyirdi.**

Ulu öndər respublikaya ilk rəhbərliyi dövründə Bakı Dövlət Universitetinin 50 illik yubileyində çıxışı zamanı bu təhsil müəssisəsinin tarixinə toxunan zaman universitet yaradıcıları olan AXC qurucularının ünvanına gözəl fikirlər səsləndirdi: ***“Azərbaycan xalqının tarixində birinci ali məktəbin yubileyi elə bir hadisədir ki, onun ictimai əhəmiyyəti Azərbaycanın dövlət hüdudlarından çox-çox kənara çıxır. Bakıda universitet Azərbaycan xalqının həyatının ağır günlərində yaradılmışdır. Lakin bu gərgin vəziyyət universitet yaradılması uğrunda hərəkatın qarşısını ala bilməmişdi. Biz Azərbaycan xalqının bu və bir çox digər görkəmli oğullarına ona görə minnətdarıq ki, onlar zülmətli irtica və özbaşınalıq şəraitində Azərbaycan xalqının ictimai fikrinin, elm və mədəniyyətinin məşəlini göz bəbəyi kimi qorumuşlar”.***

Müstəqlllik ideyalarının carçısı olan Heydər Əliyev Azərbaycanın tarixi irsinə sevgi bəsləyirdi. O, hələ Naxçıvana rəhbərlik etdiyi, SSRİ-nin mövcud olduğu bir vaxtda ilk fürsətdə öz arzularını gerçəkləşdirdi. Təsadüfi deyil ki, müstəqil Azərbaycan Respublikasının dövlət quruculuğu prosesi Naxçıvandan başlandı. 17 noyabr 1990-cı il tarixində Heydər Əliyevin sədrliyi ilə keçirilən Naxçıvan Muxtar Sovet Sosialist Respublikası Ali Sovetinin sessiyasında böyük dövlət xadiminin təşəbbüsü ilə ilk dəfə Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağının Naxçıvan Muxtar Respublikasının Dövlət Bayrağı kimi qəbul olunması təklif edildi. Dahi şəxsiyyətin özünün işləyib hazırladığı və Ali Məclisdə yekdilliklə qəbul olunan "Naxçıvan Muxtar Respublikasının dövlət rəmzləri haqqında" tarixi qərarda deyilirdi:

1. İlk Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli dövlət bayrağı Naxçıvan Muxtar Respublikasının Dövlət Bayrağı kimi təsis edilsin.

2. Naxçıvan Muxtar Respublikasının digər dövlət rəmzi – Dövlət himni və gerbi haqqında məsələ öyrənilib Naxçıvan Muxtar Respublikası Ali Məclisinin müzakirəsinə verilsin.

3. Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli dövlət bayrağının bütövlükdə Azərbaycan SSR-in dövlət rəmzi kimi təsis edilməsi məsələsi qanunvericilik təşəbbüsü qaydasında Azərbaycan SSR Ali Sovetindən xahiş edilsin.

Ulu öndər çıxışlarının birində milli dövlətçilik şüurunun formalaşması kontekstində tarixi məsələlərə öz konseptual baxışını belə ifadə edir: "Bizim xalqımızın böyük, möhtəşəm tarixi var. Biz öz tariximizlə fəxr edə bilərik. Bizim xalqımızın böyük dövlətçilik tarixi olubdur. Ən qədim dövrlərdən Azərbaycan torpağında əzəmətli dövlətlər olmuşdur. Orta əsrlər Azərbaycan dövlətçiliyi tariximizə gözəl nümunələr vermişdir. Şirvanşahlar dövləti, Atabəylər dövləti, Ağqoyunlular dövləti, Qaraqoyunlular dövləti, Səfəvilər dövləti – bunlar hamısı Azərbaycan xalqının dövlətçiliyinin tarixidir. Ondan sonra Azərbaycanda olan xanlıqlar da dövlətçilik xarakteri daşımışdır. XX əsrin əvvəlində, 1918-ci ildə ilk Azərbaycan Demokratik Respublikası yaranmışdır. Ondan sonrakı dövr, 1920-ci ildən 1991-ci ilə qədər olan dövr Azərbaycanın həyatında xüsusi bir dövr olmuşdur. Azərbaycan müstəqil dövlət olmamışdır, ancaq Azərbaycan xalqı böyük bir inkişaf dövrü keçmişdir. Beləliklə, Azərbaycan torpağında ən qədim zamanlardan indiyə qədər müstəqil dövlətlər olmuşdur. Biz bununla fəxr edirik və fəxr edə bilərik".

Heydər Əliyev müstəqilliyin ali məqsədi kimi milli-mədəni və mənəvi dəyərlərin bərpa olunmasına, xalqımızın özünü dərk etməsinə, öz mənliyinin sahibi olmasına fədakarlıqla, vətəndaş hünəri ilə çalışırdı. O, yalnız siyasi və iqtisadi deyil, həm də mədəni-mənəvi istiqlal uğrunda da əzmkar mübarizə aparırdı.

Heydər Əliyevin parlamentdəki ilk çıxışını araşdırdıqca müstəqilliyə münasibətdə əsrin əvvəlində mövcud olmuş kəskin fikir ayrılıqları diqqətimizi cəlb edir. Hələ Azərbaycanın Zaqafqaziya seymində olduğu bir vaxtda bir qrup şəxs Azərbaycanın müstəqil ola bilməyəcəyi, nicatımızın yalnız Rusiyada olduğunu səsləndirirdi. Lakin M.Ə.Rəsulzadə, Ə.M.Topçubaşov, F.X.Xoyski, N.Yusifbəyli isə Azərbaycanın müstəqilliyinə çalışır və bu ideyanı təbliğ edirdilər. Hələ 1917-ci ildə Bakıda Müsəlmanların birinci qurultayında çıxış edən Nəsib bəy Yüsifbəyli deyirdi: "Kim deyə bilər ki, biz özümüzü idarəetmə səlahiyyətində bir millət deyilik?!"

Bu tarixi nailiyyəti yüksək qiymətləndirən Heydər Əliyev qeyd edirdi: "XIX əsrdən başlanan mürəkkəb ictimai-siyasi proseslərin gedişi Azərbaycan cəmiyyətində əsaslı dəyişikliklərə gətirib çıxardı, yeni mühitdə formalaşan görkəmli ictimai və siyasi xadimlərimiz əsrin çağırış və tələblərinə layiqincə cavab verməyə qadir oldular. Azərbaycan Xalq Cümhuriyyətinin qurulması üçün münbit zəmin yarandı".

Heydər Əliyevin 22 fevral 1998-ci il tarixili sərəncamı ilə Azərbaycan Xalq Cümhuriyyətinin 80 illik yubileyi üzrə dövlət komissiyasının tədbirlər planı təsdiq edilmişdir.

Tədbirlər planında Azərbaycan Xalq Cümhuriyyəti irsinin yaşadılması fəaliyyət növünə görə aşağıdakı kimi qruplaşdırılmışdır:

1) Cümhuriyyət irsinin öyrənilməsi.
2) Cümhuriyyət irsinin təbliği.
3) Gələcək nəsillərə çatdırılması.

Sonradan biz cənab İlham Əliyevin fəaliyyətində Azərbaycan Xalq Cümhuriyyəti irsinə hörmətin ifadəsini gördük. Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyasının çap edilməsini, Cümhuriyyət generalları Əliağa Şıxlinski və Səməd bəy Mehmandarovun, Cümhuriyyət ideoloqları M.Ə.Rəsulzadənin, Əli bəy Hüseynzadənin və Əhməd bəy Ağaoğlunun yubileylərinin keçirilməsi barədə sərəncamları nümunə gətirmək olar.

Azərbaycan Xalq Cümhuriyyətinin banilərindən biri, Azərbaycan Milli Şurasının sədri Məhəmməd Əmin Rəsulzadənin 130 illik yubileyinin dövlət səviyyəsində keçirilməsi ilə bağlı verdiyi sərəncama görə, görkəmli dövlət xadiminin nəvəsi Əməkdar rəssam Rəis Rəsulzadə Prezident İlham Əliyevə göndərdiyi təşəkkür məktubunu da Cümhuriyyət tarixinin bir parçası hesab etmək olar. Məktubda deyilir:

"Hörmətli cənab Prezident!

Azərbaycan Xalq Cümhuriyyətinin banisi, Azərbaycan Milli Şurasının sədri Məhəmməd Əmin Rəsulzadənin anadan olmasının 130 illik yubileyinin dövlət səviyyəsində keçirilməsi ilə bağlı verdiyiniz sərəncama görə Sizə dərin minnətdarlığımı bildirirəm. Sərəncam bütün Azərbaycan xalqının sevincinə səbəb oldu. Bu, Sizin mənəviyyatımıza, mədəniyyətimizə, tarixi-dövlətçilik ənənələrimizə, istiqlal ideyalarına verdiyiniz bir töhfədir.

1994-cü ildə ümummilli lider Heydər Əliyev tərəfindən M.Ə.Rəsulzadənin 110 illik yubileyi ilə əlaqədar sərəncam verilmişdi. Yenidən belə bir sərəncam imzalanması sevindiricidir. Bu, Xalq Cümhuriyyətinin banilərinə verilən layiqli qiymətdir.

Azərbaycan Xalq Cümhuriyyəti dövründə yaradılan respublika bu gün müstəqil dövlət kimi dünya miqyasında öz layiqli yerini tutmuşdur.

Qüdrətli Azərbaycan dövləti quruculuğunda istiqlal ideyalarına sadiq olduğunuz üçün, ali dövləti fəaliyyətinizdə, xalqımızın və dövlətimizin gələcək inkişafı naminə apardığınız siyasətdə Sizə uğurlar, möhkəm cansağlığı, doğma Azərbaycanımızın daha da qüdrətlənməsində yeni nailiyyətlər arzulayıram".

Azərbaycanın siyasi irsinə münasibətdə Prezident İlham Əliyev tarixi şüura söykənir. Dövlətimizin başçısı Azərbaycanın dövlətçilik ənənələrini yüksək qiymətləndirir. Bildirir ki, Azərbaycan Xalq Cümhuriyyəti fəaliyyəti dövründə xalqın milli mənlik şüurunu özünə qaytardı, onun öz müqəddəratını təyin etməyə qadir olduğunu nümayiş etdirdi. AXC mürəkkəb şəraitdə üzərinə götürdüyü çətin tarixi vəzifəni şərəflə yerinə yetirdi. Azərbaycanın ilk parlamenti və hökuməti, dövlət aparatı təşkil edildi, ölkənin sərhədləri müəyyənləşdirildi, bayrağı, himni və gerbi yaradıldı, ana dili dövlət dili elan edildi, ordu quruculuğu sahəsində ciddi tədbirlər həyata keçirildi, maarifin və mədəniyyətin inkişafına xüsusi diqqət yetirildi. Azərbaycanın ilk universiteti təsis olundu, təhsil milliləşdirildi, xalqın sonrakı illərdə mədəni yüksəlişi üçün zəmin hazırlayan, ictimai fikir tarixi baxımından müstəsna əhəmiyyətli işlər görüldü.

21 sentyabr 1993-cü il tarixdə Prezident səlahiyyətlərini həyata keçirən Ali Sovetin Sədri Heydər Əliyev Azərbaycan Elmlər Akademiyasında ziyalılarla görüşdə demişdir: "Azərbaycanda 1918-ci ildə ilk demokratik respublika yaradıldı. Bu, şübhəsiz ki, tarixi bir hadisədir. Azərbaycanın müstəqilliyi uğrunda son dövrlərdə gedən proseslərlə həm mətbuatda, həm də ictimai-siyasi proseslərdə ilk Azərbaycan Demokratik Respublikası böyük bir nailiyyət kimi qeyd olunub və onun gördüyü işlər yüksək qiymətləndirilibdir. Bu, təbii bir haldır, tariximizin böyük və parlaq bir mərhələsidir. Bu mərhələni biz layiqincə qiymətləndirməliyik və mən də bu gün sizin qarşınızda bunu bildirmək istəyirəm. Bəli, 1918-ci il may ayının 28-də Azərbaycan Demokratik Respublikasının yaranması Azərbaycan tarixində böyük siyasi-ictimai hadisədir. Belə bir demokratik dövlətin mövcud olması və müəyyən qədər fəaliyyət göstərməsi Azərbaycanın sonrakı dövrlərinə təsir edibdir.”

Sonra isə Heydər Əliyev tarixşünaslıq qarşısında yeni vəzifələr müəyyən edərək bildirir: "Tarixçilərimizin borcudur ki, bu qüsuru aradan götürsünlər. Ancaq biz deməliyik ki, demokratik respublika, onun liderləri Məhəmməd Əmin Rəsulzadə, Fətəli xan Xoyski, Nəsib bəy Yusifbəyov, Məmmədhəsən Hacınski və başqaları çox böyük işlər görüblər. Onlar Azərbaycanı müstəqil bir dövlət kimi dünyanın bir qisminə tanıtdılar, bir neçə tədbir gördülər. Eyni zamanda, onların fəaliyyətinin, ümumiyyətlə, uğursuzluğu təkcə ondan ibarət deyil ki, Azərbaycan 20-ci il aprel ayının 28-də Qızıl ordu tərəfindən işğal olundu. Hələ həmin işğala qədər bu demokratik dövlət, demək olar, öz süqutuna gəlib çatmışdı. Tarixçilər yaxşı bilirlər ki, 23 ay ərzində bu dövlətin tərkibi beş dəfə dəyişib, bu dövlətdə, bu parlamentdə beş partiya iştirak edib: Müsavat Partiyası, İttihad Partiyası, Əhrar Partiyası, Sosialist Partiyası, hətta "Daşnaksütyun" partiyası. Bu parlament sistemi dövlətin yaşamasına imkan vermədi və ayrı-ayrı qruplar, partiyalar arasında gedən çəkişmələr, çarpışmalar, intriqalar özü-özlüyündə bu dövlətin adına ləkə vurdu. Mən bunu nə üçün deyirəm? Ona görə ki, biz bundan ibrət dərsi almalıyıq. Biz o dövrü, o demokratik hökumətin fəaliyyətini qiymətləndiririksə və belə bir mərhələnin tariximizdə olması ilə fəxr ediriksə, həmin proseslərin qüsurlarını da bilməliyik ki, o səhvləri daha buraxmayaq".

Tarixi təcrübə göstərir ki, hər bir xalqın hansısa əlverişli situasiyada milli-etnik soykökünə qayıdışı əsasən lider fenomeninin fövqəladə missiyası ilə şərtlənir. XX əsrdə Azərbaycan xalqının yetirdiyi nadir şəxsiyyət olan Heydər Əliyev də Azərbaycan Xalq Cümhuriyyətinin süqutundan sonra siyasi reallıqdan çıxıb ideya formasında, azərbaycanlıların istiqlal duyğularında qığılcım kimi közərən milli dövlətçilik düşüncəsini ötən əsrin 70-ci illərinin əvvəllərindən başlamaqla əsrin sonlarına doğru müstəqil Azərbaycan dövləti kimi əzəmətli reallığa qovuşdurmuş, böyük fədakarlıqlar hesabına qurub-yaratdığı dövlətin sarsılmazlığını, demokratik yüksəlişini, müstəqilliyinin əbədiliyini, daimiliyini, dönməzliyini təmin etmişdir.

Müzəffər Ali Baş Komandan İlham Əliyev isə bu müstəqilliyin gələcək nəsillərə ötürülməsi üçün daha böyük tarixi missiyanı yerinə yetirmişdir. Tarixi varislik məsələlərinə daima həssaslıqla yanaşan Prezident İlham Əliyev tarixi və siaysi baxımdan mühüm əhəmiyyət daşıyan 15 oktyabr 2021-ci il tarixində Müstəqillik Günü haqqında Azərbaycan Respublikasının Qanununu təsdiq etmişdir.

Xalqımızın müstəllik savaşının ən uca zirvəsi Azərbaycanın ərazi bütövlüyünün suverenliyinin tam bərpa edilməsidir ki, bunun da şəriksiz lideri möhtərəm Prezidentimiz, müzəffər Ali Baş Komandan İlham Əliyevdir. Bölgədəki yeni reallıqlar Azərbaycan xalqının tarixi torpaqları olan Qərbi Azərbaycan qayıdış üçün münbit şərait yaradır. Bu mənada məhz Heydər Əliyevin irəli sürdüyü tarixi varislik konsepsiyası bizim bu platformada perspektivlərimiz gücləndirən ən güclü amilə çevrilir. 1918-ci ildə mövcud olmuş Azərbaycan Xalq Cümhuriyyətinin varisi kimi biz tarixi torpaqlarımıza qayıtmaq hüququmuzu özümüzdə saxlayırıq. Azərbaycan xalqının bu istəyini Prezident İlham Əliyev özünəməxsus formada dəyərləndirərək erməniləri yersiz yerə təşviş keçirməməyi tövsiyə edərək deyir: ***“Bizim başqa ölkələrin torpağında gözümüz yoxdur, ancaq öz torpağımızı biz heç kimə verən də deyilik!”.*** Müstəqliyimiz dönməz və əbədi olsun! Tanrı Azərbaycanı qorusun!

***Sadiq QURBANOV,***
***Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri***

# Bölgələrdə Müstəqillik Günü təntənəsi



## Gəncə

**28 May Müstəqillik Günü münasibətilə Gəncədə “dəyirmi masa” təşkil olunub. Gəncə Şəhər İcra Hakimiyyəti, Elm və Təhsil Nazirliyi və Azərbaycan Milli Elmlər Akademiyası Gəncə Bölməsinin birgə təşkil etdiyi toplantıda Rusiya imperiyasının süquta uğratdığı dövlətçiliyimizin bərpa edilməsində Azərbaycan Xalq Cümhuriyyətinin tarixi rolu diqqət mərkəzində olub.**

AMEA Gəncə Bölməsində keçirilən məclisdə bölmənin sədri, akademik Fuad Əliyev 1918-ci ildə Şərqdə ilk demokratik dövlət olan Azərbaycan Xalq Cümhuriyyətinin yaranması tarixindən qaynaqlanan 28 May Müstəqillik Gününün yaxın keçmişimizin ən şərəfli səhifələrindən olduğunu bildirib. O, ümummilli lider Heydər Əliyevin milli dövlətçilik yaddaşımızın yaşadılmasında və istiqlaliyyətimizin əldə olunması uğrunda mübarizədə müstəsna xidmətlərini vurğulayıb.

“Dəyirmi masada Ulu öndərin AXC-nin tarixi təcrübəsinin öyrənilməsinə və ondan lazımi nəticələr çıxarılmasına, Xalq Cümhuriyyəti irsinin yaşadılmasına xüsusi diqqət verdiyi qeyd edilib. Müzakirələrdə Prezident İlham Əliyevin suverenliyimizin və ərazi bütövlüyümüzün tam və qəti şəkildə bərqərar edilməsi yönündə tarixi vəzifəni uğurla gerçəkləşdirdiyi vurğulanıb. Bildirilib ki, bununla AXC-nin Vətən əmanətinə indiki nəsillərin sədaqəti təsdiq olunub, dünya miqyasında Azərbaycanın güc və nüfuzu yüksəlib. Bütün bunlar AMEA Gəncə Bölməsinin apardığı tədqiqatlarda geniş yer tutur. Cümhuriyyətin Gəncə səhifələri və bu şəhərdən olan xadimləri haqqında xeyli sayda monoqrafiya və digər elmi ədəbiyyat çap edilib.

Gəncə Şəhər İcra Hakimiyyətinin məsul işçisi Sənubər Qocayeva 28 May Müstəqillik Gününə həsr edilmiş məclisi Gəncə alim və tədqiqatçılarının tariximizin öyrənilməsinə daha bir töhfəsi kimi dəyərləndirib. Sonra bölmənin əməkdaşları Samirə Qasımova, Nərgiz Rəsulova, Zakir Muradov, Təranə Verdiyeva, Aynur Mirişli, Vüsalə Hüseynova, Sənubər Abdinova, Adilxan Ziyadxanov, Fatimə Qurbanova və başqaları AXC tarixi ilə bağlı müxtəlif mövzularda məruzələrlə çıxış ediblər.

## Mingəçevir

**28 May Müstəqillik Günü münasibətilə “Nur şəhəri”ndə silsilə tədbirlər keçirilir.**



Şəhər icra hakimiyyəti və YAP şəhər təşkilatı birgə elmi-nəzəri konfrans şanlı tarixə nəzər salmaq baxımından önəmli olub. Əvvəlcə müstəqil Azərbaycanın memarı və qurucusu Heydər Əliyevin abidəsi önünə gül dəstələri qoyulub. Dahi şəxsiyyətin adını daşıyan Mərkəzdə dövlət müstəqilliyimizə həsr olunmuş sərgiyə baxış keçirilib. Ardınca “Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının tarixi nailiyyətidir” mövzusunda film nümayiş etdirilib.

Elmi-nəzəri konfransı Mingəçevir Şəhər İcra Hakimiyyətinin başçısı İlham İsmayılov açaraq tariximizin dövlətçilik salnaməsində özünəməxsus yeri olan Azərbaycan Xalq Cümhuriyyətinin



yaranmasının XX əsrin əvvəllərində dünyada gedən ictimai-siyasi proseslərin bir hissəsi kimi böyük tarixi hadisə olduğunu qeyd edib. Ötən əsrin sonlarında müstəqilliyimizin yenidən bərpasından iftixarla söz açan natiq bunun heç də asan olmadığını vurğulayıb. 1993-cü ilin iyun ayında xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdan Heydər Əliyev xilaskarlıq missiyasını müdrikliklə, dəmir iradə ilə, qətiyyət və böyük uzaqgörənliklə yerinə yetirdiyi konkret faktlarla xatırlanıb. Heydər Əliyev siyasi kursunun layiqli davamçısı – müzəffər Ali Baş Komandan İlham Əliyevin xalq və dövlət qarşısında misilsiz xidmətləri xüsusi qeyd olunub.

Konfransda YAP Mingəçevir şəhər təşkilatının sədri Bəxtiyar Mustafayev “Heydər Əliyevin Azərbaycanda siyasi hakimiyyətə gəlişi müstəqilliyə gedən yolun başlanğıcıdır”, Mingəçevir Dövlət Universitetinin baş müəllimi Aygün Qədirova “Ulu öndər Heydər Əliyevin dövlətçilik fəaliyyəti müstəqilliyimizin bərpasına xidmət etmişdir”, Mingəçevir Turizm Kollecinin tarix müəllimi Nuridə Zülfüqarova “Azərbaycanda dövlət müstəqilliyinin dönməz və əbədi olması Ulu öndərin adı və fəaliyyəti ilə bağlıdır”, Mingəçevir Tibb Kollecinin müəllimi Kəmalə Hüseynova “Müasir müstəqil Azərbaycanın uğurları ulu öndər Heydər Əliyevin məqsədyönlü siyasətinin davamıdır” mövzularında məruzələrlə çıxış ediblər.

## Masallı

**Cənub bölgəsinin ən böyük rayonlarından olan Masallıdada Lənkəran-Astara regionu üzrə 28 May Müstəqillik Gününə həsr olunmuş spartakiadaya start verilib.**

Açılış mərasimində Masallı Rayon İcra Hakimiyyətinin başçısı Araz Əhmədov, Lənkəran–Astara Regional Gənclər və İdman İdarəsinin rəisi cənab Teymur Babazadə, YAP Masallı Rayon Təşkilatının sədri Seyfəddin Əliyev və digər qonaqlar iştrak ediblər. Dövlətimizin idmana, idmançılara göstərdiyi hərtərəfli diqqət və qayğıdan söz açılıb, idmanın maddi-texniki bazasının genişləndirilməsi üzrə tədbirlər, komandalarımızın beynəlxalq yarışlarda qazaqndıqları qələbələr diqqətə çatdırılıb. Spartakiadanın iştirakçılarına uğurlar arzulanıb.

İdmançıların paradından sonra, Cəlilabad rayonunun “Aslanlar” kontakt-karate klubunun üzvlərinin nümnəvi çıxışları olub. Mərasimdə Masallı Mədəniyyət Mərkəzinin “Halay” rəqs qrupu öz gözəl rəqsləri ilə çıxış ediblər.

Sonra yarışlar keçirilib. Voleybol, minifutbol, atletika, stolüstü tennis və həndbol üzrə gərgin mübarizədə ən güclülər qalib gəliblər. Fərqlənən komanda və idmançılar Lənkəran–Astara Regional Gənclər və İdman İdarəsinin kubok, medal və diplomları ilə təltif olunublar.



## Cəlilabad

**Qədim Həməşərə düzündəki şəhərdə, Heydər Əliyev Mərkəzində 28 May Müstəqillik Gününə həsr olunmuş “Dəyirmi masa” təşkil edilib.**

Rayon icra hakimiyyətinin başçısı Rafiq Cəlilov iştirakçıları Respublika günü münasibəti ilə təbrik edib, hər kəsə müstəqil Azərbaycanın çiçəklənməsi naminə işlərində uğurlar diləyib. Azərbaycan Xalq Cümhuriyyətinin yaranması tarixi keçmişimizin şanlı səhifələrindən biri kimi qiymətləndirilib.

Ölkəmiz yenidən müstəqillik əldə etdikdən sonra, 1991–93-cü illərdə mövcud olan xaos və anarxiya nəticəsində müstəqilliyimizi itirmək təhlükəsi ilə baş-başa qaldığı dövrdə ümummilli lider Heydər Əliyevin dövlət quruculuğu sahəsindəki misilsiz xidmətləri sayəsində müstəqil Azərbaycan Respublikasının Azərbaycan Xalq Cümhuriyyətinin taleyini yaşamadığı və müstəqillik yolunda dönmədən, inamla irəlilədiyi vurğulanıb. Bu gün Ulu öndərin layiqli davamçısı möhtərəm Prezidentimiz İlham Əliyevin rəhbərliyi altında Azərbaycanın dünyada qabaqcıl mövqe tutduğu qeyd edilib.

Müstəqillik Günü haqqında videoçarx nümayiş etdirildikdən sonra YAP Cəlilabad Rayon Təşkilatının sədri Mirsüleyman Mirxaslı, Cəlilabad Rayon İcra Hakimiyyəti yanında İctimai Şuranın sədri Nadir Babayev, Ocaqlı kənd 1 nömrəli tam orta məktəbinin müəllimi, Vətən müharibəsi iştirakçısı Firuz Mehtiyev və rayon gənclər və idman sektorunun əməkdaşı Salamat Nəcəfov çıxış edərək 28 May Gününün Azərbaycan xalqının milli oyanışında oynadığı roldan danışıblar.

***Ə.ƏLİYEV,***
***H.QASIMOV,***
***İ.HƏSƏNOV***
***XQ***

*1918-ci ildə, may ayında Azərbaycanda, müsəlman aləmində ilk demokratik respublika – Azərbaycan Xalq Cümhuriyyəti yarandı. Azərbaycan xalqının həyatında böyük hadisə baş verdi. Xalqımız, millətimiz müstəqillik, sərbəstlik iradəsini dünyaya nümayiş etdirdi. Azərbaycan Xalq Cümhuriyyəti özünün qısa ömürlük dövründə dəyərli fəaliyyət göstərmişdir və Azərbaycan xalqının müstəqil olmaq iradəsini nümayiş etdirmişdir. Biz bu gün Azərbaycan Xalq Cümhuriyyətinin fəaliyyətini, onun qurucuları Məhəmməd Əmin Rəsulzadənin, Əlimərdan bəy Topçubaşovun, Fətəli xan Xoyskinin, Nəsib bəy Yusifbəylinin, Həsən bəy Ağayevin və digərlərinin xidmətlərini böyük minnətdarlıq hissi ilə qeyd edirik.*

***Heydər ƏLİYEV,***
***Ümummilli lider***

Milli öyünc qaynağı

# İstiqlal mücahidlərinin məzarları da milli məfkurə ocaqlarıdır

**Yazının manşetinə çıxardığımız sözləri Ulu öndər 1996-cı il martın 9-da Tbilisinin məşhur Nəbatət bağında Azərbaycan Xalq Cümhuriyyətinin qurucularından biri olan Fətəli xan Xoyskinin qəbirüstü büstünün təntənəli açılışı zamanı söyləyib. Gürcüstan Prezidenti Eduard Şevardnadzenin də iştirak etdiyi həmin tədbirdə Heydər Əliyev demişdir: "Mən heç şübhə etmirəm ki, bu yer, bu gözəl guşə, Azərbaycanın görkəmli övladlarının, şəxsiyyətlərinin qəbirləri, xalqımız üçün, o cümlədən gürcü qardaşlarımız üçün ibadətgah olacaqdır. Həm Gürcüstanda yaşayan azərbaycanlılar, həm də Gürcüstana qonaq gələn azərbaycanlılar buranı daim ziyarət edəcəklər və bu yer Gürcüstan ilə Azərbaycan arasında olan dostluq, qardaşlıq əlaqələrinin daim rəmzi olacaqdır."**



Yadımdadır, Ulu öndərin Gürcüstan səfərindən bir neçə gün sonra o vaxtlar Şəmkir Rayon İcra Hakimiyyətinin başçısı işləyən Aslan Aslanov deyirdi ki, "Heydər Əliyev o tədbirdə sevincini, qürur hissini açıq-aşkar büruzə verirdi. Açılışdan sonra bizə dedi ki, müstəqilliyimiz uğrunda canından, qanından keçən oğullarımızı bir an belə unutmamalı, onların xatirələrini əbədiləşdirmək üçün dünyanın harasında dəfn olunmasından asılı olmayaraq, məzarlarını vaxtaşırı ziyarət etməli, yenidən, daha nəfis şəkildə bərpa olunması, həmin ölkələrdə adlarını daha yaxşı tanıtmaq üçün əlimizdən gələni etməliyik".

1918-ci il may ayının 28-də Gəncədə öz müstəqilliyini elan edən Azərbaycan Demokratik Respublikasının mərd, amalı xalqın xoşbəxt, firavan, heç bir dövlətdən asılı olmadan ölkə qurmaq arzusu olan oğulların parlaq xatirəsi düz 106 ildir ki, xalqın qəlbində əbədi yaşayır. Onların çoxunu sovet hakimiyyəti erməni daşnakçılarının əlləri ilə məhv elədi, çoxu terrorların qurbanı oldu, digərlərini pərən-pərən saldı...İndi Gürcüstanda, Türkiyədə, Fransada, Almaniyada və digər bir çox ölkələrdə onların qəbirləri var, büstləri, heykəlləri, abidələri ucaldılıb. Ulu öndərdən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin bu məsələyə xüsusi diqqət yetirməsi, azadlıq mücahidlərinin xatirəsinin əbədiləşdirilməsi və təbliğ olunması üçün ardıcıl iş aparılır.

Bəs, kimdir onlar, ağrılı-acılı tale onları haralara aparıb, əbədi məkanları hansı ölkələrin payına düşüb? Çoxdur onlar və təbii ki, bir yazıda hamısı haqqında danışmaq da mümkün deyil. Amma yaxşı olar ki, Ulu öndərin yazının əvvəlində qeyd etdiyimiz tədbirdə söylədiyi "Biz bu gün Azərbaycan Xalq Cümhuriyyətinin fəaliyyətini, onun qurucuları Məhəmməd Əmin Rəsulzadənin, Əlimərdan bəy Topçubaşovun, Fətəli xan Xoyskinin, Nəsib bəy Yusifbəylinin, Həsən bəy Ağayevin və digərlərinin xidmətlərini böyük minnətdarlıq hissi ilə qeyd edirik" cümləsini əsas götürərək bu bayram günündə onların timsalında canlarından keçən və qəriblik həyatı yaşayanları yad edək...

Məhəmməd Əmin Rəsulzadənin keçdiyi keşməkeşli həyat yolu haqqında geniş söhbət açmağa, zənnimizcə, ehtiyac yoxdur. Çünki Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Məhəmməd Əmin Rəsulzadənin anadan olmasının 140 illiyi haqqında" imzaladığı sərəncamda adı müstəqillik tariximizə iri hərflərlə yazılmış şəxsiyyət haqqında fikirlər çox dəqiq ifadə olunub: "Məhəmməd Əmin Rəsulzadə XX əsrin ilk onilliklərində böhranlı geosiyasi şəraitdə Azərbaycanda müstəqillik idealının gerçəkləşdirilməsi və milli dövlət quruluşunun dirçəldilməsi yolunda böyük xidmətlər göstərmiş şəxsiyyətlərdəndir. Onun istiqlal məfkurəsi öz mənbəyini doğma xalqının çoxəsrlik yaddaşında kök salmış milli azadlıq düşüncəsindən alırdı. Məhəmməd Əmin Rəsulzadənin dövrün salnaməsinə çevrilən parlaq publisistik, siyasi, ədəbi-tənqidi və elmi irsi Azərbaycanın ictimai fikir tarixində xüsusi yer tutur. Uzun illər ərzində mühacirətdə də o, müstəqil Azərbaycan arzusu ilə yaşamış və mübarizə aparmışdır".




1920-ci ilin aprel ayında AXC-nin süqutundan sonra Rəsulzadənin göstərişi ilə Bakıda "Müsavat"ın gizli mərkəzi yaradılır və o, 1920-ci ilin avqustunda həbs olunur. Stalinin göstərişi ilə Rəsulzadə həbsdən azad edilərək, Moskvaya aparılır. Daha sonra o, gizli yolla Finlandiyaya keçərək Türkiyəyə mühacirət edir. Türkiyədə olan zaman "Müsavat" partiyasının xarici bürosunu yaradır. Ömrünün sonuna kimi Azərbaycanın müstəqilliyinin bərpa olunması uğrunda mübarizə aparan Məhəmməd Əmin Rəsulzadə 1955-ci il martın 6-da Türkiyənin Ankara şəhərində vəfat edib, oradakı Cəbəci Əsri qəbiristanlığında dəfn olunub.

Qeyd edək ki, Rəsulzadənin məzarının Azərbaycanın Türkiyədəki səfirliyi tərəfindən abadlaşdırılması istiqamətində kompleks işlər görülüb. Məzarın kompozisiyasında dəyişiklik edilmədən məzar kompleksinin üzlük daşları daha keyfiyyətli materialla əvəzlənib, solmuş yazılar və bayraq dirəkləri yenilənib, həmçinin məzara gedən yol təmir olunub.

1875-ci ildə Gəncədə anadan olan Həsən bəy Ağayev də maraqlı şəxsiyyətlərdən biri olmuşdur. Gəncə klassik gimnaziyasında təhsilini başa vurduqdan sonra 1901-ci ildə Hacı Zeynalabdin Tağıyevin pulu ilə Moskva Universitetinin tibb fakültəsində oxuyaraq oranı bitirmiş və Vətənə qayıdaraq həkimlik etmişdir. 1907-ci ildə Bakıda keçirilən Qafqaz Müsəlman Müəllimləri Qurultayı Mərkəzi Komitəsinin sədri seçilmişdir. "Difai" təşkilatının üzvü olmuşdur.

Monarxiyanın süqutundan cəmi bir neçə gün sonra Gəncədə, əvvəllər "Difai"ni yaratmış Gəncə Milli Komitəsinin aparıcı şəxsləri – Şəfi bəy Rüstəmbəyli, Xəlil bəy Xasməmmədov, Şeyxzamanlı qardaşları və başqaları ilə birgə Nəsib bəy Yusifbəylinin rəhbərliyi altında Azərbaycan tarixində keyfiyyətcə yeni, ilk dəfə olaraq Avropa mədəni dəyərlərinə istinad məramlı bir partiyanın – "Türk Ədəmi-mərkəziyyət firqəsi"nin əsasını qoymuşdur.

1918-ci il mayın 28-də Tiflisdə Azərbaycan Milli Şurasının iclasında İstiqlal Bəyannaməsi qəbul edilərkən Həsən bəy Ağayev Milli Şuranın sədri Məhəmməd Əmin Rəsulzadənin müavini olmuşdur və bu tarixi hadisədə birbaşa iştirak etmişdir. Maraqlıdır ki, Azərbaycanın müstəqilliyi haqqında İstiqlal bəyannaməsini ilk olaraq Həsən bəy Ağayev imzalamışdır. 1918-ci il iyunun 16-da Azərbaycan Milli Şurası və hökuməti Gəncəyə köçmüşdür. İyunun 17-də burada keçirilən ilk iclasında Milli Şura yaranmış vəziyyətlə əlaqədar olaraq fəaliyyətini müvəqqəti olaraq dayandırmış, bütün hakimiyyəti yeni yaradılmış hökumətə vermişdir.

O, dekabrda Parlament sədrinin müavini seçilmiş, sədr Əlimərdan bəy Topçubaşov Bakıda olmadığına görə, 2 fevral 1920-ciilədək sədr vəzifəsini icra etmişdir. Cümhuriyyətin süqutundan sonra Tiflisə getmişdir.

1920-ci ilin 19 iyulunda o da Tiflisdə Fətəli xan Xoyskini qətlə yetirən erməni muzdlu qatilin güllәsi ilə şəhid olmuşdur. Onun da məzarı Tbilisidə Fətəli xan Xoyskinin məzarı ilə yanaşıdır və yazının əvvəlində bu barədə söhbət açdıq.

Fətəli Xan Xoyski haqqında qısaca məlumat verək ki, o, Azərbaycan Xalq Cümhuriyyətinin ilk Baş naziri və daxili işlər naziri, Rusiya imperiyası II Dövlət Dumasının deputatı, Zaqafqaziya Komissarlığı nəzdində Xalq maarif komissarı, Zaqafqaziya Demokratik Federativ Respublikasının ədliyyə naziri, AXC-nin hərbi, ədliyyə və xarici işlər naziri olub. Xoyski 1875-ci il noyabrın 25-də Gəncə quberniyasının Nuxa qəzasında anadan olub. Fətəli xan Xoyskinin əsli Cənubi Azərbaycanın Xoy şəhərindəndir. Atası İsgəndər xan Şimali Azərbaycanın Şəki şəhərinə köçənlərdəndir. Xoy xanları nəslindən olan İsgəndər xan Rusiya təbəəliyini qəbul etmiş və ona çar ordusu general-leytenantı rütbəsi verilmişdir. Fətəli xan Xoyski Nuxa qəzasında dünyaya gəlsə də, onun dünyagörüşünü, gələcək ictimai-siyasi baxışlarını formalaşdıran Gəncə mühiti olmuşdur.

Ulu öndərin Tbilisidə Xoyskinin büstünün açılışında adını çəkdiyi digər tarixi şəxsiyyət Nəsib bəy Yusifbəylidir. vaxt xalqımızın tarixində ən mühüm hadisə baş verir – 1920-ci il yanvarın 11-də Azərbaycan Cümhuriyyəti Versal Sülh Konfransında böyük dövlətlər tərəfindən tanınır. Bu dövrdə Nəsib bəyin təklifi əsasında Bakı Dövlət Universiteti açılır, ali təhsil almaq üçün 100 nəfərə yaxın azərbaycanlı gənc Avropanın ali məktəblərinə göndərilir, müxtəlif adda dərsliklər nəşr edilir.

Amma maraqlıdır ki, Nəsib bəyin harada dəfn olunması bu günədək bilinmir. Bir neçə yazılı mənbədə onun 1920-ci il mayın 31-də yolda faciəli şəkildə qətlə yetirilməsi barədə məlumat verilsə də məzarının olub-olmaması barədə heç bir məlumat yoxdur. Yalnız Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyasının 2-ci cildində yazılır ki, "Bakının 11-ci Qırmızı ordu tərəfindən işğalından sonra təqibdən yaxa qurtarmaq məqsədilə şəhəri tərk edən Yusifbəyli yolda faciəli surətdə qətlə yetirildi". Vəssalam.

Nəhayət, Əlimərdan bəy Topçubaşov. O, 1934-cü il noyabrın 8- də Paris ətrafında vəfat etmişdir. Məzarı Sen Klu şəhər qəbirstanlığındadır. Onun dəfnində Məhəmməd Əmin Rəsulzadə və Rusiya imperiyasının dağılmasından sonra yaranan bütün respublikaların sürgündə olan hökumətlərinin nümayəndələri iştirak etmişlər. Onlar, o cümlədən Məhəmməd Əmin Rəsulzadə Topçubaşovun həyat və fəaliyyəti barədə çıxış edərək onun şəxsiyyətinə çox yüksək qiymət vermişlər.

Əlimərdan bəy Ələkbər bəy oğlu Topçubaşov – Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin sədri, Azərbaycan Xalq Cümhuriyyətinin Xarici işlər naziri, Çar Rusiyasında Birinci Dövlət Dumasının üzvü, Bakıda Müsəlman Milli Şurasının Müvəqqəti İcraiyyə Komitəsinin üzvü, Azərbaycanın görkəmli dövlət xadimi olub. Əlimərdan bəy Topçubaşov Gəncənin məşhur Qacarlar sülaləsindən olan Mirzə Cəfər Əlimərdan oğlu Topçubaşovun nəvəsidir.






Azərbaycan Xalq Cümhuriyyətinin Baş naziri, ilk maarif və dini etiqad naziri, daxili işlər naziri, görkəmli ictimai-siyasi və dövlət xadimi Nəsib bəy Yusifbəyli 5 iyul 1881-ci ildə Gəncədə tanınmış maarifpərvər ziyalı ailəsində dünyaya göz açmışdır. Tələbəlik illərində milli azadlıq hərəkatında fəal mübariz olan Nəsib bəy çar xəfiyyələri tərəfindən dəfələrlə təqiblərə məruz qaldığından 1906-cı ildə Krımın Bağçasaray şəhərinə mühacirət edir. Burada da çar hökumət orqanlarının təqiblərindən yaxa qurtara bilmir. 1908-ci ildə məcburiyyət altında İstanbul şəhərinə mühacirət edir. Bir müddət Türkiyədə də siyasi fəaliyyətlə məşğul olduqdan sonra o, doğma Gəncə şəhərinə qayıdır, müəllim işləməyə başlayır. Nəsib bəy Gəncədə ilk dəfə olaraq, Azərbaycan dilində kitabxana təsis edir.
1917-ci ildən sonra daha fəal siyasi hərəkata qoşulan N.Yusifbəyli təşkil olunan ikinci hökumətə 1919-cu ilin dekabrından 1920-ci il martın axırına qədər başçılıq etmişdir. O, Baş nazir olduğu

...Ulu öndərin 27 il qabaq Tbilisidə adlarını sadaladıqları görkəmli şəxsiyyətlərin – Azərbaycan Xalq Cümhuriyyəti qurucularının keçdikləri həyat yollarını qısaca vərəqlədik, dünyanın müxtəlif ölkələrində olan və hər bir azərbaycanlının gedib baş çəkdiyi, ehtiram göstərdiyi məzarlarından söz saldıq, xatirələrini yad etdik. Müstəqilliyimizin təntənə ilə qeyd edilməsi günündə – 28 Mayda onları xatırlamamaq keçmişimizə sayğısızlıq olardı. Vətəndən çox-çox uzaqlarda olan tarixi şəxsiyyətlərimizin bu gün sanki məzarları da danışır.

***Hamlet QASIMOV,***
***XQ-nin bölgə müxbiri***

# Türk dövlətləri Orta Dəhlizdə "gömrük dəhlizi" yaradır

**Türk Dövlətləri Təşkilatına (TDT) üzv dövlətlərin – Türkiyə, Azərbaycan, Qazaxıstan, Qırğızıstan və Özbəkistanın informasiya sistemlərinin inteqrasiyasını nəzərdə tutan sadələşdirilmiş gömrük dəhlizinin yaradılması haqqında sazişin ratifikasiyası başa çatdırılıb. Bu sazişlə Transxəzər Beynəlxalq Nəqliyyat Dəhlizi (Orta Dəhliz) boyunca xarici ticarət fəaliyyətinin sadələşdirilməsi nəzərdə tutulub.**

Bu gün təkcə Qazaxıstanın deyil, həm də Qırğızıstan və Özbəkistanın xarici ticarətində əsas pay əsas dəhlizdən – Rusiyadan Avropaya Çin vasitəsi ilə keçir. Yeni saziş isə digər dəhlizin – Xəzər dənizi, Azərbaycan və Türkiyədən keçən Transxəzər Dəhlizinin inkişafına yönəlir. 2010-cu ildən 2022-ci ilə qədər bu sazişdə iştirak edən ölkələr arasında ticarət dövriyyəsinin üç dəfə artması xüsusi diqqət çəkir. Bu, gələcək artım üçün böyük potensialdan xəbər verir.




Bu gün Qazaxıstan üçün bu türk dövlətləri ilə ticarətin həcmi təqribən 13 milyard ABŞ dolları təşkil edir, bu məbləğin 70 faizi isə Qazaxıstanın adıçəkilən ölkələrə ixracının payına düşür.

Sadələşdirilmiş gömrük dəhlizinin aşağıdakı üstünlükləri var: ticarət operatorlarına buraxılış məntəqələrində prioritet xidmət göstəriləcək və bu, gözləmə vaxtlarını azaldacaq; gömrük rəsmiləşdirilməsi prosedurları ayrı-ayrı hərəkət zolaqlarından istifadə edilməklə optimallaşdırılacaq və bu, rəsmiləşdirmə müddətlərini daha da azaldacaq; gömrük yoxlanılması yalnız gömrük qanunvericiliyinin pozulması riskinin müəyyənləşdirildiyi hallarda aparılacaq və bu, dayanma müddətini və xərcləri azaltmağa imkan verəcək.

Sadələşdirilmiş gömrük dəhlizi haqqında saziş konkret sənaye sahələrini və gömrük rəsmiləşdirilməsi üçün malların seçimini məhdudlaşdırmır. Bu o deməkdir ki, ticarət operatorları bütün növ mallar üçün sadələşdirilmiş prosedurlardan istifadə edə bilərlər.

Sadələşdirilmiş gömrük dəhlizinin yaradılması haqqında saziş ratifikasiya olunduqdan sonra 6 aylıq pilot layihə həyata keçiriləcək. Bu müddət ərzində 5 ölkənin gömrük strukturları yeni sistemin bütün texniki, inzibati və hüquqi aspektlərini tam şəkildə işləyəcək. Pilot layihə başa çatdıqdan sonra sistem tam şəkildə işə düşəcək.

Yeri gəlmişkən, Prezidenti İlham Əliyev cari il aprelin 23-də ADA Universitetində "COP29 və Azərbaycan üçün Yaşıl Baxış" mövzusunda keçirilən beynəlxalq forumdakı çıxışında bu gün Transxəzər Beynəlxalq Nəqliyyat Dəhlizinə (Orta Dəhliz) heç vaxt olmadığı qədər ehtiyac duyulduğunu, Çindən gələn və Azərbaycandan keçən yüklərin ildən-ilə artdığını bildirib. Dövlətimizin başçısı nitqində mart ayında Qazaxıstan Prezidentinin Azərbaycana dövlət səfəri zamanı Siandan çıxmış və Bakıya çatmış konteyner qatarının birgə qarşılanma mərasiminin keçirildiyini və bunun ölkələrimiz arasında əməkdaşlığın birgə nümayişinə çevrildiyini də xatırladıb.

Ölkə rəhbəri daha sonra Orta Dəhliz layihəsinin böyük gələcəyinə güclü inamı olduğunu, Azərbaycanda faktiki olaraq bütün lazımi infrastrukturun, o cümlədən müasir, yeni dəniz limanının qurulduğunu da diqqətə çatdırıb: "Yeri gəlmişkən, hazırda biz dəniz limanının genişləndirilməsi üzərində işləyirik. Çünki bugünkü 100 min TEU və 15 milyon ton ümumi yükaşırma qabiliyyəti yetərli olmayacaq. Biz artıq bunu başa düşürük. Biz bunu 25 milyon tona və 500 yüz min, yaxud hətta bir milyon TEU-ya çatdırmaq istəyirik ki, təkcə Çindən deyil, həm də Mərkəzi Asiyadan həcmi artan yükləri qəbul etmək imkanımız olsun. Çünki söylədiyim kimi, bugünkü geosiyasi mühitdə bu marşruta ehtiyac var".

Xatırladaq ki, Azərbaycan hazırda Orta Dəhliz layihəsinin inkişafına institusional dəstək göstərməyi də diqqətdə saxlayır. Çünki Prezident İlham Əliyevin vurğuladığı kimi, fiziki infrastruktur yetərli deyil. Azərbaycan, Qazaxıstan və Gürcüstan arasında birgə müəssisənin yaradılması da məhz bununla bağlıdır. Hazırda Azərbaycan nəqliyyat marşrutunun rəqəmsallaşdırılması üzərində fəal işləyir. Artıq Dövlət Gömrük Komitəsində yüklərin emalının daha az vaxt aparması, yüklər üzərində tam şəffaflıq və nəzarətin yaradılması məqsədilə süni intellekt sistemi tətbiq edilir.

Prezident İlham Əliyev bu il aprelin 29-da Çin Xalq Respublikasının Xarici ölkələrlə dostluq üzrə Çin Xalq Assosiasiyasının sədri Yan Vanmini qəbul edərkən də bu barədə ətraflı bəhs edib. Dövlətimizin başçısı Azərbaycan–Çin siyasi əlaqələrinin yüksək səviyyədə olduğunu vurğulayaraq ikitərəfli münasibətlərdə son vaxtlar böyük canlanmanın baş verdiyini bildirib. Nəqliyyat sahəsində çox fəal birgə işlərin aparıldığını deyən Prezident İlham Əliyev bu baxımdan Transxəzər Nəqliyyat Dəhlizinin Orta Dəhlizin bir hissəsi olduğunu qeyd edib. Çin Xalq Assosiasiyasının sədri Yan Vanmi isə Azərbaycanın "Bir kəmər, bir yol" təşəbbüsünü ilk dəstəkləyən ölkələrdən biri olduğunu və bu baxımdan Azərbaycanın Transxəzər Dəhlizi təşəbbüsünün reallaşmasına, ümumilikdə, bütün nəqliyyat qovşağının inkişafına töhfə verəcəyinə əminliyini diqqətə çatdırıb.

Burada bir məqamı da xatırlatmaq istərdik. Dövlətimizin başçısı mayın 23-də ölkəmizə dövlət səfərinə gələn Tacikistan Respublikasının Prezidenti Emoməli Rəhmonla keçirilən görüşdə də Orta Dəhlizi və onun bir hissəsi olan Transxəzər Nəqliyyat Dəhlizini Tacikistandan yükgöndərənlər üçün daha cəlbedici etmək məqsədilə logistika əlaqələrinə dair məsələlərin ətraflı nəzərdən keçirildiyini söyləyib. "Mən həmkarıma məlumat verdim ki, Azərbaycan öz ərazisində bütün iri nəqliyyat və logistika layihələrini praktiki olaraq başa çatdırıb və bu gün müxtəlif istiqamətlərdə – Şərqdən Qərbə, Şimaldan Cənuba və əks istiqamətlərdə böyük həcmdə yükləri qəbul etməyə hazırdır",–deyib.

Qeyd edək ki, Türkiyə, Azərbaycan, Qazaxıstan, Qırğızıstan və Özbəkistan informasiya sistemlərinin inteqrasiyasını nəzərdə tutan sadələşdirilmiş gömrük dəhlizinin yaradılması haqqında sazişi hələ 2023-cü ildə ratifikasiya ediblər. Beş TDT ölkəsindən yalnız Qazaxıstan qalmışdı ki, o da keçən həftə sadələşdirilmiş gömrük dəhlizinə qoşulmağı təsdiqləyib.

Sonda mövzu ilə bir məlumatı da xatırlatmaq istərdim. Belə ki, Azərbaycan Çində yeni Transxəzər Gömrük Ticarət Portalını təqdim edib. Bu, Dövlət Gömrük Komitəsinin (DGK) təşəbbüsü ilə Transxəzər Gömrük Ticarət Portalı tərəfindən hazırlanıb.

Çinin Çendu şəhərində keçirilən "6-cı Çin Beynəlxalq Təchizat Zənciri və Smart Logistika" sərgisində təqdim olunan bu layihə Azərbaycan gömrük xidməti tərəfindən hazırlanıb və Avtomatlaşdırılmış Risk Analiz Sistemi (ARAS), Səlahiyyətli İqtisadi Operator (SİO), habelə digər təşəbbüslərin Orta Dəhliz boyu rəqəmsal həllərin tətbiqinə, logistika imkanlarının genişləndirilməsinə şərait yaradır.

Xatırladaq ki, TDT üzv dövlətlərin– Türkiyə, Azərbaycan, Qazaxıstan, Qırğızıstan və Özbəkistanın informasiya sistemlərinin inteqrasiyasını nəzərdə tutan sadələşdirilmiş gömrük dəhlizinin yaradılması haqqında saziş 2022-ci il noyabrın 11-də Səmərqənddə adları çəkilən ölkələrin hökumətləri arasında imzalanıb.

***Vaqif BAYRAMOV***
***XQ***



# Ələt limanına hava qapısı açılır

**Ələt Azad İqtisadi Zonasında (ƏAİZ) istehsal müəssisələri ilə yanaşı, logistika mərkəzi və hava limanının da inşasına başlanılıb. Müasir standartlara cavab verən beynəlxalq karqo aeroportunun illik yükaşırma gücünün ilkin mərhələdə 500 min ton olacağı, daha sonra isə 1,5 milyon tona qədər artacağı planlaşdırılıb.**

Aeroport, ilk növbədə, ƏAİZ-də fəaliyyət göstərən müəssisələrin yüklərinin təyyarə ilə daşınmasını təmin edəcək. Hava limanının ətrafında isə multimodal nəqliyyat mərkəzləri və yüksək texnologiyalara əsaslanan istehsal müəssisələri tikiləcək.

Sözügedən iqtisadi zonanın Səlahiyyətli Qurumunun İdarə Heyətinin sədri Valeh Ələsgərovun bildirdiyinə görə, ƏAİZ-ə ayrılmış 4313 hektar torpaq sahəsinin, təxminən, 1200 hektardan artıq hissəsində tikilən hava limanının 2026-cı ilin birinci rübündən gec olmayaraq istifadəyə verilməsi nəzərdə tutulub.

***XQ***

# Bi il ÜDM 121,3 milyard manata çatacaq

**İqtisadiyyat Nazirliyinin makroiqtisadi proqnozunun baza ssenarisinə dəyişikliklər edilib, neftin bir barelinin orta illik ixrac qiyməti 60 ABŞ dollarından 75 ABŞ dollarına (ilin ötən dövrü üzrə faktiki satış qiymətləri və ilin qalan dövrü üzrə 70 ABŞ dolları fərz edilməklə, öncəki proqnoza nəzərən 15 ABŞ dolları çox) yüksəldilib.**




Maliyyə Nazirliyindən bildirilib ki, 2024-cü ildə ÜDM-in 121 milyard 3 milyon manata (dövlət büdcəsinin layihəsinin tərtibi zamanı təqdim edilmiş proqnoza nəzərən 3 milyard manat çox), o cümlədən qeyri-neft ÜDM-in 84 milyard 7 milyon manata (dövlət büdcəsinin layihəsinin tərtibi zamanı nəzərdə tutulmuş proqnoza nəzərən 0,6 milyard manat çox) çatacağı proqnozlaşdırılır.

Yenilənmiş makroiqtisadi proqnoz, dünya neft bazarlarında münbit qiymət dinamikası, cari ilin ötən dövründə dövlət büdcəsinin gəlirlərinin faktiki icra vəziyyəti və dövlət büdcəsində əlavə fiskal məkandan istifadə imkanları 2024-cü il üzrə gəlir proqnozuna yenidən baxılması üçün şərait yaradır.

***XQ***

# Qeyri-neft sənayesinin istehsal çəkisi artır

## Cari ilin 4 ayında bu bölmədə 5,8 milyard manatlıq məhsul buraxılıb

**Ölkə iqtisadiyyatının əsasını təşkil edən sənayenin inkişaf etdirilməsi üçün rəqabət qabiliyyətli müasir istehsal müəssisələrinin yaradılması, bu sahədə infrastruktur təminatının yaxşılaşdırılması sahəsində çoxsaylı layihələr icra olunur, bir sıra stimullaşdırıcı tədbirlər həyata keçirilir. Bu da sənaye sahəsində ümumi istehsalın artmasına səbəb olmaqla yanaşı, qeyri-neft sektorunun inkişafına mühüm töhfələr verir.**



Dövlət Statistika Komitəsinin məlumatına görə, 2024-cü ilin yanvar–aprel aylarında Azərbaycanda 38 milyard 181,9 milyon manatlıq ümumi daxili məhsul (ÜDM) istehsal olunub ki, bu da əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 4,3 faiz çoxdur. Hesabat dövründə iqtisadiyyatın qeyri-neft-qaz sektorunda isə məhsul istehsalı 24 milyard 247,3 milyon manat təşkil edib. Bu isə ötən ilin eyni dövrünə nisbətən 7,7 faiz artıqdır.

ÜDM istehsalının 40,3 faizi ölkə iqtisadiyyatının aparıcı sahəsi olan sənayenin payına düşüb. Belə ki, yanvar-aprel aylarında sənaye müəssisələri və bu sahədə fəaliyyət göstərən fərdi sahibkarlar tərəfindən 21,1 milyard manatlıq sənaye məhsulu istehsal edilib. İlin ötən dövrü ərzində sənayedə qeyri-dövlət sektorunun payı 80,8 faiz təşkil edib. Ümumi istehsalın 89,7 faizi sənaye məhsullarının buraxılışı, 10,3 faizi isə sənaye xarakterli xidmətlərin göstərilməsi hesabına yaradılıb. İlin əvvəlindən istehsal edilmiş məhsulun əksər hissəsi istehlakçılara göndərilib. Bununla belə, əvvəlki dövrlərdə yaranmış ehtiyatlar da nəzərə alınmaqla bu il mayın 1-nə sənaye müəssisələrinin anbarlarında 976,3 milyon manatlıq hazır məhsul qalıb.

Cari ilin ilk 4 ayında sənaye məhsulunun 64,6 faizi mədənçıxarma sektorunda, 29,3 faizi emal sektorunda, 5,3 faizi elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı sektorunda, 0,8 faizi isə su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorunda istehsal olunub.

Yanvar–aprel aylarında sənayenin mədənçıxarma sektorunda 13,6 milyard manatlıq məhsul istehsal olunub ki, bu da əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə bir qədər azdır. Hesabat dövründə sahənin əsas məhsulu olan əmtəəlik neft hasilatı 9,6 milyon ton, əmtəəlik təbii qaz hasilatı isə 12,7 milyard kubmetr təşkil edib. Ötən ilin müfafiq dövrü ilə müqayisədə əmtəəlik neft hasilatı 5,7 faiz azalıb, əmtəəlik qaz hasilatı isə 4,3 faiz artıb.

Bununla belə, ölkə iqtisadiyyatının şaxələndirilməsi və qeyri-neft sektorunun inkişaf etdirilməsi istiqamətində həyata keçirilən tədbirlər müsbət nəticə verir. Elə cari ilin yanvar–aprel aylarında ölkənin qeyri-neft sektorunda baş vermiş 8,7 faizlik artım da bunu təsdiqləyir. Yanvar–aprel aylarında emal sənayesində 6 milyard 184,5 milyon manatlıq məhsul istehsal olunub və sənaye xarakterli xidmətlər göstərilib. Bəhs olunan sektor üzrə ən yüksək artım metallurgiya sənayesində baş verib. Belə ki, ilin 4 ayında metallurgiya sənayesi və hazır metal məmulatlarının istehsalı sahələrində 418,7 milyon manatlıq məhsul istehsal olunub. Ötən ilin müvafiq dövrünə nisbətən metallurgiya sənayesində 55 faiz, hazır metal məmulatlarının istehsalı sahəsində isə 12,6 faiz artım müşahidə olunub. Bununla yanaşı, yanvar-aprel aylarında sahənin digər məhsulları olan tikinti materiallarının, mebellərin, kompüter, elektron və optik məhsulların, rezin və plastik kütlə məmulatlarının, qida məhsullarının və içkilərin, dəri və dəri məmulatlarının, ayaqqabı və geyimlərin, avtomobil, qoşqu və yarımqoşquların, tütün məmulatlarının, elektrik avadanlıqlarının, hazır metal məmulatlarının, kimya sənayesi və neft məhsullarının, eləcə də kağız və kartonların istehsalında əhəmiyyətli artım baş verib. Sahənin digər məhsulları olan toxuculuq sənayesi, poliqrafiya, ağacın emalı və ağacdan məmulatların, maşın və avadanlıqların istehsalı, həmçinin maşın və avadanlıqların quraşdırılması və təmiri işlərində azalma qeydə alınıb.

Yeri gəlmişkən, son illər Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda iqtisadiyyatın şaxələndirilməsi məqsədilə qeyri-neft sənayesinin inkişaf etdirilməsi, eləcə də bu sahədə ixrac potensialının artırılması istiqamətində mühüm tədbirlər həyata keçirilir. Bu da ölkəmizdə qeyri-neft sənayesində mühüm növ malların istehsalının getdikcə artmasına səbəb olur. Qeyri-neft sənayesində məhsul istehsalının artması isə ölkənin ixrac potensialının genişləndirilməsinə mühüm töhfələr verir.

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin hazırladığı "İxrac icmalı"nın aprel sayına əsasən, 2024-cü ilin birinci rübü ərzində Azərbaycanın ümumi ixracı 6 milyard dollar, qeyri-neft sektoru üzrə ixrac isə 673,7 milyon dollar təşkil edib. Hesabat dövründə pambıq ixracı 47 faiz, meyvə-tərəvəz ixracı 15,3 faiz, bitki və heyvan mənşəli piylər və yağların ixracı 7,2 faiz, üzvi kimyəvi birləşmələrin ixracı isə 2,1 faiz artıb. Nəşrin məlumatına görə, bu ilin ilk 3 ayı ərzində ixrac edilmiş qeyri-neft sektoruna aid malların siyahısında pambıq mahlıcı (56,5 milyon dollar) birinci olub. Bu siyahıda pomidor (tomat) (45 milyon dollar) ikinci, elektrik enerjisi (40,6 milyon dollar) isə üçüncü yerdə qərarlaşıb.

Azərbaycanda qeyri-neft sənayesi müəssisələrinin yaradılması dövlət başçısının həyata keçirdiyi iqtisadi siyasətin prioritet istiqamətlərindən biri kimi xüsusi aktuallıq kəsb edir. Yerli xammal hesabına ölkənin qeyri-neft sənayesində rəqabətqabiliyyətli, ixrac yönümlü məhsulların istehsalı üçün isə imkanlar olduqca genişdir. Bu baxımdan son illər yaradılmış sənaye parkları və məhəllələri müstəsna rol oynayır. Təsadüfi deyil ki, sənaye zonalarında yüksək texnologiyalar əsasında fəaliyyət göstərən müəssisələr ölkənin sənaye potensialının artmasında, ixrac yönümlü məhsulların istehsalında mühüm yer tutur.

Hazırda ölkəmizdə 7 sənaye parkı (Sumqayıt Kimya, Qaradağ, Pirallahı, Mingəçevir, Balaxanı, Ağdam və Cəbrayıl rayonunda yerləşən "Araz Vadisi İqtisadi Zonası") və 5 sənaye məhəlləsi (Hacıqabul, Masallı, Neftçala, Sabirabad və Şərur) fəaliyyət göstərir. İqtisadi Zonaların İnkişafı Agentliyinin məlumatına əsasən, 2013-cü ildən indiyədək sənaye zonaları üzrə ümumi investisiya həcmi 7,79 milyard manat olan 142 sahibkarlıq subyektinə rezident statusu verilib. Sahibkarlar tərəfindən sənaye zonalarına 6,7 milyard manatdan çox investisiya yatırılıb və 10 min 500-dən çox daimi iş yeri yaradılıb. Mövcud layihələr üzrə növbəti mərhələdə sənaye zonalarına əlavə 1 milyard manat investisiyanın yatırılması və 6 min 500-dən çox yeni iş yerinin yaradılması nəzərdə tutulur.

Qeyd edək ki, 2024-cü ilin birinci rübündə sənaye zonalarının rezidentləri tərəfindən, ümumilikdə, 640,3 milyon manat dəyərində məhsul satışı həyata keçirilib ki, bunun da 223,6 milyon manatı ixracın payına düşüb. Ötən il sənaye parklarının rezidentləri tərəfindən satış 20,6 faiz, ixrac isə 10,8 faiz artıb.

***Mirbağır YAQUBZADƏ***
***XQ***

# Sualtı nasoslar ABŞ şirkəti ilə birgə yığılacaq

**Azərbaycan Dövlət Neft Şirkətinin neft və qaz hasilatı üzrə strukturu "Azneft" İstehsalat Birliyi və ABŞ-nin "Baker Hughes" şirkəti ölkəmizdə sualtı elektrik nasoslarının yığılması və texniki xidməti üzrə birgə mərkəzin yaradılması barədə razılığa gəliblər.**

Bu barədə Azərbaycan Dövlət Neft Şirkətindən məlumat verilib. Bildirilib ki, Bakıda "Baker Hughes" ESP texnologiyasının Azərbaycanda tətbiqi və elektrik mərkəzdənqaçma sualtı nasoslarının yığılması, təmiri və texniki xidməti üzrə ölkədə birgə mərkəzin yaradılması üzrə öhdəlik məktubunun imzalanması mərasimi keçirilib. Müqavilə "Baker Hughes" şirkətinin Xəzər regionu üzrə direktoru Karlo Beltram və SOCAR-ın "Azneft" İstehsalat Birliyinin baş direktoru Əli Qurbanov arasında imzalanıb.

Xatırladaq ki, "Baker Hughes" dünyanın aparıcı neft və qaz xidmətləri şirkətlərindən biridir. Qurumun xidmətlərinə qazma, ehtiyatın qiymətləndirilməsi, yataqların işlənməsi və s. daxildir. Qərargahı ABŞ-nin Texas ştatının Hyuston şəhərində yerləşən şirkətin 120-dən çox ölkədə 54 min işçisi var.

***XQ***






Telli Pənahqızı – 70

# Telejurnalistin ömür hesabatı



**Azərbaycan Mətbuat Şurasında Əməkdar jurnalist Telli Pənahqızının 70 illik yubiley mərasimində xalqa sözlə, qələmlə xidmətin daha bir örnəyi diqqət mərkəzində oldu. Tanınmış telejurnalist və şairin dostları, həmkarları, sanki, öz doğma ocağında bir masa ətrafında sənət silahdaşlarının növbəti hesabatını qəbul etməyə toplaşmışdılar.**

Məclisi Mətbuat Şurasının sədri Rəşad Məcid açaraq Telli Pənahqızının Azərbaycan telejurnalistikası üçün bir dəyər olduğunu qeyd etdi və onun bioqrafiyasına nəzər saldı. Bildirdi ki, Telli Pənahqızı Əliyeva Qərbi Azərbaycanın Vedibasar rayonunda anadan olub. 1971–1976-cı illərdə Bakı Dövlət Universitetinin jurnalistika fakültəsində təhsil alıb. 1980 -ci ildən əmək fəaliyyətinə başlayıb. Müxtəlif illərdə Azərbaycan Dövlət Televiziya və Radio Verilişləri Komitəsində televiziyanın Gənclik və xəbərlər redaksiyalarında redaktor, böyük redaktor, İnformasiya studiyası rəhbərinin müavini, informasiya xidmətinin rəhbəri, AzTV İkinci Proqramının direktoru, Baş proqram direktorunun müavini vəzifəsində işləyib. Telejurnalistikada davamlı yüksəliş yolu keçmiş həmkarımız 2005-ci ildən “Azərbaycan Televiziya və Radio Verilişləri” QSC televiziya proqramları direktorunun müavini vəzifəsindədir.

Yubilyarın səmərəli jurnalistlik fəaliyyətinin 2006-ci ildə “Əməkdar mədəniyyət işçisi” fəxri adına, 2008-ci ildə “Tərəqqi” medalına, bu günlərdə isə 2-ci dərəcəli “Vətənə xidmətə görə” ordeninə, ədəbi-publisistik yaradıcılığının “Qızıl qələm”, “Həsən bəy Zərdabi”, “Məmməd Araz”, “Natəvan” mükafatlarına layiq görüldüyünü xatırladan sədr qeyd etdi ki, Telli Əliyeva Mətbuat Şurasının Ali Media Mükafatının da laureatı olmuşdur. O, 3-ü şeir, 7-si publisistik əsər olmaqla 10 kitabın müəllifidir.

Sonra Rəşad Məcid Azərbaycan Mətbuat Şurasının yubiley plaketini Telli Əliyevaya təqdim etdi.

“Xalq qəzeti”nin baş redaktoru Əflatun Amaşov Telli xanımın ustad jurnalistlər sırasında yer aldığını vurğulayaraq illər öncə ona verilmiş Ali Media Mükafatının plaketini gətirdiyini bildirdi. Telejurnalistikada çoxillik səmərəli, novator fəaliyyəti ilə populyarlıq qazanmış Telli Əliyevanın milli mətbuat ənənələrinə sadiqliyini qeyd edən baş redaktor onun öz ardıcılarını da yetişdirdiyini söylədi.

Əməkdar mədəniyyət işçisi Məhəbbət Mehdiyeva yubilyarla bağlı fikirlərini çox duyğulu şəkildə bildirdi: “Bizi onunla bağlayan elə qırılmaz bağlar var ki, sanki, biz hər gün görüşürük. Bir-birimizə qarşılıqlı hörmətimiz, məhəbbətimiz var. Çünki o dürüst insandır. Bütün həyatı boyu da həm şəxsi həyatında, həm dostları ilə münasibətində, həm də işində bu keyfiyyətə sadiq olub və olacaq”.

Əməkdar jurnalist Flora Xəlilzadə tələbəlik dostu və iş yoldaşı ilə onu peşə, iş, xanımlıq, əqidə, sözə, qələmə bağlılıq birləşdirdiyini söylədi. “Xarici ölkələrdə səfərlərdə olmuşuq. Müqəddəs Məkkə ziyarətində 60 dərəcə istidə birgə kölgələnmişik. Könül verdiyimiz jurnalistika bizi möhkəm birləşdirib. Bütün bunlardan ötə bizi yurd həsrəti də ortaqlaşdırıb. Telli taleyin mənə bəxş etdiyi qələm dostu, ürək sirdaşıdır. Gün gəlsin, onunla birlikdə öz yurdumuzda, kölgəli bir ağac altında oturaq, dərdlərimizə vida deyək, sevgimizi, sevincimizi bölüşək”.

Jurnalist Gülşən Behbud ötən əsrin 98-ci ilində Azərbaycan televiziyasına gəlib iş üçün Telli xanımın qapısını döydüyünü xatırladı: “Biz Telli xanımın verilişlərindən sənət dərsi aldıq. Əvvəllər ekranda sənət ucalığında gördüyüm insanın sonralar həyatda nə qədər sadə və səmimi olduğunun şahidi oldum. O ekrana sadəlik, səmimilik, sərbəstlik gətirdi, efirdə insana yaşamaq həvəsi bəxş elədi”.

Qərbi Azərbaycan İcmasının nümayəndəsi Rəhilə Abdullayeva çıxışında ən böyük arzusunun həsrət qaldıqları el-obaya – Qarakilsəyə, Vediyə, Göyçəyə qayıtmaq olduğunu dedi: “Necə ki, deyirik, biz hamılıqla qarabağlıyıq. Gün o gün olsun ki, deyək: Biz Qərbi Azərbaycanlıyıq”.

Əməkdar jurnalist Şəmsiyə Kərimova Telli Pənahqızının bəkə də unutduğu bir xeyirxahlığını xatırladı. İllər öncə gənc mexanizatorlarla bağlı Teleteatrdakı bir çəkilişdən sonra Telli xanımın ona yaxınlaşdığını, rayona qayıtmaq üçün gec olduğunu deyib onu kirayə qaldığı evə aparıb. Bildirdi ki, Telli xanım cəmi bir çarpayı olan kiçik otaqda döşəmədə yataq açdı və gənc bir qızın axşam tək-tənha rayona getməsinə razı olmadı.

Telejurnalist Fəxriyyə Lilpar Tellini sonunda çoxlu sıfırlar olan 1 rəqəminə bənzətdi və ona həmişə 1 olaraq qalmağı arzuladı. Bildirdi ki, Tellini xalqa sevdirən odur ki, o, sevgisini, sözünü, hətta iradlarını hay-küylə deyil, pıçıldayaraq çatdırır. O, ritorika və deklorativ yaradıcılıqdan uzaqdır.

Fəridə Aslanova uşaqlıqdan anasının təkidi ilə televiziya qarşısında oturub Telli Pənahqızının süjetlərinə baxdığını, ondan dil,




danışıq mədəniyyəti öyrəndiyini, ən böyük arzusunun onunla görüşmək olduğunu söylədi: “Onun vasitəsilə işə düzəldim. Və bu gün xoşbəxtəm ki, Telli xanım kimi “himayədarım” var? 7 ildir ki, mən Telli xanımla qoşa addımlayıram”.

Əməkdar jurnalist Əntiqə Qonaq, Əminə Yusifqızı, “Xalq qəzeti”ndən Zərifə Bəşirqızı, televiziya əməkdaşları Sevda Ağazadə, Sədaqət Məmmədova, və digərləri çıxışlarında Telli Pənahqızı barədə yalnız mükəmməl telejurnalist kimi deyil, xeyirxah, səmimi, etibarlı insan, eyni zamanda, duyğulu, kövrək şeirlər müəllifi kimi də söz açdılar.

Mərasimdə Azərbaycan mədəniyyətinin uğurlarının təbliğində, dilimizin saflığının qorunmasında, gənclərin vətənpərvərlik ruhunda böyüməsində, milli-mənəvi dəyərlərə sevgi aşılanmasında, mədəniyyət xadimlərinin cəmiyyətə layiqincə tanıdılmasında Telli Pənahqızının çoxillik səmərəli xidməti olduğu qeyd edildi.

Sonda Telli Pənahqızı onu təbrikə gələnlərə minnətdarlıq etdi, qədirbilənliyin onu yazıb yaratmağa, xalqa öz sözü ilə xidməti davam etdirməyə ruhlandırdığını bildirdi.

***T.AYDINOĞLU***
***XQ***

# Cari ilin daimi seçicilər siyahısının tərtib edilməsi və dəqiqləşdirilməsi başa çatıb

**Azərbaycan Respublikası Seçki Məcəlləsinin tələblərinə əsasən, hər il yanvar ayının əvvəllərindən etibarən ölkə üzrə vahid seçicilər siyahısının tərtib edilərək dəqiqləşdirilməsinə başlanılır.**

Seçici siyahıları qanunvericiliklə müəyyənləşdirilmiş qaydada, ilk növbədə, müvafiq icra hakimiyyəti orqanları və bələdiyyə qurumu başçılarının, hərbi hissə komandirlərinin aktiv seçki hüququna malik seçicilər barədə təqdim etdikləri məlumatlar əsasında məntəqə və dairə seçki komissiyaları tərəfindən tərtib olunur və Mərkəzi Seçki Komissiyasına təqdim edilir. Bu istiqamətdə lazımi addımlar atıldıqdan və zəruri işlər görüldükdən sonra seçici siyahıları aidiyyəti üzrə aşağı seçki komissiyaları tərəfindən təsdiqlənir və dövlət avtomatlaşdırılmış informasiya sistemindən də istifadə olunmaqla ictimailəşdirilir. Sözügedən prosesə, bütövlükdə, may ayının 30-dək yekun vurulur.

Cari il seçicilər siyahısının dəqiqləşdirilməsinə başlanılması 2024-cü il fevralın 7-də keçirilən növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkiləri ərəfəsinə təsadüf etdiyindən, MSK vətəndaşların seçki hüquqlarının daha səmərəli təmin olunmasında mühüm əhəmiyyət daşıyan seçici siyahılarının dəqiqləşdirilməsini əsas prioritetlərdən biri kimi diqqətdə saxlayaraq prosesləri daha da intensivləşdirdi və qanunvericiliyin tələblərinə uyğun qaydada ardıcıl, sistemli tədbirlər həyata keçirdi. Belə ki, seçici siyahılarının dəqiqləşdirilməsi müddətində fərqli üsullarla silsilə təşviqat kampaniyası gerçəkləşdirildi, MSK-nın hazırladığı video və audio çarxlar televiziya və radio yayımçıları, komissiyanın rəsmi internet səhifəsi, onlayn media portalları və sosial media platformaları vasitəsilə müntəzəm nümayiş etdirilərək geniş miqyasda ictimailəşdirildi. O cümlədən birgə layihə çərçivəsində ilk dəfə “ASAN xidmət” mərkəzlərində yerləşən smart monitorlara seçici siyahılarına dair xidmət əlavə olundu ki, bu effektiv vasitə seçicilərə öz məlumatlarını yoxlamaq, düzəlişlərə ehtiyac yarandıqda yerindəcə sadə üsulla operativ şəkildə MSK-ya müraciət ünvanlamaq, habelə səs verəcəkləri məntəqəyə dair informasiya əldə etməyə imkan yaratdı. Sadalanan məqsədyönlü layihələrlə yanaşı, dəqiqləşdirmə prosesində seçicilərin fəallığı, informasiya-kommunikasiya texnologiyalarının və media qurumlarının imkanlarından geniş istifadə olunması da görülən işlərin səmərəliliyinin yüksəldilməsində və siyahıların daha təkmil hazırlanmasında əhəmiyyətli rol oynadı. Onu da qeyd etmək lazımdır ki, aşağı seçki komissiyalarının otuz səkkiz mindən artıq üzvünün cəlb olunduğu dəqiqləşdirmə prosesi Daxili İşlər Nazirliyi və Ədliyyə Nazirliyinin müvafiq orqanları, yerli icra strukturları və bələdiyyə qurumları ilə sıx əməkdaşlıq şəraitində reallaşdırılırdı.

2024-cü il üzrə daimi seçicilər siyahısının tərtib edilməsi və dəqiqləşdirilməsinin başa çatması ilə əlaqədar MSK üzvləri media mənsublarının da iştirakı ilə mayın 27-də komissiyanın inzibati binasında vahid seçicilər siyahısının cari il üzrə yenidən tərtib edilmiş variantı və saxlanma şəraiti ilə yaxından tanış olublar. MSK-nın İnformasiya mərkəzinin zalında əyani şəkildə keçirilən təqdimat mərasimində komissiya üzvləri və media təmsilçiləri seçici siyahılarının tərtib edilərək dəqiqləşdirilməsində dövlət avtomatlaşdırılmış informasiya sisteminin yaratdığı imkanlar, daha da təkmilləşdirilən proqram təminatları barədə ətraflı məlumatlandırılıb.

Təqdimat mərasimindən sonra Məzahir Pənahovun sədrliyi ilə MSK-nın iclası keçirilib və 2024-cü ilin daimi seçici siyahılarının yenidən tərtib edilməsi, təsdiq olunması və ictimailəşdirilməsi məsələsinə baxılıb. Komissiya sədri seçici siyahılarının dəqiqləşdirməsi istiqamətində reallaşdırılan məqsədyönlü fəaliyyətlə bağlı əsas məqamları iclas iştirakçılarının diqqətinə çatdırıb, eyni zamanda, prosesə yaxından kömək göstərən Daxili İşlər Nazirliyi, Ədliyyə Nazirliyi, yerli icra hakimiyyəti orqanları və digər aidiyyəti qurumlara təşəkkürünü bildirib.

İclasda 2024-cü ilin daimi seçici siyahılarının tərtib edilməsi və dəqiqləşdirilməsi işi başa çatmış hesab edilərək, siyahıların məntəqə və dairə seçki komissiyaları tərəfindən təsdiq olunması üçün müvafiq dairə seçki komissiyalarına göndərilməsi, Azərbaycan Respublikası üzrə seçicilərin daimi siyahısının dövlət avtomatlaşdırılmış informasiya sistemi vasitəsilə tərtib edilərək, Seçki Məcəlləsinin tələbləri nəzərə alınmaqla təsdiq olunduqdan sonra komissiyanın internet saytında yerləşdirilməklə ictimailəşdirilməsi qərara alınıb. Hazırda ölkə üzrə vahid seçicilər siyahısına 6 milyon 326 min 764 seçici daxil edilib ki, onların da 47,55 faizi kişi, 52,45 faizi isə qadınlardır.

MSK-nın iclasında digər məsələlərə də baxılıb və müvafiq qərarlar qəbul olunub. Belə ki, komissiyanın 2024-cü il 2 may tarixli iclas protokolu təsdiq edilib, bir sıra yeni normativ-hüquqi aktların qəbul olunması və qanunvericilikdə edilən son dəyişikliklərlə əlaqədar olaraq “Siyasi partiyalar tərəfindən təqdim edilmiş illik maliyyə hesabatlarının qəbul olunması və nəzərdən keçirilərək ictimailəşdirilməsi qaydalarına dair Təlimat”ın təsdiq edilməsi barədə qərar ləğv olunub, həmçinin bəzi seçki dairələri dairə seçki komissiyalarının tərkibində dəyişikliklər edilib.

***Qabil YUSİFOĞLU***
***XQ***




İDMAN

# Cənubi Qafqazın ən uzun triatlon yarışı Bakıda keçirildi

**"IronWinD" seriyasından Cənubi Qafqazda növbəti, ən uzun triatlon yarışı – klassik "yarı" IronWind 113 – turniri Pirallahı rayonunun Nərəkənd parkında keçirildi. Azərbaycanla yanaşı, Qazaxıstan, Özbəkistan, Rusiya, Belarus, Böyük Britaniya, BƏƏ, Ukrayna, İrlandiya və Gürcüstandan, ümumilikdə, 200 idmançının mübarizə apardığı yarış əsl idman bayramına çevrildi.**

Təkcə fiziki dözümlülük deyil, həm də böyük diqqət və strategiya tələb edən bu baxımlı idman növü üzrə ənənəvi yarış, həmişə olduğu kimi, bu dəfə də ətrafına xeyli azarkeş toplamışdı. Onların arasında turnirdə mübarizə aparanların ailə üzvləri, turist kimi ölkəmizə səfər edənlər də var idi. İdmançıların üzgüçülüklə başlayıb, veloyürüşlə davam edən və qaçışla başa çatan yarışını tamaşaçılar böyük maraq və həyəcanla izləyirdilər. Həm iştirakçı ölkə, həm də idmançıların say baxımından çoxluq təşkil etdiyi turnirdə rəqabət də xeyli yüksək idi. Yarış iştirakçılarının və izləyicilərin də qeyd etdikləri kimi, küləkli və yağışlı havaya baxmayaraq, turnir yüksək səviyyədə, maraqlı rəqabət şəraitində keçdi.

**Azərbaycan Triatlon Federasiyasının baş katibi Seymur Hüseyinov "XQ"yə açıqlamasında bildirdi ki, yarış ənənəvi xarakter daşıyır və gələcəkdə də keçiriləcək:**

–Turnir Gənclər və İdman Nazirliyi, "Triterra Baku TriathlonClub"u və Bakı Şəhər Halqası Əməliyyat Şirkətinin təşkilatçılığı ilə keçirildi. Fərdi, həm də estafet formatlı yarışda iştirakçılar üzgüçülük üzrə 1,9, velosiped yarışında 90, qaçış mərhələsində isə 21,1 kilometr məsafə üzrə mübarizə apardılar. Bu məsafələri qət edib, finişə çatan hər bir idmançı qalib sayıldığı üçün onlara xüsusi medallar təqdim edildi. Xarici idmançılar budəfəki yarışda sayca üstünlük təşkil edirdi.

**Federasiyanın rəsmisi Azərbaycanda triatlonun, təxminən, 10 il bundan əvvəl yaranaraq, inkişaf etməyə başladığını dedi. O, ötən illərdə yüksək nəticə əldə edən idmançılarımızın yetişdiyini bildirdi:**

– Artıq Olimpiya Oyunlarında da təmsil olunuruq. Belə yarışları təşkil etməkdə əsas məqsəd, bu idman növünün ölkəmizdə daha yüksək inkişafına və kütləviliyinə nail olmaqdır.

**Yarış iştirakçılarından təmsilçimiz Fatimə Alkərəmova da turnirlə bağlı təəssüratlarını bölüşdü:**

–Üzgüçülük üzrə yığma komandanın üzvüyəm. Komanda yarışlarında iştirak edirdim. Nəticəm yaxşı oldu. Musa Mikayılzadə velosiped, Cəlal Süleymanov qaçış yarışlarında iştirak etdi. Belə maraqlı turnirə görə təşkilatçılara minnətdarıq.

**Komandamızın digər üzvü Tural Mahmudov velosiped yarışında nəticələrinin qənaətbəxş olduğunu dedi:**

–Küləkli və yağışlı havaya baxmayaraq, gücümüzdən tam istifadə edə bildik. 90 kilometr məsafə üzrə velosiped yarışında 38 kilometr\saat orta sürətlə hərəkət edirdim ki, bu da mənim üçün yaxşı göstəricidir. Həm təşkilatçılara, həm də bizə dəstək verənlərə minnətdarlığımı bildirirəm.

**Belaruslu idmançı Oleq Qolub növbəti yarışlarda da iştirak etmək istədiyini dedi:**

–Yarışdan 2 gün əvvəl Bakıya gəlmişdik. Şəhərinizi gəzib, görməli yerləri ilə tanış olmaq üçün gözəl fürsət yarandı. Bakı müasirliyi ilə yanaşı, həm də qədimliyi ilə diqqəti cəlb edir. Burada, eyni zamanda, əsrarəngiz təbiət, yaşıllıq insanın könlünü oxşayır. Nəticələrimə gəldikdə, velosiped yarışında göstəricim daha yaxşı oldu. Qaçış isə o qədər də yaxşı alınmadı. Ümumilikdə, böyüklər arasında 6-cı oldum. Təbii ki, daha yaxşı çıxış edə bilərdim.

Qeyd edək ki, yekun nəticələrə görə, qadınlar arasında rusiyalı idmançı Valentina Kukruz mütləq qalib elan edildi. Mişel Naql (İtaliya), Sofiya Krevetskaya (Belarus) sonrakı yerləri tutdular. Kişilərin yarışında isə Denis Vasilyev (Rusiya) bütün rəqiblərini geridə qoydu. Aleksey Vşivtsev (Qazaxıstan) 2-ci, Aleksandr Mordaşov (Ukrayna) 3-cü pillələrdə qərarlaşdılar.

Mütləq kateqoriyada qaliblərə medalları Azərbaycan Velosiped Federasiyasının prezidenti Mədət Quliyev, Azərbaycan Triatlon Federasiyasının prezidenti Fərid Fərhadzadə, Gənclər və İdman Nazirliyi idman şöbəsinin müdir müavini Nicat Həsənov təqdim etdilər.

***L.QURBANOVA***
***XQ***













## "İşgüzar – Kredit İttifaqı" MMC-nin 2023-cü il dekabrın 31-nə maliyyə vəziyyəti haqqında hesabatı

manatla

| AKTİVLƏR | 31 dekabr 2023-cü il | 31 dekabr 2022-ci il |
|---|---|---|
| ***Uzunmüddətli aktivlər*** | | |
| Torpaq, tikili və avadanlıqlar | 138 | 208 |
| | **138** | **208** |
| ***Qısamüddətli aktivlər*** | | |
| Pul vəsaitləri və onların ekvivalentləri | 20 | 244 |
| Sair qısamüddətli aktivlər | 69,126 | 49,406 |
| | **69,146** | **49,650** |
| **CƏMİ AKTİVLƏR** | **69,284** | **49,858** |
| **KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | | |
| **KAPİTAL** | | |
| Ödənilmiş nizamnamə kapitalı | 4000 | 4000 |
| Kapital ehtiyatları | 65,284 | 45,858 |
| **CƏMİ KAPİTAL** | **69,284** | **49,858** |
| **ÖHDƏLİKLƏR** | | |
| ***Uzunmüddətli öhdəliklər*** | | |
| ***Qısamüddətli öhdəliklər*** | | |
| **CƏMİ ÖHDƏLİKLƏR** | | |
| **CƏMİ KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | **69,284** | **49,858** |

**Mənfəət və zərər haqqında hesabat**

| | | |
|---|---|---|
| **ƏMƏLİYYAT GƏLİRLƏRİ** | **8,868** | **10,443** |
| **Satışın maya dəyəri** | | |
| Ümumi mənfəət | **8,868** | **10,443** |
| İnzibati xərclər | (13,997) | (15,434) |
| Əməliyyat mənfəəti (zərəri) | (5,129) | (4,991) |
| Vergidən əvvəlki mənfəət (zərər) | (5,129) | (4,991) |
| Hesabat dövründə xalis mənfəət (zərər) | (5,129) | (4,991) |

**Kapitalda dəyişikliklər haqqında hesabat**

| | Ödənilmiş nizamnamə kapitalı | Kapital ehtiyatları (nizamnamə üzrə ehtiyat) | Bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər) | Cəmi |
|---|---|---|---|---|
| Keçmiş hesabat dövrünün əvvəlinə 2022-ci il yanvarın 1-nə qalıq | **4,000** | **77,012** | **(21,663)** | **59,349** |
| Hesabat dövründə xalis mənfəət (zərər) | | | (4,991) | **(4,991)** |
| Kapitalın maddələr arasında köçürmələri | | (4,500) | | **(4,500)** |
| **Keçmiş hesabat dövrünün sonunda 2022-ci il dekabrın 31-nə qalıq** | **4,000** | **72,512** | **(26,654)** | **49,858** |
| **Hesabat dövrünün əvvəlinə 2023-cü il yanvarın 1-nə qalıq** | **4,000** | **72,512** | **(26,654)** | **49,858** |
| Hesabat dövründə xalis mənfəət (zərər) | | | (5,129) | **(5,129)** |
| Kapitalın maddələr arasında köçürmələri | | 24,555 | | **24,555** |
| **Hesabat dövrünün sonunda 2023-cü il dekbarın 31-nə qalıq** | **4,000** | **97,067** | **(31,783)** | **69,284** |
| **Hesabat dövrü üzrə kapitalda dəyişikliklərin cəmi** | **4,000** | **97,067** | **(31,783)** | **69,284** |

**Pul vəsaitlərinin hərəkəti haqqında hesabat**

| | | |
|---|---|---|
| **Əməliyyat fəaliyyətindən pul vəsaitlərinin hərəkəti** | | |
| Hesabat dövründə xalis mənfəət və ya zərər | (5,129) | (4,991) |
| Əməliyyat kreditor borcları və öhdəliklər | 19,720 | 9,203 |
| **Əməliyyat fəaliyyətindən yaranan pul vəsaitlərinin xalis hərəkəti** | **14,591** | **4,212** |
| **İnvestisiya fəaliyyətindən yaranan pul vəsaitlərinin hərəkəti** | | |
| Dividendlərin və gəlirin digər oxşar növləri şəklində pul vəsaitlərinin daxilolmaları | (14,815) | (4,431) |
| **İnvestisiya fəaliyyətindən yaranan pul vəsaitlərinin xalis hərəkəti** | **(14,815)** | **(4,431)** |
| **Maliyyələşdirmə üzrə fəaliyyətdən yaranan pul vəsaitlərinin hərəkəti** | | |
| **Pul vəsaitləri və onun ekvivalentlərinin artması (azalması)** | **(224)** | **(219)** |
| **Pul vəsaitləri və onun ekvivalentlərinin ilin əvvəlinə qalığı** | **244** | **463** |
| **Pul vəsaitləri və onun ekvivalentlərinin ilin sonuna qalığı** | **20** | **244** |

**"İŞGÜZAR-KREDİT İTTİFAQI" MMC-nin təsisçilərinə!**

**Maliyyə hesabatlarının auditinə aid hesabat (rəy)**

Biz, **"İŞGÜZAR-KREDİT İTTİFAQI" MMC-nin** 2023-cü il dekabrın 31-nə tərtib edilən maliyyə hesabatlarının beynəlxalq standartlarına (MHBS) uyğun hazırlanmasının düzgünlüyünü yoxladıq.

Bizcə, **"İŞGÜZAR-KREDİT İTTİFAQI" MMC** tərəfindən başa çatan 2023-cü il dekabrın 31-nə tərtib edilən maliyyə hesabatlarının beynəlxalq standartlarına (MHBS) uyğun hazırlanmışdır.

**Rəy üçün əsaslar**

Biz, auditi Beynəlxalq Audit Standartlarına (BAS-lara) uyğun aparmışıq. Bu standartlar üzrə bizim məsuliyyətimiz əlavə olaraq hesabatımızın "Maliyyə hesabatlarının auditi üçün auditorun məsuliyyəti" bölməsində təsvir edilir. Biz, Azərbaycan Respublikasının qanunvericiliyinə əsasən maliyyə hesabatlarının auditinə aid etik normalarla Mühasiblərin Beynəlxalq Etika Standartları Şurasının "Etika məcəlləsinin" (IESBA məcəlləsi) tələblərinə uyğun olaraq cəmiyyətdən asılı deyilik və digər etik öhdəliklərimizi bu və ya IESBA məcəlləsinin tələblərinə uyğun yerinə yetirmişik. Bizcə, əldə etdiyimiz audit sübutları auditor rəyini əsaslandırmaq üçün yetərli və münasibdir.

**Əsas audit məsələləri**

Əsas audit məsələləri bizim peşəkar mühakiməmizə görə cari dövrün maliyyə hesabatlarının auditində ən əhəmiyyətli məsələlərdir. Bu məsələlər maliyyə hesabatlarının auditi baxımından və maliyyə hesabatlarına aid rəyimizin formalaşdırılmasında bütövlükdə nəzərə alınmış və biz bu məsələlər barədə ayrılıqda rəy vermirik.

**Maliyyə hesabatlarına görə rəhbərliyin və iqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslərin məsuliyyəti**

Rəhbərlik maliyyə hesabatlarının BMHS –na (Beynəlxalq maliyyə hesabatları standartları) uyğun olaraq hazırlanmasına və düzgün təqdim edilməsinə və rəhbərliyin fikrincə, məqsədli şəkildə və ya səhvlər nəticəsində əhəmiyyətli təhrif olmadığı maliyyə hesabatlarının hazırlanmasına imkan verən zəruri daxili nəzarət sisteminin təşkilinə görə məsuliyyət daşıyır.

Maliyyə hesabatları hazırladıqda, rəhbərlik cəmiyyəti ləğv etmək və ya işini dayandırmaq niyyətində olmadığı, yaxud bunu etməkdən başqa münasib alternativ yaranmadığı halda, cəmiyyətin fasiləsiz fəaliyyət göstərmək qabiliyyətinin qiymətləndirilməsinə, müvafiq hallarda fasiləsiz fəaliyyətə aid olan məsələlər haqqında məlumatların açıqlanmasına və mühasibat uçotunun fasiləsiz fəaliyyət prinsipinin istifadə edilməsinə görə rəhbərlik məsuliyyət daşıyır.

İqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslər cəmiyyətin maliyyə hesabatlarının verilmə prosesinə nəzarətə görə məsuliyyət daşıyırlar.

**Maliyyə hesabatlarının auditinə görə auditorun məsuliyyəti**

Bizim məqsədimiz təqdim edilmiş maliyyə hesabatlarında bir tam kimi, məqsədli şəkildə və ya səhvlər nəticəsində, əhəmiyyətli təhriflərin olub-olmadığına dair kafi əminlik əldə etmək və rəyimiz daxil olan auditor hesabatını təqdim etməkdir. Kafi əminlik, əminliyin yüksək səviyyəsidir, lakin o zəmanət vermir ki, əhəmiyyətli təhrif mövcud olduqda, BAS-lara uyğun aparılmış audit onu həmişə aşkarlasın. Təhriflər, məqsədli şəkildə və ya səhvlər nəticəsində yarana bilər və ayrılıqda, yaxud məcmu olaraq istifadəçilərin təqdim edilmiş maliyyə hesabatları əsasında qəbul etdikləri iqtisadi qərarlarına təsir etmək ehtimalı yarandığı halda, əhəmiyyətli hesab olunur.

**"Azel – Audit" MMC-nin direktoru və auditoru:**
**Süleymanova Elzadə Süleyman qızı**
**21 may 2024-cü il.**




Yaddaşlarda yaşayanlar

# El atası, qurucu kolxoz sədri

## Yaxud "Alimlər evi" yaratmış əmək qəhrəmanı

**Öncə bir xatırlatma. Azərbaycan Prezidenti İlham Əliyev bu il aprelin 9-da Ağdaş – Zarağan yolunun 40-cı kilometrliyindən başlayan (Qəbələ rayonu ərazisində) Böyük Pirəlli – Kiçik Pirəlli – Xırxatala – Cığatelli – Həmzəlli avtomobil yolunun açılışında iştirak etmişdir. Rəsmi sənədlərdə qeyd edilirdi ki, 17 minə yaxın əhalinin yaşadığı 15 yaşayış məntəqəsini birləşdirən bu avtomobil yolu tamamilə yenidən qurulub. Yerli sakinlər isə məsələni öz bildikləri kimi ifadə edirdilər: "Cənab Prezident Əşrəf yolunu əvvəlkindən on qat yaxşı bərpa etdirdi". "Əşrəf yolu" ifadəsi barədə bir az sonra.**



... 1995-ci ilin əvvəlləri idi. Ulu öndər Heydər Əliyev "9 May Qələbə Günü"nün bayram kimi qəbul edilməsini bərpa edəndən sonra Nazirlər Kabineti xüsusi planlar hazırlamışdı. O zaman mən Dövlət Radiosunda işləyirdim. Hökumətin hazırladığı plan haqqında material hazırlamaq üçün Nazirlər Kabinetinin Müharibə veteranları və Ağsaqqallar Şurasına (o zamanlar belə adlanırdı) getmişdim.

Orada İsgəndər İsgəndərov ad-soyadlı bir ağsaqqal ( o, şamaxılı olduğunu demişdi) mənim qutqaşenli olduğumu biləndə bizim kənddə kolxoz sədri işləmiş Əşrəf Əlimirzəyev barədə heç zaman unutmayacağım bir xatirəni danışdı: " Altmışıncı illərin ortaları idi. Mən Qutqaşen Rayon Partiya Komitəsinin birinci katibi idim. Əşrəf Qəmərvan kəndindəki "Bakı fəhləsi" kolxozunun sədri idi. Öyrəndim ki, o, rayon rəhbərliyinə məlumat vermədən kənddə "Alimlər evi" tikdirir. Otağıma çağırdım və ən qabaqcıl rəhbərlərdən biri olmasına baxmayaraq, bəlkə də onun heç zaman eşitmədiyi acı sözləri dedim. Gözləmədiyim halda stulu götürüb üstümə hücuma keçdi. Yaxşı ki, otaqda başqa adamlar da var idi... O, fiziki cəhətdən məndən çox güclü idi... Çox qürurlu adam idi."

Ağsaqqaldan soruşdum ki, bəs, siz onu necə cəzalandırdınız?

– Sonrakı il – 1966-cı ildə mən ona Sosialist Əməyi Qəhrəmanı adı verdirdim. "Verdirdim" deməyə haqqım var. Çünki o illərdə birinci katibin təqdimatı cavabsız qalmırdı. Həmin qərarımda "Alimləir evi"nin rolu az deyildi" – deyə, ağsaqqal cavab verdi.

... Əslində, bu yazını "Məni aqronom, mühasib və ya zootexnik kimi görmək istəyən insan" sərlövhəsi ilə qələmə almaq istəyirdim. Çünki Əşrəf dayı ( 60–70-ci illərdə bütün qutqaşenlilər onu məhz "dayı" deyə çağırırdılar. Hətta "Azərbaycan gəncləri" qəzetinin tanınmış bir müxbirinin kəndimizdə ona "dayı" deyə müraciət etdiyini də görmüşdüm) mənim oxumaq üçün Bakıya getməyimi istəmir, bilavasitə özüylə birlikdə Gəncəyə getməyimi, Kənd Təsərrüfatı İnstitutuna qəbul olunmaq üçın ərizə verməyimi məsləhət bilirdi: "Rektordan xahiş edərəm, qəbul olunarsan, diplom alıb gələrsən, birlikdə işləyərik". Amma mən Bakıya getməkdə israrlı idim. Hələ də bilmirəm ki, həmin tərsliklə udmuşam, yoxsa uduzmuşam.

Söhbət Sosialist Əməyi Qəhrəmanı, 2 dəfə Lenin Ordeninə layiq görülmüş... ( digər uğurlarını sadalamasam da, təhsilə göstərdiyi qayğıya görə "Qabaqcıl maarif xadimi" medalına layiq görülməsini xatırlatmalıyam) Əşrəf Əlimirzəyevdən gedir.

Əşrəf dayı rayonun Qəmərvan kəndində – "Bakı fəhləsi" kolxozunun sədri işlədiyi müddətdə məktəb binası, xəstəxana, klub, mehmanxana, su dəyirmanı, taxta emalı sexi, hamam tikdirmişdi. Kəndin mənzərəli guşəsində tikilmiş "Alimlər evi" yaradıcı elm adamlarının ixtiyarına verilmiş, həmçinin bu dağ kəndini Ağdaş yoluna qovuşduran asfalt yol çəkilmiş, yolboyu bir neçə çayın üzərində körpü salınmışdı. O dövrdən əlli ildən çox keçməsinə baxmayaraq, rayon camaatı hələ də həmin yolu "Əşrəf yolu" kimi qəbul edir.

O, mənim doğulub böyüdüyüm Mirzəbəyli kəndində də öz prinsiplərinə sadiq qalaraq, Xanlar adına kolxozun sədri olduğu illərdə məktəb binası, xəstəxana, müəllimlər üçün yaşayış evi, uşaq bağçası, hamam tikdirmiş və kənd mərkəzindən Çuxur Qəbələ və İmamlı kəndlərinə yol çəkdirmişdi. O illər üçün bu faktlar olduqca böyük göstəricilər idi.

Üstəlik, o, mənim gənc mexanizator kimi Moskvaya – SSRİ Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisinə, rayon komsomol komitəsinin plenum üzvü kimi Bakıya, Respublika Komsomolunun XXIX qurultayına göndərilməyimin, kolxoz Xalq nəzarəti qrupunun sədri seçilməyimin təşəbbüskarı, rayonda çıxan "Qalibiyyət" qəzetində verilmiş istənilən yazımın "təbliğatçısı" idi. Ondan "Ədə, gedin, Məmmədcanın oğlunun kəndimiz haqqındakı yazılarını oxuyun, siz də kənd üçün nə isə etməyə çalışın"– sözlərini çoxları eşitmişdi.

Allah ona da rəhmət eləsin, 44 günlük İkinci Qarabağ müharibəsində şəhid olmuş nəvəsinə də.

***İttifaq MİRZƏBƏYLİ,***
***Əməkdar jurnalist***

# Naftalana mobil pəncərə açıldı





**Naftalan Şəhər İcra Hakimiyyətinin təşəbbüsü və təşkilatçılığı ilə nəfis tərtibatda hazırlanmış "Visit Naftalan" mobil tətbiqinin təqdimatı keçirilib.**

Mərasimdə ŞİH-nin məsul əməkdaşları, Gəncə Regional Turizm Mərkəzinin, yerli hotel və müalicə mərkəzlərinin rəhbərləri, turistlər iştirak edib.

ŞİH başçısının müavini Kəmalə Hüseynova möcüzəli neftə sahib Naftalanın beynəlxalq müalicə turizmi potensialı barədə məlumat verərək, onun inkişaf etdirilməsinin vacibliyini vurğulayıb. Həmçinin qeyd edib ki, üç dildə fəaliyyət göstərən "Visit Naftalan" tətbiqinin yaradılması bu sahədə atılan addımlardan biridir. Bu tətbiqin istifadəsi turist məmnunluğu ilə yanaşı əlçatanlığı da təmin edəcəkdir.

Daha sonra tətbiqdən istifadə qaydaları barədə videoçarx nümayiş etdirilib, tədbir iştirakçılarını maraqlandıran suallar cavablandırılıb.Tədbirdə iştirak edən xarici turistlərə ŞİH-nin xatirə hədiyyələri təqdim olunub.

İnternet istifadəçiləri "Visit Naftalan" mobil tətbiqini "Android" və "İOS" əməliyyat sistemi ilə çalışan mobil telefonlardan yükləyə bilərlər. Qeyd edək ki,"Visit Naftalan"mobil tətbiqi ilə yanaşı, www.visitnaftalan.az saytı da artıq istifadəçilərin ixtiyarındadır.

***H.ZEYNALOĞLU,***
***XQ-nin bölgə müxbiri***

**Naftalan**

# "Rusiyasız müzakirə boşluğa atılan güllədir"



**Avropa İttifaqı Ukrayna məsələsi üzrə sammitdən sonra Rusiyanın da iştirakı ilə daha bir görüşün keçirilməsini istəyir. Bu barədə "Euronews" agentliyi məlumat yayıb.**

Xəbərə əsasən, haqqında bəhs olunan müzakirələrin Səudiyyə Ərəbistanında təşkili təklif olunur. Qeyd edək ki, Ukrayna Prezidenti Volodimir Zelenski İsveçdəki zirvə görüşündə Rusiya ilə sülhə dair təklif edəcəyi formula beynəlxalq ictimaiyyətin dəstəyini qazanmağı hədəfləyir.

Görüşdə iştiraka dəvət edilməyən Rusiya isə Xarici İşlər Nazirliyi səviyyəsində həmin toplantını "boşluğa aparan yol" adlandırıb.

***XQ***

# Çin yarımkeçiricilərə əlavə dəstək verir

**Çin yarımkeçirici sənayesini inkişaf etdirmək məqsədilə 344 milyard yuan (47,5 milyard dollar) nizamnamə kapitalı ilə hökumət tərəfindən dəstəklənən planlaşdırılmış üçüncü investisiya fondu yaradır.**



Yeni fondun Çinin 2 ən böyük çip fabriki – Yarımkeçirici İstehsalat Beynəlxalq Korporasiyası və "Hua Hong Semiconductor"a, həmçinin flash yaddaş istehsalçısı "Yangtze Memory Technologies" və bir sıra kiçik şirkət və fondlara böyük maliyyə vəsaiti ayıracağı gözlənilir.

***AYTƏN***
***XQ***

# NATO-nun Qara dəniz regionuna marağı güclənir

**NATO alyansa birbaşa hücum təhlükəsi görmür, lakin Qara dəniz regionu da daxil olmaqla, hərbi mövcudluğunun artırılmasını zəruri hesab edir. Bunu NATO-nun baş katibi Yens Stoltenberq bildirib. Onun sözlərinə görə, NATO Rusiya ilə münaqişə axtarmır və Ukraynaya dəstək Şimali Atlantika Alyansını münaqişə tərəflərindən birinə çevirmir.**






"Biz heç bir NATO ölkəsinə silahlı hücum təhlükəsi görmürük, lakin Ukraynada müharibə davam etdikcə və Qara dəniz regionunda qeyri-sabitlik hökm sürürsə, ayıq-sayıqlığımızı artırmağa, yerdə və havada mövcudluğumuzu artırmağa ehtiyac var. Biz, həmçinin NATO daxilində hərbi imkanlarımızı sürətlə gücləndirmək və ya dəyişmək qabiliyyətimizi artırmaq üçün inteqrasiya olunmuş raketdən müdafiə sisteminin inkişafına daha çox sərmayə qoymağa razılaşdıq", – deyə cənab Stoltenberq NATO Parlament Assambleyasının sessiyasındakı çıxışı zamanı bildirib.

O, dəqiqləşdirib ki, NATO Ukraynanı dəstəkləyəcək, lakin Ukraynadan kənarda münaqişənin genişlənməsinə imkan verməyəcək. "Buna görə də bizim Ukraynada NATO qüvvələrini yerləşdirmək və ya NATO texnikasını Ukrayna hava məkanına göndərmək planımız yoxdur", – deyə baş katib qeyd edib.

Cənab Stoltenberq çıxışı zamanı, həmçinin təsdiqləyib ki, o, Rusiya Federasiyası ərazisində "qanuni hədəflərə" hücumlar üçün Ukraynaya verilən silahların istifadəsinə qoyulan məhdudiyyətlərin aradan qaldırılmasının tərəfdarıdır. O, bu çağırışı rəsmi olaraq keçən həftə etmişdi. Onun sözlərinə görə, "Ukraynaya verilən silahlar Ukraynanındır və bizim olmaqdan çıxıb və Ukraynanın özünümüdafiə hüququ var".

Mayın ortalarında Böyük Britaniyanın Müdafiə Nazirliyinin rəhbəri Qrant Şapps bildirmişdi ki, London yarımadanı Ukrayna ərazisinin bir hissəsi hesab etdiyi üçün Kiyevə Krıma hücuma icazə verib. "The New York Times" keçən həftə yazıb ki, ABŞ Dövlət katibi Antoni Blinken Ağ evə Rusiyaya qarşı zərbələrə qoyulan qadağanı aradan qaldırmağı təklif edib, lakin ABŞ hələ ki, rəsmi olaraq belə bir qərar qəbul etməyib. NATO baş katibinin çağırışı Polşa tərəfindən rəsmən dəstəklənib, Almaniya isə buna qarşı çıxıb.

***S.ELAY***
***XQ***

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 111 (30515) 28 may 2024-cü il, çərşənbə axşamı

İDMAN



## Sərbəst güləş millimiz də qitə çempionu oldu

**Güləş üzrə Bakıda keçirilən U-23 Avropa çempionatı başa çatıb.**

Yarışın son günlərində mübarizə aparan sərbəst güləş üzrə millimiz digər komandalarımızın uğurunu davam etdirib. Turnirdə 1 qızıl, 2 gümüş və 2 bürünc medal qazanan yığmamız 137 xal toplayaraq komanda hesabında Avropa çempionu olub.

Türkiyə (119) ikinci, Moldova (96) isə üçüncü yeri tutub.

Qeyd edək ki, qitə çempionatında böyük uğurla çıxış edən (3 qızıl, 1 gümüş və 4 bürünc medal) yunan-Roma millimiz də komanda hesabında U-23 Avropa çempionu olub. Qadın güləşi üzrə yığmamız isə 1 qızıl, 1 gümüş, 1 bürünc medalla, ümumi hesabda 3-cü olub.

## Avropa kubokunda 5 mükafat



**Portuqaliyanın Koimbra şəhərində cüdo üzrə yeniyetmələr arasında Avropa kuboku yarışı keçirilib.**

Azərbaycan komandası turnirdə 3 gümüş və 2 bürünc medal qazanıb. Yarışda Nihad Rəhimov (60 kq), Slim Sultanov (66 kq), Hüseyn Eyvazlı (90 kq) gümüş medala layiq görülüblər. Kənan Sadıqov (66 kq) və Aytən Verdiyeva (57 kq) bürünc medala yiyələniblər.

Yekun nəticədə, Azərbaycan yığması ümumi hesabda 6-cı yeri tutub.

## Qoridə 7 medal qazanıldı



**Gürcüstanın Qori şəhərində sərbəst güləş üzrə "Şxireli kuboku" turnirində U-20 millimiz 7 mükafat qazanıb.**

Komandamızın üzvlərindən Vasif Bağırov (57 kq), Musa Verdiyev (65 kq) və Ramik Heybətov (70 kq) bütün rəqiblərinə qalib gələrək qalib adına layiq görülüblər. Camal Abbasov (61 kq) gümüş medala sahib olub. Əhməd Əhmədli (74 kq), Emin Qocayev (79 kq) və Sadiq Mustafazadə (86 kq) bürünc medal alıb.

Turnirdə Gürcüstan, Azərbaycan, ABŞ, Qazaxıstan və İran komandaları iştirak ediblər.

*L.QURBANOVA*
*XQ*

TURAN ELLƏRİ



# Xristian türklər: çuvaşlar

**(I YAZI)**

Bu silsilə yazımda, əsasən, dünyanın hər tərəfinə yayılmış xristian türklər barədə söz açacağam. Birinci yazımı pravoslav xristian olan Çuvaş xalqı haqqında başlayıram. Çuvaşlar Orta Volqa bölgəsində, Çuvaşıstan Muxtar Respublikasında yaşayan, əhalisinin sayı, təxminən, 2 milyona çatan türkdilli xalqdır. Çuvaşlar pravoslav inanclı 2 türk xalqından biridir. Digər xristian türklər isə qaqauzlardır.

Çuvaş xalqının qədim tarixi haqqında yetərincə məlumat yoxdur. Yazılı mənbələrdə faktların azlığı onların mənşəyi ilə bağlı müxtəlif fikirlərin irəli sürülməsinə səbəb olmuşdur. Tarix boyu yurddan-yurda köç etmiş, başı qeylü-qallar çəkmiş çuvaş xalqı öz tarixi haqqında yazılı mənbələrin it-bata düşməsini özünəməxsus yumorla qarşılayaraq belə bir məsəl yaratmışdır: "Çăvaş kĕnekine ĕne sine"- yəni, "Çuvaşın kitabını inək yedi".

Ehtimal olunur ki, çuvaşlar qədim zamanlarda Qara dənizin şimal sahillərindən köç edib sıx meşələrdən keçərək indiki torpaqlarında məskunlaşıblar.

"Çuvaş" etnoniminin mənşəyi və mənası ilə bağlı yekdil fikir yoxdur. Bir ehtimala görə, "çuvaş" suvar sözünün şaz türkcəsindən (XIX yüzilliyin rus qaynaqlarında Cağatay türkcəsi Kazan tatarları, noqaylar, çuvaşlar və s. türkdilli xalqların ortaq dili kimi nəzərdə tutulurdu-red) çevrilmiş formasıdır. Digər ehtimala görə, "çuvaş" türk dillərində işlənən "yavaş" sözündən törəyib "ləngərli" mənasını daşıyır. Türkoloq Gerard Klausona görə, "çuvaş" etnonimi "tabğaç" sözünün deformasiyaya uğramış forması da ola bilər. Orxan-Yenisey yazılarında adı keçən Tabğaç dövləti bir zamanlar Çinin şimalında, təxminən 386-cı ildə bərqərar olmuşdur.

Çuvaşlar haqqında məlum olan digər əsas tarixi fakt budur ki, onlar bir türk etnosu olaraq eramızdan əvvəl Orta Asiyadan Şərqi Avropaya köçən hunların, xəzərlərin, peçeneqlərin və bolqarların arasında yaşayıblar. Çuvaşlar bu gün proto-bolqarların danışdıqları Oğur türkcəsində (Qərbi Hunca) danışan yeganə xalqdır. Məhz buna görə onların mənşəyinin bugünkü İtil bölgəsində məskunlaşan Volqa bolqarlarından gəldiyi düşünülür. Eyni zamanda, XIV əsrdən başlayaraq, bölgədə məskunlaşmış bir çox türk tayfaları ilə yanaşı, bəzi yerli fin-uqor xalqlarının da türkləşərək çuvaşların etnik kimliyində iştirak etdiyi güman edilir.

1237-ci ildə Volqa-Bulqar dövləti türk-monqol ordusu tərəfindən darmadağın edildi. Sonralar həmin ərazilərdə yaradılmış Qızıl Orda dövlətinin sərhədləri indiki Çuvaşıstan ərazisini də əhatə edirdi. XIV əsrdə Qızıl Orda dövləti parçalanmağa başladı və XV əsrdə yaranan Qazan xanlığının tərkibinə indiki Çuvaşıstan ərazisi də daxil edildi. Daha sonra Qazan xanlığı 1552-ci ildə Rusiya çarı İvan Qroznı tərəfindən ələ keçirildi.

Çuvaş adına rus mənbələrində ilk dəfə XV əsrin birinci rübündə rast gəlinir. İşğaldan sonra bütün torpaqlarını itirən və ruslara xərac verməyə məcbur olan çuvaş kəndliləri artıq əkinçilik məşğuliyyətinə ara verdilər. Əhalinin bir qismi dolanışıq dalınca Türkiyəyə köçdü. 1650-ci ildə Çuvaşıstan Moskva knyazlığına birləşdirildi, XVII əsrin sonlarında isə Çuvaşıstan torpaqları Simbirsk və Kazan quberniyaları arasında bölüşdürüldü.

Qızıl Orda dövlətində yaşayan, əsasən, müsəlman dininə etiqad edən çuvaşlar Rusiyaya birləşdirildikdən sonra tədricən xristianlığı qəbul etdilər. Tatarlardan fərqli olaraq, çuvaşların əksəriyyəti xaç suyuna salınaraq vəftiz (tamamilə suya batırılma deməkdir-red) olundular. Həmin dönəmlərdə ruslar yerli türk xalqları arasında xristianlığın təbliğində xüsusilə maraqlı idilər. Rus hökuməti "İncil"i çuvaş dilinə tərcümə etdirmişdi. Xristianlığı yerli xalqın arasında yaymaq üçün missionerlərə çuvaş dilində səlis danışmaq lazım gəlirdi. Bunun üçün rus hökuməti çuvaş dilinin qrammatikası kitabını (1769-cu il) hazırlatdırdı. Bu zaman Kazan Universitetinin "Şərq dilləri fakültəsi" ümumən türk dilləri sahəsində tədqiqatların aparılmasında fəal rol oynayırdı. 1836-cı ildə çuvaş dili ilə bağlı yeni bir kitab – V. P. Vişnevskinin hazırladığı "Çuvaş dili qrammatikası və lüğəti" nəşr olundu.

XX əsrin əvvəllərində Rusiyada baş verən sosialist inqilabı nəticəsində Çuvaşıstanda da çar hökumətinə qarşı üsyan başladı. 1917-ci ilin martında Şupaşkarda çarizmi yıxmaq və müstəqillik əldə etmək məqsədi ilə ilk silahlı dəstələr yaradıldı. 1918-ci ilin mayında milli azadlıq hərəkatı bütün Çuvaşıstana yayıldı. Lakin Rusiya imperiyasının əsarətində olan türk xalqları çar devrildikdən sonra da öz azadlıqlarına qovuşa bilmədilər.

Bolşeviklər tezliklə hər yerdə nəzarəti ələ keçirdilər. Çuvaşıstanın milli azadlıq mübarizəsi yenildi. 24 iyun 1920-ci ildə Sovet İttifaqının tərkibində Çuvaşıstan Muxtar Vilayəti yaradıldı. 1925-ci ildə isə vilayətin adı dəyişdirilərək Çuvaşıstan Muxtar Sovet Sosialist Respublikası (Çuvaşıstan MSSR) adlandırıldı. 1990-cı ildə Sovet İttifaqının dağılmasından sonra Çuvaşıstan Respublikası Rusiya Federasiyasının tərkibində fəaliyyət göstərir. Paytaxtı Şupaşkar (Çeboksarı) olan, əcdadlarını unutmayan Çuvaşıstanın ən iri rayonlarından birinin adı isə Şumerliyadır. Respublikanın rəsmi dili çuvaş və rus dilidir.

**Murad KÖHNƏQALA**

# Süni intellekt yeni möcüzələr yaradacaq

**Gələcəkdə robotlar və süni intellekt (AI) insanları istənilən mal və xidmətlə təmin edəcək. Bu proqnozu amerikalı iş adamı İlon Mask verib: "Əgər hobbi kimi işləmək istəyirsinizsə, işləyə bilərsiniz. Amma əks halda, süni intellekt və robotlar sizi lazım olan bütün mal və xidmətlərlə təmin edəcək".**

İş adamı süni intellekt texnologiyalarının "siyasətə" qoşulmasının əleyhinədir. O hesab edir ki, bu, süni intellekti "yalan danışmağa" öyrədəcək. Eyni zamanda, "son dərəcə təhlükəlidir və potensial olaraq insanlığın məhvinə səbəb ola bilər". Çünki saxta məlumat yaratmaq üçün dərin kompüter biliklərinə ehtiyac yoxdur. Açar sözlər və mətn daxil etməklə istənilən nəticəni əldə etmək mümkündür.



Süni intellekt, şübhəsiz ki, redaksiyalar üçün də bir sıra geniş imkanlar yaradır. Buraya mətnlərin orijinal və innovativ formada hazırlanması, fotoşəkillərə şərh verilməsi, nitqin mətnə çevrilməsi kimi sahələr daxildir. Amma bu məlumatların təhlükəli istiqamətə yönəldilməsi də mümkündür.

Xatırladaq ki, İ.Mask bu ilin martında bildirmişdi ki, 2025-ci ildə süni intellekt istənilən insandan, 2029-cu ilə qədər isə bütün insanlardan daha ağıllı olacaq.

*PÜNHAN*
*XQ*

# Planetlər parada hazırlaşır

**İyunun 3-də səmada "planetlərin paradı" müşahidə olunacaq. 7 planet – Venera, Merkuri, Mars, Yupiter, Saturn, Uran və Neptun Günəşdən qərbdə, təxminən, 90 dərəcəlik bucaq sektorunda yerləşəcək.**



BDU-nun Astrofizika kafedrasının yaydığı məlumatda deyilir ki, iyunun 3-də saat 02:00-dan başlayaraq, Saturn, 03:00-dan Mars, 04:50-dən Günəş doğana qədər şərq tərəfdə üfüqə yaxın Yupiter və Merkuri adi gözlə görünəcək. Uranı isə adi gözlə çətinliklə, Merkuridən 20 dəqiqə əvvəl – saat 04:20-dən sonra seyr edə biləcəyik. Buna oxşar 6 planetin "paradı" avqust ayının axırları və ya sentyabrın əvvəllərində baş verəcək.

Astronomik hadisə sayılan "planetlərin paradı" bir neçə planetin bir-birinə kifayət qədər yaxın olduğu və Günəşə nisbətən bir tərəfdə şərti cərgədə düzülüşünə deyilir.

Xatırladaq ki, kosmosda ən böyük "parad" 1982-ci il martın 10-da qeydə alınıb. O zaman 8 planet (Merkuri, Venera, Yer, Mars, Yupiter, Saturn, Uran, Neptun və o dönəmlər planet hesab edilən Pluton) Günəşdən bir tərəfdə 95 dərəcəlik sektorda yerləşmişdi.

*Sevda SƏLİMOVA*
*XQ*

## ALLAH RƏHMƏT ELƏSİN

"Xalq qəzeti"nin baş redaktoru Əflatun Amaşov Saatlı Tarix-Diyarşünaslıq muzeyinin direktoru, Əməkdar mədəniyyət işçisi Sürəyya Zeynalovaya anası

**QIZXANIM XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

"Xalq qəzeti"nin kollektivi qəzetin məsul katibi İlqar Rüstəmova bibisi

**XANIMGÜL XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rektorluğu, Həmkarlar İttifaqı Komitəsi və professor-müəllim heyəti prorektor Əbülfəz Talıbova qardaşı

**VÜSAL TALIBOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Unuversitetinin rektorluğu və professor-müəllim heyəti prorektor Sədaqət Əliyevaya qardaşı

**MƏMMƏDHÜSEYN MEHDİZADƏNİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Dövlət İqtisad Universitetinin karyera planlaşdırılması və inkişafı kafedrasının kollektivi kafedranın müdiri, baş müəllim Rəşad Məhərrəmova anası

**XURAMAN XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

# Aranda yağmursuz, dağlarda yağış və duman...

**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən, mayın 28-də Bakıda və Abşeron yarımadasında hava yağmursuz keçəcək. Şimal-qərb küləyi əsəcək, gündüz şimal-şərq küləyi ilə əvəz olunacaq.**

Gecə 13-18°, gündüz 23-28° isti olacaq. Atmosfer təzyiqi normadan yüksək 763 mm civə sütunu, nisbi rütubət gecə 60-70, gündüz 45-55 faiz olacaq. Azərbaycanın rayonlarında əksər rayonlarda, əsasən, yağmursuz keçəcək. Lakin gündüz bəzi dağlıq və dağətəyi rayonlarda arabir yağış yağacağı gözlənilir. Qısamüddətli leysan xarakterli olacağı, şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Bəzi yerlərdə arabir duman olacaq. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturu gecə 13-17°, gündüz 23-28°, dağlarda gecə 5-10°, gündüz 13-18° isti olacaq.

*Q. QASIMOV*
*XQ*



BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75 Mühasibatlıq: 498-85-29
Məsul katib: 493-61-02 E-mail: xalqqazeti@gmail.com
Texniki şöbə: 493-59-64 info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 4000
SİFARİŞ 1129
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Tahir AYDINOĞLU
Çapa imzalanmışdır 00:00